RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 123 (9002) BAZAR, 12 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Gəldik, gördük, sevdik!



Paytaxtımızda "Formula-1" Qran-prisinin həyəcanı yaşanır. Bununla əlaqədar şəhərimizə gələn turistlərin sayı da nəzərəçarpacaq dərəcədə artıb. Hazırda Bakı Bulvarı, xüsusən də qədim İçərişəhər turistlərin daha çox olduğu ərazilərdir.

Ötən gün İçərişəhərdə gəzişən turistlərlə söhbətləşdik. Tarixi yerləri gəzən turistlər yol kənarlarındakı köşklərdə sərgilənən suvenirlər, milli mətbəximizə aid nümunələr, eləcə də əllə toxunan xalça və geyimlərlə maraqlanırdılar. Hər biri kiçik də olsa, nəsə almağa çalışırdı. Ən çox üzərində Azərbaycana, Bakıya aid elementlərin olduğu taxta, şüşə və ya gipsdən hazırlanan suvenirlər alınırdı. Milli Azərbaycan papaqlarını başlarına qoyub şəkil çəkdirənlərə də rast gəlirdik. Əhvalları öncəki günlərdən daha fərqli, daha coşqulu idi. Səbəbi isə yarışların başlaması idi.

→ 5



## İlham Əliyevin sərkərdəliyi ilə zəfər qazandıq, indi isə himayəsiylə rahat həyat yaşayırıq

### Vətən müharibəsi əlilləri və şəhid ailələri Prezidentin mərhəmətindən razılıq edirlər

→ 3

## Etibarlı ixracatçı, modern infrastruktur

### Azərbaycanda elektrik enerjisinin istehsalı və ötürülməsi sahəsində görülən işlər ən müasir standartlara uyğundur

Azərbaycanın müasir inkişaf strategiyasında elektrik enerjisi ilə dayanıqlı təminat, yeni generasiya mənbələrinin yaradılması hər zaman prioritet istiqamətlərdən birini təşkil edib. 2004-cü ildən həyata keçirilməsinə başlanan regionların inkişafına dair dövlət proqramlarında da qarşıya qoyulan ilk vəzifələrdən biri mövcud generasiya güclərinin artırılması və bu sahədə olan infrastrukturun yenidənqurulması olub. Prezident İlham Əliyev elektrik enerjisi istehsalının artırılmasını, bu sahədə respublikamızın mövqelərinin möhkəmləndirilməsini xüsusi diqqət mərkəzində saxlayır.

### Artan güc inkişafın göstəricisidir

Ötən dövrün statistikasına nəzər salsaq, respublikada generasiya güclərinin artırılması istiqamətində nə qədər möhtəşəm inkişafın olduğunu görərik. Regionların inkişafına dair I Dövlət Proqramının icra olunduğu 2006-cı ildə Astarada, Naxçıvanda, Şəkidə, Xaçmazda istifadəyə verilən və hər biri 87 meqavat olan elektrik stansiyaları artan iqtisadi ehtiyacların qarşılanmasına uğurla xidmət etdi. 2007-ci ildə 105 meqavat olan "Bakı" Elektrik Stansiyasının, 2008-ci ildə 300 meqavat olan "Səngəçal" Elektrik Stansiyasının, 2009-cu ildə 525 meqavat gücündə "Sumqayıt" Elektrik Stansiyasının və 105 meqavatlıq "Şahdağ" elektrik stansiyasının, 2013-cü ildə 780 meqavat gücündə "Cənub" Elektrik Stansiyasının, 2019-cu ildə 400 meqavat gücü olan "Şimal-2" stansiyasının istismara verilməsi respublikamızın generasiya gücünün artırılmasında böyük rol oynadı.

→ 2

## Azərbaycanla Türkiyənin birgə layihəsi bütün Avropa məkanına fayda gətirir

### TANAP-ın istifadəyə verilməsinin 4 ili tamam olur

2018-ci il mayın 29-da Bakıda, Səngəçal terminalında "Cənub qaz dəhlizi" istifadəyə veriləndən cəmi iki həftə sonra Türkiyədə, Əskişəhərdə TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) istismara daxil olması böyük nailiyyət idi. Bu mühüm hadisə Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsinin uğurla tamamlanacağına zəmanət verirdi.

Dəhlizin işə düşməsinə onun ilk iki seqmentinin yekunlaşması imkan yaratmışdı. Belə ki, "Şahdəniz" layihəsinin ikinci mərhələsi çərçivəsində artıq qaz əldə olunmuş və CQBK (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilmişdi. TANAP-ın tikintisinin başa çatması ilə üçüncü seqment istifadəyə verildi. Qarşıda yalnız TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) tamamlanması qalırdı.

TANAP 2018-ci il iyunun 12-də Azərbaycan, Türkiyə, Serbiya, Ukrayna prezidentlərinin, Şimali Kipr xalqı liderinin və digər rəsmi şəxslərin iştirakı ilə istifadəyə verildi. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı vaxt - həmin il iyunun 30-da başlandı.

Fəaliyyətə başladığı vaxtdan indiyədək bu kəmərlə 29 milyard kubmetr Azərbaycan təbii qazı nəql olunub. Bu barədə cari il iyunun əvvəlində keçirilən Bakı Enerji Forumunda məlumat verilib. Bildirilib ki, həmin həcmin 6,8 milyard kubmetri bu il ixrac edilib.

→ 8



## İdman paytaxtının "Formula-1" zirvəsi

→ 4

## Çimərlik mövsümü çimərliksiz başlayır

İyunun 15-dən Azərbaycanda çimərlik mövsümü başlayır. Yay mövsümündə əhalinin əsas üz tutduğu yerlərdən olan çimərliklər pandemiya dövründə ya bağlı qaldı, ya da ki, müəyyən qaydalar çərçivəsində işlədi. Bu il isə xəstəliyin səngiməsi səbəbindən çimərliklər yenidən insanları coşqu ilə qoynuna alacaq.




→ 10

## Dirçəliş ünvanı - ŞUŞA

Qarabağın 270 illik əzəmətli tarixə malik büllur sarayı Şuşa gündən-günə dirçəlir, Qafqazın möcüzəvi şəhərinə çevrilir. Böyük qəhrəmanlıqla azadlığına qovuşdurulan Vətən qibləmiz indi də adına yaraşan şan-şöhrətini özünə qaytarır, beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edərək mədəniyyətin, barışığın, sülhün ismarıc məkanı, zəfərin ünvanı kimi dünyaya səs salır.

→ 9

## "Yaşıl inqilab"ın avtomobili



- Əşi, nəyinə lazımdır o maşın?..
Sənə lazımdırmı ki, saatlarla vaxtın getsin?!
Durub 3 saat enerjiyığma aparatının qabağında gözləyəcəksən, buna gərək varmı?
Gəl sən mənə qulaq as, ən yaxşısı dizeldir, bir çəni doldurdun, günlərlə gəz-dolan hər yeri…

→ 10

# Beynəlxalq Avtomobil Federasiyasının prezidenti Heydər Əliyev Mərkəzini ziyarət edib





**Beynəlxalq Avtomobil Federasiyasının (FIA) prezidenti, ralli üzrə keçmiş pilot Mohammad ben Sulayem Heydər Əliyev Mərkəzini ziyarət edib.**

AZƏRTAC xəbər verir ki, qonaq əvvəlcə Heydər Əliyev Muzeyində Ümummilli Liderin xidməti istifadəsində olmuş avtomobillərə baxıb. O, muzeydə Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin bütün dövrlərini əhatə edən video və fotoarxiv sənədlər, eləcə də müxtəlif eksponatlarla tanış olub.

"Azərbaycan inciləri: tarixin axarında", "Musiqi alətləri: birlik və müxtəliflik", "Kukla incəsənətdə" sərgilərində olan FIA prezidenti mərkəzdə nümayiş etdirilən klassik avtomobillərə də baxıb.



FIA prezidenti Mohammad ben Sulayem və Azərbaycan Avtomobil Federasiyasının prezidenti Anar Ələkbərov məktəblilər arasında "Gələcəyin ekoloji avtomobili" virtual rəsm müsabiqəsinin qaliblərini diplomlarla təltif ediblər. Müsabiqə Azərbaycan Avtomobil Federasiyası və Azərbaycan Avtomobil Dilerləri Assosiasiyası tərəfindən təşkil olunmuşdu.

FIA prezidenti, həmçinin gənclər və idman naziri Fərid Qayıbovla görüşüb. Görüşdə ikitərəfli əlaqələr, Azərbaycan Avtomobil Federasiyasının avtomobil idmanı sahəsindəki fəaliyyəti müzakirə edilib.

# Slovakiya Milli Şurasının Sədri Şuşaya səfər edib

**Ölkəmizdə səfərdə olan Slovakiya Milli Şurasının Sədri Boris Kolların rəhbərlik etdiyi parlament nümayəndə heyəti iyunun 11-də Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində olub.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, qonaqları parlamentin Sədr müavini Adil Əliyev, Slovakiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anar Məmmədov və digər rəsmi şəxslər müşayiət ediblər.

Şuşaya səfər çərçivəsində qonaqlar Füzuli Beynəlxalq Hava Limanına gəliblər. Onlara Prezident İlham Əliyevin sərəncamı ilə qısa müddətdə tikilərək istifadəyə verilmiş bu hava limanının texniki imkanları barədə məlumat verilib. Slovakiya parlamentinin nümayəndələri Füzuli Beynəlxalq Hava Limanının və tikilməkdə olan Laçın hava limanının maketləri ilə də tanış olublar.

Sonra qonaqlar Füzulidən minalardan təmizləmə işləri aparılan sahəyə gediblər, minalardan təmizləmə işlərinin gedişi ilə yaxından tanış olublar. Burada Slovakiya Milli Şurasının sədri Boris Kolların iştirakı ilə minanın uzaq məsafədən partladılması prosesi həyata keçirilib. Sonra qonaqlar Şuşa şəhərinə yola düşüblər.

Şuşa şəhərində Slovakiya parlament nümayəndə heyətini Prezidentin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov qarşılayaraq, onlara Şuşanın Qala divarları, şəhərin tarixi, işğal dövründəki vəziyyəti və aparılan quruculuq işləri barədə danışıb. Parlament nümayəndələrinin diqqətinə çatdırılıb ki, şəhərdəki tarixi abidələr və məscidlər Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti altında bərpa olunur. Qonaqlara şəhərdə bərpa olunmuş tarixi abidələr, tikiləcək yeni yaşayış binaları barədə də məlumat verilib.

Səfər zamanı qonaqlar Şuşanın Qala divarlarını seyr ediblər, Şəhər Meydanı ətrafında yerləşən Prezidentin Xüsusi Nümayəndəliyinin binasında aparılan bərpa işləri ilə tanış olublar. Onlara Şəhər Meydanı, oradakı Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş heykəlləri barədə məlumat verilib.

Sonra parlament nümayəndələri Cıdır düzündə olublar. Bildirilib ki, qəhrəman əsgərlərimiz böyük şücaət göstərərək sıldırım qayalarla Cıdır düzünə qalxmış, canları və qanları bahasına Şuşanı işğaldan azad etmişlər. Bu gün Cıdır düzü işğaldan əvvəl olduğu kimi, möhtəşəm tədbirlərin keçirilməsi məkanına çevrilib.

Slovakiya Milli Şurasının sədri Boris Kollar Şuşada Slovakiyanın STV telekanalına müsahibə verib. Spiker müsahibəsində Şuşanın azad olunmasından, Azərbaycanın görkəmli mədəniyyət xadimləri Xurşidbanu Natəvanın, Bülbülün, Üzeyir bəy Hacıbəylinin ermənilər tərəfindən güllələnmiş heykəllərinin tarixindən danışıb, səfər barədə təəssüratlarını bölüşüb.

*"Azərbaycan"*

# Şuşada Milli Məclisin komitələrinin birgə dinləmələri keçirilib

**İyunun 11-də Milli Məclisin Aqrar siyasət və Regional məsələlər komitələrinin Şuşa şəhərində birgə iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov tədbiri açaraq parlamentin komitə iclaslarının "Şuşa ili"ndə Azərbaycanın mədəniyyət paytaxtı kimi yenidən dirçələn Şuşa şəhərində keçirilməsinin qürurverici olduğunu söyləyib. O, Milli Məclisin komitə iclaslarının Şuşa şəhərində keçirilməsinə verdiyi dəstəyə görə parlamentin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib. Komitə sədri iclasın "Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonaları yeni regional, sosial-iqtisadi, aqrar inkişafın ünvanıdır" mövzusunda dinləmələrə həsr olunduğunu diqqətə çatdırıb. Siyavuş Novruzov incəsənətimizin beşiyi olan Şuşanın artıq qələbəmizin, birliyimizin də rəmzinə çevrildiyini qeyd edib, burada Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa nəzarəti ilə aparılan bərpa-quruculuq işlərinin miqyasından danışıb.

Komitə sədri Prezident İlham Əliyevin fərmanı ilə Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının yaradılmasının ölkədə regional iqtisadi idarəetmənin təkmilləşdirilməsi və ərazicə optimallaşdırılması baxımından əhəmiyyətindən bəhs edib, bu iqtisadi zonalara daxil olan rayonların hər birinin özünəməxsus zəngin təbii resurslara, yüksək iqtisadi potensiala malik olmasını diqqətə çatdırıb.

Sonra çıxış edən Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Prezident İlham Əliyevin Ali Baş Komandanlığı altında Azərbaycan Ordusunun şanlı zəfəri ilə 30 illik həsrətə son qoyulmasından danışıb. O, cəmi 44 gün ərzində torpaqlarımız işğaldan azad edildiyi kimi, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bu ərazilərin qısa müddətdə dirçələcəyinə inamını bildirib.

Komitə sədri Şərqi Zəngəzur və Qarabağ iqtisadi bölgəsinə daxil olan rayonların iqtisadiyyatında ənənəvi sahələrə üstünlük verilməklə yanaşı, rəqabətədavamlı qeyri-ənənəvi sahələrin də inkişaf etdirilməsi ilə bağlı qeydlərini bildirib, işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin inkişafı ilə bağlı fikirlərini səsləndirib.

İclasda Regional məsələlər komitəsi sədrinin müavini Elşən Musayev, deputatlar Cavanşir Paşazadə, Nizami Cəfərov, Cavid Osmanov, Aydın Hüseynov, Aqil Məmmədov, Novruzəli Aslanov, Səbinə Xasayeva, İqbal Məmmədov, Azər Badamov, Müşfiq Cəfərov, Malik Həsənov, Əliabbas Salahzadə, Kamran Bayramov və Milli Məclisin İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış edərək torpaqlarımızın azad edilməsi uğrunda canlarını fəda etmiş şəhidlərimizə ehtiramlarını bildiriblər, qazilərimizə can sağlığı diləyiblər. Şuşada Milli Məclisin komitələrinin iclasının keçirilməsinə verdiyi dəstəyə görə parlamentin Sədri Sahibə Qafarovaya təşəkkürlərini bildirən deputatlar Şuşanın Azərbaycan tarixindəki, onların hər birinin həyatlarındakı yeri barədə danışıblar, bu gün burada olmalarından keçirdikləri hisslərini və təəssüratlarını bölüşüblər. Çıxış edənlər Vətən müharibəsində böyük zəfərdən sonra azad edilmiş ərazilərdə aparılan geniş vüsətli tikinti və quruculuq işlərini, regionun iqtisadi inkişafı və tərəqqisi istiqamətində həyata keçirilən layihələri, o cümlədən "Yaşıl enerji zonası" Konsepsiyasını yüksək dəyərləndiriblər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarının inkişaf potensialı, Böyük qayıdışın gerçəkləşdirilməsi prosesi ilə bağlı fikirlərini bölüşüblər.

Dinləmələrdə çıxış edənlər iqtisadi zonaların hərtərəfli inkişafının ölkəmizin ümumi iqtisadiyyatının daha da böyüməsinə və dövlətimizin qüdrətinin artmasına öz töhfələrini verəcəyinə inamlarını ifadə ediblər.

Bununla da Milli Məclisin Aqrar siyasət və Regional məsələlər komitələrinin Şuşa şəhərində keçirilən birgə iclası başa çatıb.

***R.CƏFƏRLİ,***
*"Azərbaycan"*

# Paraqvay parlamentinin nümayəndə heyəti Füzuli və Şuşaya səfər edib

**Ölkəmizdə səfərdə olan Paraqvay parlamentinin Paraqvay-Azərbaycan Dostluq Qrupunun sədri Valter Enrike Harms və Paraqvay Senatındakı Paraqvay-Azərbaycan Dostluq Qrupunun sədri Lukas Akino Xaradan ibarət nümayəndə heyəti Azərbaycanın işğaldan azad olunmuş Füzuli rayonunda və Şuşa şəhərində olub.**



Səfərin məqsədi işğaldan azad olunmuş torpaqlarımızda erməni vandalizminin izləri, dağıntılar, eləcə də aparılan bərpa-quruculuq işləri ilə tanışlıqdır.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfər iştirakçıları əvvəlcə Füzuli rayonunun Merdinli kəndlərində erməni barbarlığı ilə tanış olublar. Məlumat verilib ki, erməni vandalları 27 il ərzində kəndi talayıb, yer üzündən siliblər. Bütün evlər, sosial obyektlər dağıdılıb, təsərrüfatlar məhv edilib. Düşmən Merdinli kəndindəki məsciddən mal-qara tövləsi kimi istifadə etməklə, azərbaycanlılara qarşı öz nifrətlərini göstəriblər. Kənd qəbiristanlığı da erməni vandalizminə məruz qalıb - məzarlar dağıdılıb, məzar daşları uçurulub.

Nümayəndə heyəti Füzuli Beynəlxalq Hava Limanına da gəlib. Bildirilib ki, 44 günlük Zəfər yürüşü zamanı azad edilən torpaqlarda Azərbaycan tərəfindən irimiqyaslı tikinti-quruculuq işləri aparılır. Bu işlər çərçivəsində Füzulidə qısa zamanda beynəlxalq hava limanı inşa olunub. Burada görülən işlər beynəlxalq norma və standartlara uyğun şəkildə həyata keçirilib. Artıq hava limanı xarici ölkələrdən təyyarələr qəbul edir.

Paraqvaylı qonaqlar Füzuli şəhərinin mərkəzində də erməni vəhşiliyinin şahidi olublar. Məlumat verilib ki, şəhər tamamilə viran edilib, yaşayış binaları ilə bərabər, tarixi-mədəni abidələr də dağıntılara məruz qalıb. Həmçinin şəhərin təbiəti, ağaclar və yaşıllıqlar məhv olunub.

Füzulidə erməni barbarlığı ilə tanış olan qonaqlar sonra Şuşa şəhərinə gəliblər. Onlara Şuşa şəhəri, burada həyata keçirilən yenidənqurma işləri barədə məlumat verilib. Bildirilib ki, 30 ilə yaxın işğal dövründə Şuşa şəhərindəki tarixi binalar, məscidlər, abidələr erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra burada genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilib. İnfrastrukturun qurulması ilə yanaşı, Şuşada şəhərin əsl tarixi simasının, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılıb.

Paraqvaylı qonaqlar Xurşidbanu Natəvanın evi və Xan qızı bulağı olan ərazi ilə tanış olub, Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvan, Bülbül və Üzeyir bəy Hacıbəylinin güllələnmiş heykəlləri olan Şuşa şəhər mərkəzi meydanına gəliblər. Onlara şəhər və güllələnmiş heykəllər barədə məlumat verilib. Bildirilib ki, işğal zamanı ermənilər heykəlləri Ermənistana apararaq dəmir konstruksiyasını əritmək və satmaq istəyiblər. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə həmin heykəllər Ermənistandan alınaraq Azərbaycana gətirilib və Bakıda İncəsənət Muzeyinin həyətində saxlanılıb. Şuşa işğaldan azad olunduqdan sonra həmin heykəllər öz əvvəlki yerlərinə qaytarılıb.

Şuşa şəhər qala divarları ilə tanış olan nümayəndə heyətinə Şuşa şəhərinin tarixi, qala divarlarının tikilməsi barədə məlumat verilib. Bildirilib ki, Qarabağ xanı Pənahəli xan tərəfindən inşa edilən qala uzun müddət şəhəri xarici müdaxilələrdən qoruyub. İşğal dövründə qala divarları erməni vandalizminə məruz qalıb. Şuşa işğaldan azad edildikdən sonra qalada təmir-bərpa işləri aparılıb.

Qonaqlar daha sonra Cıdır düzündə olub, buradan açılan əsrarəngiz mənzərəni seyr ediblər.

# Etibarlı ixracatçı, modern infrastruktur

## Azərbaycanda elektrik enerjisinin istehsalı və ötürülməsi sahəsində görülən işlər ən müasir standartlara uyğundur

Azərbaycanın müasir inkişaf strategiyasında elektrik enerjisi ilə dayanıqlı təminat, yeni generasiya mənbələrinin yaradılması hər zaman prioritet istiqamətlərdən birini təşkil edib. 2004-cü ildən həyata keçirilməsinə başlanan regionların inkişafına dair dövlət proqramlarında da qarşıya qoyulan ilk vəzifələrdən biri mövcud generasiya güclərinin artırılması və bu sahədə olan infrastrukturun yenidənqurulması olub. Prezident İlham Əliyev elektrik enerjisi istehsalının artırılmasını, bu sahədə respublikamızın mövqelərinin möhkəmləndirilməsini xüsusi diqqət mərkəzində saxlayır.

### Artan güc inkişafın göstəricisidir

Ötən dövrün statistikasına nəzər salsaq, respublikada generasiya güclərinin artırılması istiqamətində nə qədər möhtəşəm inkişafın olduğunu görərik. Regionların inkişafına dair I Dövlət Proqramının icra olunduğu 2006-cı ildə Astarada, Naxçıvanda, Şəkidə, Xaçmazda istifadəyə verilən və hər biri 87 meqavat olan elektrik stansiyaları artan iqtisadi ehtiyacların qarşılanmasına uğurla xidmət etdi. 2007-ci ildə 105 meqavat olan "Bakı" Elektrik Stansiyasının, 2008-ci ildə 300 meqavat olan "Səngəçal" Elektrik Stansiyasının, 2009-cu ildə 525 meqavat gücündə "Sumqayıt" Elektrik Stansiyasının və 105 meqavatlıq "Şahdağ" elektrik stansiyasının, 2013-cü ildə 780 meqavat gücündə "Cənub" Elektrik Stansiyasının, 2019-cu ildə 400 meqavat gücü olan "Şimal-2" stansiyasının istismara verilməsi respublikamızın generasiya gücünün artırılmasında böyük rol oynadı.

Bütün bunlarla yanaşı, respublikamızın müxtəlif yerlərində kiçik su-elektirk stansiyaları, habelə modul tipli stansiyalar da tikilib ki, onlar da artan tələblərə adekvat olaraq respublikamızın inkişafına mühüm töhfələr verir. Onu da xatırladaq ki, 2003-cü ilə qədər Azərbaycanda cəmi 10 elektrik stansiyası mövcud idi. Prezident İlham Əliyevin həyata keçirdiyi yeni iqtisadi islahatlarla bütün sahələrdə müşahidə olunan dinamik inkişafa və elektrik enerjisinə olan tələbatın kəskin artmasına adekvat olaraq ölkədə 30-dan artıq yeni elektrik stansiyası tikilib istismara verilib.

Bütövlükdə, artan generasiya gücü ötən 20 ilə yaxın müddətdə respublikamızda gedən inkişaf proseslərinə böyük təkan verib. Eyni zamanda Azərbaycan 4 ölkəyə elektrik enerjisi ixrac edir.

### Rəqəmsal idarəetmənin tətbiq olunduğu enerji sistemi

Respublikamızda enerji infrastrukturunun yenidən qurulması istiqamətində görülən işlər isə tamamilə müasir çağırışlar çərçivəsində həyata keçirilir. Bunu Prezident İlham Əliyevin iştirakı ilə iyunun 10-da istifadəyə verilən "Azərişıq" ASC-nin 110/35/10 kilovoltluq yeni yarımstansiyasının və Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzinin iş prinsipləri də təsdiq edir. Paytaxtın Yasamal rayonu ərazisində, Füzuli meydanının yaxınlığında tikilən yeni yarımstansiya Bakı şəhərinin sürətlə artan elektrik enerjisi tələbatını qarşılamaq, etibarlılığı və dayanıqlılığı təmin etmək məqsədilə inşa olunub.

Rəqəmsal Şəbəkələrin Baş İdarəetmə Mərkəzində tamamilə rəqəmsal idarəetmə tətbiq olunur. Qeyd edək ki, paylayıcı şəbəkələrin intellektual-rəqəmsal idarə olunması elektrik enerjisinin ötürülməsi və paylanması proseslərinə fasiləsiz nəzarətin həyata keçirilməsini təmin edir. Digər tərəfdən, rəqəmsallaşma elektrik şəbəkələri üzrə müəyyənləşdirilmiş beynəlxalq tələblər çərçivəsində iqtisadi səmərəliliyin yaxşılaşdırılması istiqamətində mühüm təyinedici texnoloji vasitədir.

### Dördüncü Sənaye İnqilabına uyğun intellektual konsepsiya

Xatırladaq ki, təkcə 2021-ci ildə 23 elektrik stansiyası və yarımstansiyası tikilib və ya yenidən qurularaq istismara verilib. Ötən il Prezident İlham Əliyevin iştirakı ilə "Sumqayıt" Elektrik Stansiyasında yeni estakada nasos stansiyasının istismara verilməsi ilə 2018-2021-ci illəri əhatə edən Enerjisistemin Reabilitasiya Proqramı başa çatıb.

Ötən il istifadəyə verilmiş enerji obyektlərinin əksəriyyəti işğaldan azad edilmiş ərazilərdə inşa olunub. Məlumdur ki, hazırda dövlətimizin əsas hədəflərindən biri işğaldan azad edilmiş ərazilərimizin dayanıqlı enerji ilə təminatıdır. Azad olunan Qarabağa və Şərqi Zəngəzura qayıdacaq vətəndaşlarımızın doğma torpaqlarında layiqli həyat şəraitinin təmin edilməsi üçün zəruri olan şərtlərdən biri də enerji ilə etibarlı təchizatdır. Prezident İlham Əliyev tərəfindən digər sahələrdə olduğu kimi, işğaldan azad olunmuş ərazilərin də enerji təminatı ilə bağlı mühüm vəzifələr müəyyənləşdirilib. Bu vəzifələrin ən başlıcası azad edilmiş torpaqlarımızda müasir enerji infrastrukturunun qurulması və regionun enerji potensialından mümkün qədər səmərəli istifadədir.

Artıq bu istiqamətdə böyük layihələr həyata keçirilib. Keçən il azad edilmiş ərazilərdə ikisi Suqovuşanda, biri Laçın rayonunun Güləbird kəndində, biri isə Kəlbəcərdə Lev çayı üzərində olmaqla, 20 meqavat gücündə 4 Su-Elektrik Stansiyası inşa edilib. Bu il isə azad olunmuş ərazilərdə gücü 27 meqavata bərabər olacaq 5 yeni stansiya istifadəyə veriləcək.

Bundan başqa, ötən il Qarabağ və Şərqi Zəngəzurda "Şuşa", "Füzuli", "Şükürbəyli", "Kəlbəcər", "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyalarının açılışı olub. Bu il isə Ağdam şəhərində yeni inşa olunmuş "Ağdam-1" və "Ağdam-2" yarımstansiyaları, o cümlədən "Qarabağ" Regional Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi istifadəyə verilib.

Qarabağ və Şərqi Zəngəzurda tikilən 9 yarımstansiyanın hamısı Azərbaycanın ümumi enerji sisteminə qoşulmaqla yanaşı, tam rəqəmsallaşdırılıb. Belə ki, Dördüncü Sənaye İnqilabına uyğun olaraq intellektual enerjisistem konsepsiyası həyata keçirilib və müasir, dayanıqlı, rəqəmsallaşdırılmış yarımstansiyalar modeli formalaşdırılıb.

### Bərpaolunan enerji istehsalının artırılması prioritetdir

Qlobal enerji siyasətində əsas istiqamətlərdən biri enerji keçididir. Enerji keçidi ən müasir texnologiyalar tətbiq edilməklə ənənəvi enerji resurslarının bərpaolunan enerji mənbələri ilə əvəz edilməsini, yəni yaşıl enerjini özündə ehtiva edir. Bu gün dünya ölkələrinin qarşıya qoyduqları iqlim hədəflərindən biri "yaşıl enerji" keçidini sürətləndirməkdədir. Beynəlxalq təşkilatlara görə, bərpaolunan enerjidən istifadənin genişləndirilməsi enerji keçidinin vacib sütunlarındandır və sürətlə inkişaf etdirilməlidir.

Beynəlxalq Bərpaolunan Enerji Agentliyinin hesabatına əsasən, son illərdə istismara verilmiş yeni elektrik enerjisinin 80 faizdən çoxunu bərpaolunan enerji təşkil edir ki, bunun da böyük əksəriyyəti günəş və külək enerjisinin payına düşür. Dünyada ekoloji cəhətdən təmiz "yaşıl enerji"yə keçidi sürətləndirən bir çox faktor var ki, bunlardan biri də texnologiyanın inkişaf etməsi və qiymətinin ucuzlaşmasıdır. Bunun nəticəsində günəş və külək enerjisinin maya dəyəri də ucuzlaşıb. Qiymətin aşağı düşməsinə kömək edən digər bir faktor isə dünyada bərpaolunan enerji hərraclarının geniş vüsət almasıdır ki, bu mexanizm "yaşıl enerji"dən istifadənin özəl investisiyalar hesabına inkişafına gətirib çıxarır. Ümumilikdə enerji keçidinə qlobal sərmayə 2011-ci ildə illik 300 mlrd. ABŞ dollarından az olduğu halda, 2020-ci ildə təxminən 500 mlrd. ABŞ dollarına yüksəlib.

Respublikamızın enerji siyasətində "yaşıl enerji"yə keçid əsas yerlərdən birini tutur. Bu məsələ "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapmışdır. "Strateji dövrdə qabaqcıl ölkələrdə alternativ və bərpaolunan enerji mənbələrindən istifadə xüsusilə daha çox artacaqdır. Bunu nəzərə alaraq, ölkədə enerjidən səmərəli istifadə edilməli və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməlidir. İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində alternativ və bərpaolunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla və iqlim dəyişikliklərinə təsir azaldılmalıdır" - deyə sənəddə qeyd olunur.

Bu ilin yanvarında 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının, martda isə gücü 230 MVt təşkil edəcək "Qaradağ" Günəş-Elektrik Stansiyasının təməlinin qoyulması göstərdi ki, Azərbaycan bu istiqamətdə hədəflərinə doğru inamla addımlayır.

### Qarabağ və Şərqi Zəngəzur "yaşıl enerji" zonası olacaq

2020-ci ilin yekunlarına həsr olunan müşavirədə dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı qarşıya mühüm vəzifələr qoyub. Ötən il mayın 3-də isə Prezident "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində "yaşıl enerji" zonasının yaradılması ilə bağlı tədbirlər haqqında" sərəncam imzalayıb.

Ötən il "Güləbird" Su-Elektrik Stansiyasının açılışında Prezident İlham Əliyev Qarabağın "yaşıl enerji" zonasına çeviriləcəyini bəyan etdi: "Mən bəyan etmişdim ki, azad edilmiş torpaqlar "yaşıl enerji" zonası olacaq. Mən artıq xarici və yerli investorları dəvət etmişəm. Onu da bildirməliyəm ki, bütün əsas işləri dövlət olaraq biz özümüz görürük və görəcəyik. Xarici və yerli investorlar investisiya qoymaqla həm öz biznes maraqlarını təmin edə bilərlər və həm də Azərbaycanı uzunmüddətli, dayanıqlı, ucuz və ekoloji cəhətdən təmiz enerji növləri ilə təmin etmək üçün öz sözlərini deyə bilərlər. Bizim planlarımız bundan ibarətdir. Kəlbəcər və Laçın rayonlarında külək enerjisinin çox böyük potensialı var. Zəngilan, Cəbrayıl rayonlarında daha çox Günəş enerjisinin böyük potensialı var. Artıq ilkin tədqiqatlar aparılıb və beləliklə, biz enerji generasiya güclərimizi, ötürücü xətlərimizi yenidən quraraq Qarabağı "yaşıl enerji" zonasına çevirəcəyik".

Hazırda işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən enerji layihələri ən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla, bərpaolunan enerji mənbələrindən, ekoloji təmiz texnologiyalardan istifadəyə üstünlük verilməklə, yaşıl zona, yaxud yaşıl məkan konsepsiyası əsasında reallaşdırılır.

Bütövlükdə isə respublikamızda bərpaolunan enerjinin payının artırılması istiqamətdə mühüm addımlar atılır. Bütün bunlar müasir çağırışların respublikamızda sürətlə reallaşdığını göstərir və Azərbaycanın qlobal enerji bazarında mövqelərini gücləndirir.

***Rəşad CƏFƏRLİ,***
*"Azərbaycan"*





# İlham Əliyevin sərkərdəliyi ilə zəfər qazandıq, indi isə himayəsiylə rahat həyat yaşayırıq

## Vətən müharibəsi əlilləri və şəhid ailələri Prezidentin mərhəmətindən razılıq edirlər

**...Elvin dünyaya gələndə Qarabağ işğal altında idi. Ermənilər torpaqlarımızda mina əkib, ölüm becərirdilər. Torpaqlarımız yağı ayaqları altında qalıb əzildikcə şəhid ruhları Vətən deyib fəryad edirdi. Əsirlikdə qalan yurd yerlərimiz sahiblərinin həsrəti ilə inildəyib, ahu-fəğan edib qan ağlayırdı. Sinəmizdə Qarabağ boyda böyük dərd var idi... Erməni cəlladları Xocalı qətliamını törətmişdilər. İnsanların içində qara bir kabus dolaşırdı...**

Əvvəl gözyaşlarımızı qurutduq, ölümün gözünün içinə dik baxdıq, "yurd, Vətən əsirdisə, biz niyə yaşayaq?" dedik. İçimizdən bir səs gəlirdi - "torpağı qorumursan əkmə, əkirsən qoru".

Gələn səsin işığına rəvan olduq. Əvvəl sınmış qürurumuzu dirçəltməyə, sonra da Vətəni abad etməyə başladıq… Elvin məktəbə getdiyi ilk günü sinif müəllimindən Vətən kəlməsini eşitdi. Elə Qarabağ sözünü də onda duydu. Erməni cəlladlarının törətdikləri vəhşiliklər haqqında qorxulu nağılları dinlədi. Qarabağda qətlə yetirilmiş körpələrin, qanlarında boğulmuş insanların fəryadlarını eşitdi. Müəllimi dedi ki, "Vətən doğulduğun evdən, yaşadığın kənddən başlanır". Onunsa nə evi, nə də kəndi var idi... Qisas, qisas deyən torpaqların hayqırtısını, yandırılıb külə dönmüş yurd yerlərinin iniltisini duydu, Elvin. Dinlədikcə gözü yolda qalan Vətənin gözündə işıq, ürəyində təpər olmaq istədi. Qəzəblə yumruqlarını düyünləyib dişlərini bir-birinə sıxaraq qisas, qisas dedi… Yumruğu böyüdükcə içindəki nifrət də, qəzəb də böyüdü. Elə hey qarğı atına minib evlərindən uzaqlarda görünən başı qarlı dağlara doğru çapardı. Xəyalən o yerlərə gedər, dağılmış yurd yerlərini qarış-qarış gəzərdi. Şuşaya sarı irəliləyib bir zirvədə dayanıb üzü dağlara baxaraq “Ulu dağlar, çeşməli sulu dağlar, başınızı dik tutun. Tezliklə gələcəyik. Qisas qiyamətə qalmayacaq. Hər qarış torpağın, söndürülmüş hər ocağın, yandırılıb xarabazara çevrilmiş hər kəndin, hər bir evin hesabını soracağıq" deyərdi...

44 günlük Zəfər müharibəsi qəhrəmanlarından qazi Elvin Faiq oğlu Bəxtiyarlı ilə Suraxanı rayonu yeni yaşayış kompleksində tanış olduq. Xatırladaq ki, bu yaşayış kompleksi əvvəllər qaçqın və məcburi köçkünlər üçün nəzərdə tutulsa da, Vətən müharibəsində qazandığımız böyük qələbədən sonra Prezident İlham Əliyevin sərəncamı ilə şəhid ailələrinə və qazilərə verilib. Elvin də bu kompleksin yeni sakinlərindəndir... O, bizə öz həyat hekayəsini danışır:

- Əslən Laçın rayonunun Qurdhacı kəndindənəm. 1993-cü ilin may ayında Bakıda doğulmuşam. Nizami rayonunda şəhid Etibar Cəlilov adına 272 saylı orta məktəbi bitirmişəm. Ağlım kəsəndən ermənilərin törətdikləri vəhşiliklər haqqında çox eşitmişəm, söhbətlər dinləmişəm. Ürəyimdə həmişə bir arzum olub: böyüyüb qisasımızı almaq! Bəzən bu, mənə gerçək görünməyib. Qorxurdum ki, arzularımı gerçəkləşdirə bilməyəm. İncəsənət Universitetinin Aktyorluq fakültəsində təhsil alırdım. Düşünürdüm ki, yaxşı aktyor olaram, həyatda edə bilmədiklərimi kinolarda, tamaşalarda gerçəkləşdirərəm. Heç olmasa ermənini yaratdığım qəhrəmanlıq obrazlarında yenərəm. Xoşbəxtəm ki, arzularım ürəyimdə qalmadı.

Kikboks üzrə üçqat Azərbaycan çempionu Elvin Bəxtiyarlı həm 2016-cı ildə Aprel döyüşləri zamanı, həm də 2020-ci ilin yayında könüllü olaraq Qarabağda döyüşmək üçün Səfərbərlik və Çağırış üzrə Dövlət Xidmətinə müraciət edərək cəbhəyə getmək niyyətində olduğunu bildirib. 2020-ci il sentyabrın 21-də hərbi təlimlərə cəlb olunub. Vətən müharibəsinin ilk günündən - 27 sentyabrda Füzuli rayonunun Alxanlı kəndində ermənilərlə döyüşə başlayıb. Vətən Müharibəsi Qəhrəmanı Anar Mirzəyevin komandanlığı altında Elvin Bəxtiyarlı Şuşaya kimi şərəfli bir döyüş yolu keçib. Daşaltı kəndi uğrunda gedən döyüşlər zamanı ağır yaralanıb.





- 2011-ci ildə Gədəbəydə həqiqi hərbi xidmətdə olmuşam. Hələ o zaman ermənilərin hər gün atəşkəsi pozduqlarının, bizi qorxu altında saxlamaq istədiklərinin şahidi idim. Onlara cavab veriləcək günü səbirsizliklə gözləyirdim. Demək, qismətimdə onlarla üzüzə, göz-gözə döyüşmək varmış. 2020-ci il sentyabrın 27-də Füzuli rayonunun Alxanlı kəndində mövqelənmişdik. Gecə düşmən artilleriyası aramsız atəş açmağa başladı. Ermənilər illər idi ki, o yerlərdə "məskunlaşıb" keçilməz sədlər, dağılmaz istehkamlar yaratmışdılar. Amma bizdə də qətiyyət, Ali Baş Komandana inam və sevgi var idi. Onun hər kəlməsi döyüşçülərdə ruh, qələbəyə əminlik yaradırdı. Füzuli uğrunda gedən döyüşlərdə yaralansam da, dayanmadım. Qətiyyətlə döyüşmək niyyətimi bildirdim. Hər qarış torpaq alınanda, hər dəfə irəlilədikcə sevincimizin həddi-hüdudu olmurdu. Ölümün gözünə belə dik baxırdım. Nəyin uğrunda döyüşdüyümüzü gözəl bilirdik. 17 dəfə müxtəlif dərəcədə qəlpə yarası almışam. Amma bu yaralar döyüşmək istəyimə mane ola bilmədi. İtkilərimiz var idi. Yoldaşlarımız sayca az idi. Mənə elə gəlirdi ki, döyüşü dayandırıb canımın hayına qalsam, cəbhə yoldaşlarıma xəyanət etmiş olaram... Sonuncu dəfə Daşaltı kəndi uğrunda gedən döyüşlərdə ağır yaralandım. Yanıma qrad mərmisi düşdü. Qəlpə 19 dişimi tökmüşdü... Çox təəssüf ki, Şuşaya qədər gedə bilmədim. Ora qədər qayalıqlarla, keçilməz dağ yolları ilə gəlmişdik. Bir yoldaşımız sıldırım qayaları qalxanda sürüşüb qayadan düşdü. Amma düşmən yerimizi bilməsin deyə səsini çıxarmadı. Beləcə şəhadətə qovuşdu. Anlayırsınızmı, biz ora hansı hisslərlə getmişdik? Şəhid olanda da qürurla "Vətən sağ olsun" deyirdi döyüş yoldaşlarımız.

Elvin müharibədən sonra ailə həyatı qurub. Dövlət tərəfindən üçotaqlı mənzillə təmin edilib. Səhhətində, sağlamlığında hələ də qüsurlar var. Amma...

- Mən müharibəyə qisas üçün, Vətən üçün getmişdim. Bəzən məndən soruşurlar ki, hansı təltiflərin var. Deyirəm ki, mən vətənlə təltif olunmuşam. İndi mənim vətənim var. Ömrü boyu kirayədə yaşamışam, indi mənim evim var. Ömür boyu bizə qaçqın deyiblər... İndi mənim rayonum, atamın doğulduğu kənd var. Biz oraya maddi qazanc dalınca getməmişdik... Bizi oraya arzularımız aparmışdı. Gərək vətəni sevəndə də təmənnasız sevəsən. Onun yolunda ölməyi belə bacarasan... Yoxsa gedib orada döyüşüb, gəlib burada dəsdəvuz edib, qapı-qapı gəzib insanları incitməyəsən. Onsuz da dövlətimiz növbə ilə hamının ehtiyacını ödəyir: işsizə iş, evsizə ev verir.

Qazinin dediyi kimi, 44 günlük Vətən müharibəsindən sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişi və birbaşa nəzarəti altında şəhid, qazi ailələrinə və müharibə iştirakçılarına geniş istiqamətli sosial dəstək tədbirləri həyata keçirilir. Proqram çərçivəsində Prezidentin sərəncamı ilə 2021-ci ildə şəhid ailələrinin və müharibə əlillərinin mənzillə təminatı əvvəlki illərlə müqayisədə 5 dəfə artıb. Xatırladaq ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həmin kateqoriyadan olanlara 2018-ci ildə 626, 2019-cu ildə 934, 2020-ci ildə 1572, 2021-ci ildə 3 min mənzil və fərdi ev verilib. Ümumiyyətlə, şəhid, qazi ailələri və müharibə iştirakçıları həmişə dövlətin diqqətində olmaqla qayğı ilə əhatə olunublar. İndiyə kimi 12500-dən çox şəhid ailəsi və müharibə əlili mənzil və ya fərdi evlə təmin edilib. Qazilərimizin digər sosial qayğılardan azad olunması istiqamətində də proqram çərçivəsində uğurlu tədbirlər həyata keçirilməkdədir. Son 4 ildə 1450 qazi, ümumilikdə isə 7400 müharibə əlili avtomobillə təmin edilib. Bu gün də həmin proqram uğurla davam etdirilir. 2022-ci ildə sosial cəhətdən həssas olan ailələrə 500 mənzil verilib. Ümumilikdə isə, bu il belə ailələrə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulub.

Şəhid ailələri və qazilərin yaşayış kompleksində olarkən mənzillərdəki mövcud şəraitlə tanış olmaq imkanımız da baş tutdu. Kompleksin ərazisində uşaq bağçası və geniş, yaraşıqlı, hər cür texniki vəsait və avadanlıqlarla təmin olunmuş məktəblər fəaliyyət göstərir. Mənzillər təmirlidir. İşıq, qaz, su və internet təminatında da heç bir problem yoxdur.

### "Ata, səninlə fəxr edirəm"

Mənzillərdən birinin qapısını döyürük. Qapını üzümüzə Cəmal adlı, nur üzlü bir yeniyetmə açıb bizi köhnə tanışlar kimi mehribanlıqla qarşılayıb evə dəvət edir. İstər-istəməz Cəmalın əynindəki köynək diqqətimizi cəlb edir. Köynəyin döş hissəsinə şəhid olmuş tankçı atasının şəklini vurub. "Ata, səninlə fəxr edirəm" sözləri yazıb. Cəmalın dilli-dilavərliyi özünü dərhal göstərir:

- Uşaq vaxtı atam məni boynunda gəzdirməyi çox sevərdi. İndi mən onu ömrü boyu ürəyimin üstündə daşıyacağam. Atamla fəxr edirəm. Böyüyəndə hərbçi olacağam, atamın yolunu davam etdirəcəyəm. Atam Vətəni bizlərə əmanət edib getdi. Gedərkən anamızı qardaşımla mənə tapşırdı.

Tanış oluruq. Cəmal tankçı şəhid Ramil Mürşüd oğlu Yusifovun kiçik oğludur. Böyük qardaşı Ramiz Dəmiryolu Texnikumunda təhsil alır.

Ramilin şəxsi əşyalarının, fotoşəkillərinin, eləcə də canlı insana bənzər maketinin olduğu "ev-muzeyinə" keçirik. Söhbəti şəhidin həyat yoldaşı Zeynəb xanımla davam etdiririk.

- Ramil 25 il idi ki, orduda xidmət edirdi. Baş gizir idi. Qanunla 20 il xidmət etdikdən sonra təqaüdə çıxa bilərdi. Amma o qədər vətənpərvər idi ki, komandanlıqdan xahiş edib xidməti müqaviləsini 5 il də artırmışdı. Naxçıvanda, Goranboyda xidmətdə olmuşdu. Son xidməti qulluğunu Tərtərdə edirdi. Biz də onunla birgə yerlərdə "qulluq" keçirdik. Ermənilər tez-tez atəşkəsi pozduqları üçün döyüş bölgəsində yaşayan adamlar kimi, qulağımız güllə səsinə öyrənmişdi. Ramil əsl hərbçi idi. Vətən üçün canından keçərdi... Keçdi də... Ağzı bərk adam idi. Evdə söz danışmazdı. Sonuncu dəfə döyüşə gedəndə də bizə heç nə deməmişdi. Sənədlərini, maaş kartını komandirinə verib deyib ki, başıma bir iş gəlsə, bunları ailəmə çatdırarsınız. Sentyabrın 27-də günorta Ramilin tankını Suqovuşanda vurublar. Ramil tankda olan iki nəfəri xilas edə bilib. Özü isə ağır dərəcəli yanıq yarası almışdı. Yaralanmasını da bizə deməmişdilər. Komandiri bu xəbəri zəng vurub anasına demişdi. Anası mənə zəng edib dedi ki, Bakıya gəlin, Ramil Bakıda xəstəxanadadır. Döyüş bölgəsindən onu helikopterlə təcili 5 nömrəli xəstəxanaya gətirmişdilər. Daha sonra Respublika Klinik Xəstəxanasına yerləşdirilmişdi. Təəssüf ki, oktyabrın 4-də əməliyyatdan çıxmadı. Biz yanında olanda tez-tez döyüş yoldaşları ilə telefonla danışırdı... Arzusu yenidən döyüşə qayıtmaq, savaşı davam etdirmək, düşmən üzərində qələbə qazanmaq idi. Heyif ki, qələbəmizi görmədi. Oktyabrın 5-də doğulduğu İsmayıllı rayonunun Ağbulaq kəndində dəfn edildi.

Ömrü boyu arzusu olmuşdu ki, Qarabağ azad, bizimsə öz evimiz olsun. Bütün ömrümüzü kirayə mənzillərdə keçirmişik. İndi bizə Prezident ev bağışlayıb. Çox gözəldir, rahatıq. Şükür ki, Qarabağ da Azərbaycandır. Ramilin arzuları həyata keçib. İndi o, özü burada olmasa da, ruhunun başımızın üzərində olmasına çox inanıram. Bəlkə evimizi işıqlandıran da onun ruhudur. Bizi görür, bizə nəzarət edir, qoruyur. Yəqin səsimizi də eşidir. Söz verirəm ki, övladlarını onun adına layiq böyüdəcəyəm. Həmişə özü alnıaçıq gəzdiyi kimi, oğulları da başlarını dik tutub qürurlu bir ömür yaşayacaqlar.

### "30 ilin qisasını almağa gedirəm"

Şəhid Ramil Yusifovun ailə üzvləri ilə xüdahafizləşib başqa bir mənzilin qapısını döyürük. Qapını açan xanım özümüzü təqdim etməyi gözləmədən çox mehribanlıqla bizi evə dəvət edir. Eyni zamanda ömür-gün yoldaşını səsləyir:




- Seymur, Dostəlinin qonaqları gəlib. Dur, bura gəl.

Ev sahiblərini narahat etdiyimizi düşünüb üzrxahlıq edirik. Sözümüz ağzımızda qalır:

- Çox yaxşı edib gəlmisiniz. Evimizə hər gün çoxlu gedib-gələn olur. Oğlumuzu itirsək də, gözəl dostlar tapmışıq. Bizi tək qoymurlar.

Öyrənirik ki, həmsöhbət olduğumuz ev sahibləri şəhid Dostəli Məmmədovun valideynləri Əzimə xanımla Seymur kişidir.

Söhbətə Əzimə xanım başlayır:

- Dostəli evin tək oğlu idi, gözümüzün işığı, evimizin nuru... 1998-ci ildə Yeni Suraxanıda doğulmuşdu. Evimizin yanındakı 101 saylı orta məktəbi bitirmişdi. Hərbi xidmətini 2016-2017-ci illərdə Naxçıvanda çəkmişdi. Əsgərlikdən sonra özəl şirkətlərdən birində alpinist kimi təmizləyici işləyirdi. 2020-ci ilin yayından tez-tez deyirdi ki, "Əgər müharibə olsa, gedib Qarabağda könüllü döyüşəcəyəm". Sentyabrın 30-da Nasosnıda yerləşən hərbi hissəyə getdi. Oktyabrın 2-də gecəykən Füzuliyə apardılar. Oktyabrın 3-də döyüş bölgəsindən zəng etmişdi. Oraya gedəndən tez-tez bizimlə telefonla danışar, qələbəmizə əmin olduğunu deyərdi. Sonuncu dəfə oktyabrın 9-da danışmışdıq. Ondan sonra balamın səsini eşitmədim.

Söhbətə atası Seymur qoşulur:

- Oktyabrın 18-də hərbi səfərbərlik idarəsindən zəng edərək dedilər ki, "Dostəli Füzulidə yaralanıb. Oraya gedirik. Sən də gəl bizimlə birlikdə gedək". Yolda mənə heç nə demədilər. Füzulinin Qaraxanbəyli kəndinə getdik. Hospitalın həyətində çadır qurulmuşdu. Çadıra girəndə Dostəlinin nəşini gördüm. Zəng edib Əziməyə dedim ki, oğlumuz şəhidlik zirvəsinə yüksəlib. Hazır ol, gəlirik.

Dostəli Sumqayıtda olanda yanına getmişdim. Dedim Dostəli, bala, evin tək uşağısan, gözümüzü sənə dikmişik. Hələ gec deyil, gəl gedək evimizə. Söylədi ki, "Onda bir yaylıq tapaq, bağlayaq başımıza, adam içinə çıxmayaq. 30 ilin qisasını almağa gedirəm. Şəhid olsam, haqqınızı halal edin". Oğlum bizim çırağımızı söndürsə də, vətənin çırağını yandıranlardan oldu. Bu, onun seçimi idi. Biz nə edə bilərdik ki?

- Mən anayam, bağrımın başı yanır. Amma düşünəndə ki, oğlum canından çox sevdiyi vətəni yolunda özünü fəda edib, indi onların sayəsində Qarabağ azaddır, onunla təsəlli tapıram. Dostəli Vətənin şərəfini qorumaq üçün getmişdi... İndi Prezident bizə ev verib. Sağ olsun. Minnətdarıq. Bəlkə Dostəli sağ olsaydı, bu evi almağımıza da razılaşmazdı. Vətənə xidmət təmənnasız olmalıdır. Vətən onun yolunda canını fəda edib susanları sevir. Elə biz də o cür insanları sevirik. Dövlətimizdən, Prezidentimizdən çox razıyıq. Mən bir məsələyə toxunmaq istəyirəm. Bəziləri hay-həşir salıb dövlətdən imtiyazlar tələb edirlər. Gördüyünüz bu kompleksdə yaşayanların hamısı - şəhid ailələri, qazilər, sosial qayğıya ehtiyacı olan əlillərdir. Səbri olan Allahın dostu olar. Şərlə, böhtanla iş görməzlər. Elələri var ki, hərəkətləri ilə bizləri də utandırırlar... Xahiş edirəm etməsinlər...

Biz şəhid ailələri və qazilərin yaşadıqları Ramana qəsəbəsindəki yaşayış kompleksindən geri qayıdanda gün buludların arxasına keçirdi. Günəş göyü al-əlvan rəngə boyamışdı. Sanki üçrəngli bayrağımız göydə əks olunurdu. Yerdə isə balaca, şən, atalarının qəhrəmanlıqları ilə fəxr edən körpələr, yeniyetmələr gəzişirdilər, oynayıb şənlənirdilər. Əllərində bayraq olanlar da var idi. Şəhərciyin həyətində Şəhidlər bulağı da tikilib. Canlarını Vətənin azadlığı yolunda qoymuş qəhrəmanların övladlarının yaşadıqları mənzilləri, rahatlığı görüb, şəhid bulağından su içib "Allah şəhidlərimizin məqamını uca, övladlarının yaşadıqları mənzilləri rahat etsin" dedik.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***






# İdman paytaxtının "Formula-1" zirvəsi

## Dünyadakı bütün "F-1" həvəskarlarının nəbzi Bakı ilə döyünür

**İdman ölkəsinə çevrilən Azərbaycanda son onillikdə onlarca dünya və Avropa miqyaslı yarış keçirilib. Beynəlxalq idman federasiyalarının qərarları ilə turnirləri, idman müsabiqələrini layiqincə təşkil edən ölkəmiz hər dəfə tarixini möhtəşəm nailiyyətlərlə zənginləşdirib. Respublikamız təkcə yüksək evsahibliyi nümunəsi ortaya qoymayıb, həm də sübut edib ki, iradə, qətiyyət olan yerdə uğur qazanmaq mümkündür.**





Bu günlər dünyanın idman aləminin diqqəti yenidən Azərbaycana yönəlib. Artıq iki gündür "Formula-1" yarışlarına start verilib və bu gün dünyadakı bütün avtomobil idmanı həvəskarlarının nəbzi Bakı ilə döyünəcək. Beləliklə, dünyada avtomobil həvəskarlarının əsas bayramı hesab edilən "Formula-1" Azərbaycan Qran-prisinə ölkəmizin evsahibliyi etməsinin qürur və sevincini yaşamaqdayıq. Belə bir möhtəşəm yarışın Bakıda keçirilməsi dünyaya növbəti dəfə azərbaycanlıların mehribanlığı, qonaqpərvərliyi, qədim tarixi, füsunkar təbiəti, mentaliteti, sürətlə inkişaf edən müasir ölkə ilə tanışlıq fürsəti verib.

"Formula-1" dairəvi və sürətli avtoyürüş üzrə dünya çempionatıdır. Hər il keçirilən bu yarışın müxtəlif şəhərlərdə Qran-pri mərhələləri təşkil olunur. Bu mərhələlərdə toplanan xallara əsasən pilotlar və komandalar ilin sonunda çempionluq titulu qazanırlar. Onu da qeyd edək ki, bolid adlandırılan müasir "Formula-1" avtomobilləri bir sıra özəllikləri ilə fərqlənir. Onlar təkadamlıq olur, üstəlik, sürücü yeri və təkərləri açıqdadır. Komandalar avtomobilləri özləri istehsal etsələr də, hər biri tanınmış avtomobil markalarının motorlarını, yağını və ya istehsal etdiyi digər detalları istifadə edirlər.



Builki "Formula-1" Qran-pri yarışlarına mart ayında Bəhreyndə start verilib. Pilotlar və komandalar noyabr ayına qədər 23 yarış mərhələsi keçməlidirlər. Hazırda isə yüz milyonlarla izləyici auditoriyasına malik olan "Formula-1" yarışlarının həyəcanı Azərbaycanda yaşanır. Bakı Şəhər Halqasında dünyanın ən məşhur pilotları - Luis Hamilton, Fernando Alonso, Sebastian Fettel, Valtteri Bottas və digərləri yarışırlar. Bu günlər planetimizdə avtomobil idmanına maraq göstərən hər kəsin diqqəti paytaxtımıza yönəlib.

Bakı Şəhər Halqasının, trekin uzunluğu 6 kilometrdən bir qədər artıqdır.

Bu, uzunluğuna görə dünyada ikincidir. Bakı Şəhər Halqası paytaxtımızın tam mərkəzindən və gözəl məkanlarından keçir. Təşkilatçılar trekin marşrutunu seçərkən məhz bu məqamı qarşıya məqsəd qoymuşdular.

Yarış bu gün başa çatsa da, Bakıda uzun müddətdən bəridir ki, bu idman hadisəsinin ab-havası yaşanır. Çünki hazırlıq işlərinə aylar öncədən başlanılıb. Məqsəd 2022-ci il üçün 8-ci olan və Azərbaycan Qran-prisini layiqincə təşkil etmək, ideal evsahibliyi nümunəsini növbəti dəfə nümayiş etdirməkdir. Fərəhli haldır ki, aparılan hazırlıq işlərini Beynəlxalq Avtomobil Federasiyasının rəsmiləri, o cümlədən yarışda iştirak edən pilotlar təqdir ediblər. Beləliklə, bu günlərdə bir daha bütün dünya və ölkəmizə təşrif buyuran xarici qonaqlar Azərbaycanın yüksək evsahibliyinin şahidi olmaqdadır.

Bakıya gələn hər kəs Azərbaycanın inkişafını, xalqımızın qonaqpərvərliyini, zəngin mədəniyyətini gözləri ilə görür, bunları təqdir edir. Bütövlükdə bu mötəbər tədbir ölkəmizi növbəti dəfə beynəlxalq aləmə daha yaxından tanıdır. Hər kəs Azərbaycanda keçirilən sürət yarışına hazırlıq işlərinin yüksək səviyyədə aparıldığının şahidinə çevrilir. Bunu start verilən ilk yarış günündə aydın şəkildə görmək olurdu. İlk növbədə Azneft dairəsindən Dəniz vağzalına kimi qurulan əyləncə zonaları bilet sahiblərinin üzünə qapılarını açıb. Dünəndən etibarən tamaşaçılar onlar üçün qurulmuş möhtəşəm əyləncə məkanlarından istifadə edirlər. Tədbirlər hər kəs üçün inanılmaz dərəcədə maraqlı və unudulmayacaq məqamlarla yadda qalır.

"Formula-1"in dünyada kifayət qədər azarkeşi var. Bakı Şəhər Halqasında da tamaşaçıların yarışı canlı və təhlükəsiz izləmələrinə hər cür imkan yaradılıb. Bunun üçün Bakı Şəhər Halqasının müxtəlif yerlərində tamaşaçı tribunaları quraşdırılıb. Həmin tribunalar yüksək səviyyədə quraşdırılıb.

Bütün dünyada "Formula-1" Azərbaycan mərhələsini 190 ölkədən 500 milyondan artıq tamaşaçı izləyir. Bu göstərici ilə "Formula-1" azarkeş sayının çoxluğuna görə futboldan sonra ikinci idman növü sayılır. Bu mötəbər yarışın yüksək səviyyədə işıqlandırılması üçün müxtəlif ölkələrdən təcrübəli müxbir və fotoqraflar cəlb edilib. Tək yarışın keçirilməsi deyil, qonaqların, tamaşaçıların ölkəmizlə, milli dəyərlərimizlə tanışlığı, şəhərimizdə olduğu günlərdə vaxtlarını səmərəli keçirmələri üçün yaradılan şərait, dünyada sevilən populyar müğənnilərin iştirakı ilə konsert proqramlarının təşkili Azərbaycanın mükəmməl evsahibliyi nümunəsinin ayrı-ayrı hissələridir. Beləliklə, Azərbaycan yüksək təşkilatçılıq ənənəsinə bu dəfə də sadiq qalıb.

Azərbaycan yenidən dünya idmansevərlərinin diqqət mərkəzindədir. Ölkəmizə bu münasibətlə gələn qonaqlar, habelə paytaxt sakinləri yarışları canlı şəkildə izləyə bilirlər. Şübhə yoxdur ki, bu yarışlar insanlara uzun müddət xatırlanacaq həyəcanlı və sevincli dəqiqələr bəxş edəcək. Başqa cür ola da bilməz. Çünki bu yarışların təşkilatçısı regionun idman mərkəzi olan Azərbaycan dövlətidir.

***Elçin CƏFƏROV, "Azərbaycan"***



# "Formula-1" gündəliyi

## Xüsusi rəngə boyanmış "Alfa Romeo" maşınları



"Formula-1" yarışında çıxış edən "Alfa Romeo" komandasının maşınları xüsusi rəngə boyanıb. Bu rəng İtaliya şirkətinin yeni modeli olan yığcam "Tonale" krossoverə həsr edilib. Sözügedən avtomobillər bu həftəsonu Avropa avtosalonlarının şourumlarında ilk dəfə peyda olub. Bu hadisənin şərəfinə C42 maşınları İtaliya bayrağının rənglərinə boyanıb.

"Tonale" həm "Alfa Romeo"nun son altı ildə yaradılmış ilk modeli, həm də şirkətin hibrid güc qurğusu ilə təchiz edilmiş ilk krossoveridir. Valtteri Bottasın və Quanyuy Çjounun maşınlarının yeni tərtibatı "Alfa Romeo"nun "Centro Stile" dizayner bölməsində yaradılıb. Komandanın pilotları bu həftəsonu ilk onluqda yer tutmaq uğrunda mübarizə aparırlar.

## "Formula-2" qəzaları



"F-1" Azərbaycan Qran-prisi çərçivəsində keçirilən "Formula-2" üzrə birinci sərbəst yürüşdə qəza baş verib. "MP Motorsport" komandasının pilotu Klement Novalakın bolidi təhlükəsizlik blokuna çırpılıb.

Növbəti qəzanı isə "Campos Racing" komandasının üzvü Ralf Boşunq törədib. Onun bolidi sərbəst yürüşdə qoruyucu səddə çırpılıb. Pilot dönmə zamanı avtomobilini tarazlaya bilməyib. Nəticədə qırmızı bayraq qaldırılıb. Problem aradan qaldırıldıqdan sonra yürüş davam etdirilib.

## Mətbuat konfransında pilot təəssüratları




"Formula-1" Azərbaycan Qran-prisinin ilk günündə pilotların gərgin idman mübarizəsi artıq başa çatıb. Pilotlar mətbuat konfransında Bakı yarışı haqqında təəssüratlarını paylaşıblar. Hazırkı yarış cədvəlində ilk üçlükdə yer alan "Red Bull Racing" komandasının pilotu Maks Ferstappen və Serxio Peres, "Ferrari"nin sürücüsü Şarl Lekler Bakı yarışı haqqında fikirlərini bildiriblər.

S.Peres Bakı yarışının çox fərqli olduğunu bildirərək qeyd edib: "Çünki bu sürətli şəhər yarışında hər şey bir göz qırpımında dəyişə bilər. Buna görə də burada çox ehtiyatlı olmaq lazımdır. Bakı treki pilotları həmişə ciddi sınaq qarşısında qoyur. Bununla yanaşı, deyə bilərəm ki, Bakı yürüşü mənim üçün mövsümün ən sevimli yarışıdır".

Ötən il "Formula-1" Azərbaycan Qran-prisinin qalibi olan S.Peres bundan əvvəl Bakıda iki dəfə yarışı ilk üçlükdə bitirərək podiumda yer aldığını da diqqətə çatdırıb.

M.Ferstappen isə "Ferrari" və "Red Bull Racing" komandaları arasındakı rəqabətə münasibət bildirib. Deyib ki, Bakıda maksimum nəticə əldə etməyə çalışmalıyıq. "Ferrari" komandası rəqabətcil olsa belə bu, heç nəyi dəyişmir. Çünki nəticədə öz çıxışımıza köklənməliyik.

Pilotların sıralamasında ikinci pillədə yer alan və birincilik uğrunda mübarizə aparan "Ferrari"nin pilotu Ş.Lekler isə bildirib ki, yarışlarda bir sıra texniki səbəblərdən kənarda qalsaq da, Bakıda daha çox şansımız var. Şəhər yarışları ikiqat həyəcanlı olur, kifayət qədər hazır olduğumuza inanıram.

Ş.Lekler ötən il Azərbaycan Qran-prisinin sıralanma turunda poul pozisiyasını qazansa da, yarış vaxtı üçüncü dövrənin sonunda Luis Hamilton ("Mercedes") onu ötərək arxada qoymuşdu. M.Ferstappenin də ötən il finiş xəttinə üç dövrə qalmış qəzaya uğraması onun Bakıda yarışdan kənarda qalmasına səbəb olmuşdu.

## Şumaxerin oğlu qəza törətdi



"Formula-1" Azəbaycan Qran-prisində növbəti qəza halı qeydə alınıb.

Qəzanı "Haas" komandasının pilotu Mik Şumaxer edib. M.Şumaxerin nasaz bolidi trasdan uzaqlaşdırılıb. Xatırladaq ki, Mik Şumaxer məşhur "F-1"in 7 qat qalibi Mixail Şumaxerin oğludur.

Qeyd edək ki, Bakı trekinin uzunluğu 6 kilometrdir. Trekdə 3 yüksəksürətli hissə, 20 döngə var, maksimal sürət isə 360 km/s təşkil edir. Yarışlarda 10 komanda iştirak edir.

## Olimpiya çempionu Azərbaycan Qran-prisi ilə bağlı paylaşım edib



Rusiyalı fiqurlu konkisürən Anna Şerbakova da Bakıda keçirilən “Formula-1” Azərbaycan Qran-prisini izləyir.

18 yaşlı Olimpiya çempionu bu barədə rəsmi teleqram kanalında paylaşım edib. İdmançı pit-stop prosedurunun görüntüsünü paylaşıb.

A.Şerbakova "Pekin-2022" Qış Olimpiya Oyunlarında çempion olub. Fiqurlu konkisürən iki dəfə dünya çempionatında da qızıl medala sahib olub.

Qeyd edək ki, Azərbaycan Qran-prisinə iyunun 12-də yekun vurulacaq.

***Ü.XASPOLADOVA, "Azərbaycan"***




# Gəldik, gördük, sevdik!

## "Formula-1" azarkeşləri Bakıdan maraqlı təəssüratlarla ayrılacaqlar

**Paytaxtımızda "Formula-1" Qran-prisinin həyəcanı yaşanır. Bununla əlaqədar şəhərimizə gələn turistlərin sayı da nəzərəçarpacaq dərəcədə artıb. Hazırda Bakı Bulvarı, xüsusən də qədim İçərişəhər turistlərin daha çox olduğu ərazilərdir.**

Ötən gün İçərişəhərdə gəzişən turistlərlə söhbətləşdik. Tarixi yerləri gəzən turistlər yol kənarlarındakı köşklərdə sərgilənən suvenirlər, milli mətbəximizə aid nümunələr, eləcə də əllə toxunan xalça və geyimlərlə maraqlanırdılar. Hər biri kiçik də olsa, nəsə almağa çalışırdı. Ən çox üzərində Azərbaycana, Bakıya aid elementlərin olduğu taxta, şüşə və ya gipsdən hazırlanan suvenirlər alınırdı. Milli Azərbaycan papaqlarını başlarına qoyub şəkil çəkdirənlərə də rast gəlirdik. Əhvalları öncəki günlərdən daha fərqli, daha coşqulu idi. Səbəbi isə yarışların başlaması idi.

### "Bakı həqiqətən Avropanın ən yaxşı şəhərlərindən biridir"

***Sofia Papadakis, Yunanıstan:***

- Hamı elə düşünür ki, "Formula-1" yarışları sadəcə kişilər üçün maraqlıdır. Bu qətiyyən belə deyil. Mən və rəfiqələrim pandemiyadan öncə çempionatın keçirildiyi ən azı üç ölkəyə səfər etmişik. İl boyu bu yarışları səbirsizliklə gözləyirik. Bu dəfə isə belə qərara gəldik ki, daha öncə adını eşitdiyimiz, lakin heç vaxt gəlmədiyimiz Bakının qonağı olaq. Artıq 3-cü gündür ki, şəhərinizdəyik. Bir saniyə belə olsa, seçimimizdən təəssüflənməmişik. Bakı həqiqətən Avropanın ən yaxşı şəhərlərindən biridir. Sevincimizin digər bir səbəbi isə yarışın ilk günündə dəstəklədiyimiz komandanın uğuru oldu. Digər günlər Bakının qədim tikililərinə, muzeylərinə baş çəkməyi planlaşdırırıq.

### "Bakıdan xoş təəssüratlarla ayrılacağıma əminəm"

***Robert Tomas, ABŞ:***

- Ən yaxın dostum və tələbə yoldaşım Həmzənin təkidiylə Bakıya gəlmişəm. Uzun illər dostluq etsək də, dəfələrlə məni ölkəsinə dəvət etsə də, tərəddüd edirdim. Axır ki, bu il bunu gerçəkləşdirdim. Yaxşı ki, gəldim. Hər şeydən çox məmnunan. Ölkənizin müsbət tərəflərini saysam, bitməz. İnsanları, təbiəti, iqlimi, müasir dünyayla ayaqlaşmaq səviyyəsi - bir sözlə, dostum bu dəfə də məni yanıltmadı. Bura ilk səfərim olduğu üçün planlarım çoxdur. Gəzməli, görməli yerlər çoxdur. "Formula-1" yarışlarına gəldikdə isə, ümumilikdə bütün komandalara qarşı rəğbətim olsa da, "Ferrari"yə xüsusi simpatiyam var. Bakıdan xoş təəssüratlarla ayrılacağıma əminəm.

### "Burada sanki sehrli bir qüvvə var"

***Andrey Kuznetsov, Qazaxıstan:***

- Bakıya birinci dəfədir ki, gəlirəm. Ölkəniz haqqında ancaq televiziya vasitəsilə eşitmişdim. Deyilənləri gözlərimlə görməyi, müasir və tarixi bir şəhəri ziyarət etməyi istədim. Ovqatım yüksəkdir, çünki hər şey gözlədiyimindən də möhtəşəmdir. Bakı valehedici şəhər imiş. Burada sanki sehrli bir qüvvə var. Bütün daşlar, divarlar insana doğma görünür. Bakını ziyarət etdiyim üçün özümü xoşbəxt hiss edirəm.







### "Bakı dəyişilib, inkişaf edib, müasirləşib"

***Hans Mulder, Almaniya:***

- Uzun illər idmanla məşğul olmuşam, məşqçi işləmişəm. Səhhətim yol verdikcə çalışıram ki, müxtəlif önəmli çempionatlarda, yarışlarda tamaşaçı kimi iştirak edim. Azərbaycana ikinci gəlişimdir. İllər öncə, cavanlığımda ölkənizə iş üçün səfər etmişdim. Bu dəfə isə məqsədim istirahət etməkdir. Təyyarədən enəndə elə bildim ki, başqa ölkədəyəm, hətta bir anlıq səhv təyyarəyə mindiyimi düşündüm. Bakı çox dəyişib, inkişaf edib, müasirləşib. Gördüyüm və hiss etdiyim dəyişiklikləri sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bunu yarış ərazisində də aydın hiss etmək mümkündür. Treklər, küçələr, təhlükəsizlik tədbirləri - hər şey yüksək səviyyədədir. "Mercedes" komandasının pərəstişkarıyam. Yarışda pilotumuzun qalib olacağına inanıram.

### "Yorğun iş fəaliyyətindən sonra tətilimi burada başladığım üçün çox xoşbəxtəm"

***Kerim Tuncer, Türkiyə:***

- Azərbaycanda özümü qətiyyən qonaq kimi hiss etmirəm. Bura bizim ikinci Vətənimizdir, həmçinin Türkiyə də sizin üçün belədir. Biz qardaşıq. Yorğun və uzun iş fəaliyyətindən sonra tətilimi burada başladığım üçün çox xoşbəxtəm. Yarışların başlaması ilə əlaqədar əhvalım daha da yüksəlib. Dəstəklədiyim komanda və pilot ilk sərbəst yürüşün qalibi olub. "Formula-1" bitdikdən sonra gəzəcəyim, görəcəyim yerlərin siyahısını tutmuşam. Yolum Qəbələ, İsmayıllı istiqamətində olacaq. Oranın təbiəti, iqlimi, istirahət mərkəzləri haqqında çox tərif eşitmişəm. Necə deyərlər, yüz eşitməkdənsə, bir görmək yaxşıdır.

### "Babam azərbaycanlıdır, qan çəkir bizi..."

***Olqa Smirnova, Belarusiya:***

- Şəhərinizə ilk dəfə gəlsəm də, əslində, bura mənim üçün yad deyil. Babam azərbaycanlıdır. Bu dünyadan tez köçdüyü üçün, təəssüf ki, onu görməmişəm. Əks halda, bura dəfələrlə gəlmiş olardım. Bakının mənə bu qədər doğma təsir bağışlamasının səbəbi də budur, necə deyərlər, qan çəkir. Əminəm ki, ilk gəlişim olsa da, son deyil. Bu tarixi torpaqlarda hələ çox gəzəcəyim, görəcəyim yerlər var. Bu dəfə yalnız 3 günlük yarışlara baxmağa gəlmişəm.

### "Şəhərin eyni anda həm müasirliyi, həm də qədimliyi insana ruh verir"

***Alfredo Ramirez, İspaniya:***

- Hava limanına ayaq basan andan yüksək təşkilatçılığın və qonaqpərvərliyin şahidiyəm. "Formula-1"lə bağlı hazırlıqlar çox böyük peşəkarlıqla yerinə yetirilib. Bütün gözləntilərimiz özünü doğruldub. Bakı möhtəşəm şəhərdir. Buradakı gözəlliklər insanı yüksək əhvali-ruhiyyəyə kökləyir. Şəhərin eyni anda həm müasirliyi, həm də qədimliyi insana yüksək ruh verir. Küçələri, muzeyləri gəzdikcə, indiyədək bu şəhərə gəlmədiyimə görə çox təəssüflənirəm. Buraya ailəmlə gəlmişəm. İnanıram ki, geriyə yaxşı təəssüratlarla qayıdacağıq.

### "Qarşılaşdığım hər kəs mənə salam verir, üzümə gülümsəyir"

***Radolf Egger, Avstraliya:***

- Azərbaycan əsrarəngiz təbiəti, gözəl yeməkləri, qonaqpərvər insanlarının olması ilə məni özünə vurğun etdi. Bakı tarixi və müasir arxitekturası olan valehedici şəhərdir. Burada insanlar çox mehribandırlar. Qarşılaşdığım hər kəs mənə salam verir, üzümə gülümsəyir. Bu da çox xoş təsir bağışlayır. "Formul-1"ə demək olar ki, Serxio Peres üçün tamaşa edirəm. Ona görə "Red Bull" komandasını dəstəkləyirəm. Ümid edirəm ki, yarışdan qalib ayrılacağıq.

### "Mətbəxinizi, ədviyyatlarınızı bizimkilərə çox bənzətdim"

***Paul Olsen, Meksika:***

- Böyük bir dost qrupumuz var. Hər bir yarışı, sürəti, adrenalini çox sevirik. Elə bu hisslərimiz bizi hər il bir neçə ölkəyə aparır. Bu dəfə isə qərara gəldik ki, gəzəcəyimiz ölkə Azərbaycan olsun. "Formula-1" üçün hələ ki, Bakıdayıq. Yarış bitdikdən sonra ucqar rayonlarınıza, dağ kəndlərinizə getməyi planlaşdırırıq. Gəlməmişdən öncə internetdə araşdırmalar apardıq. Qədim məskənlərinizin, təbiətinizin gözəlliyi elə şəkillərdən bizi valeh etdi, həyəcanlandırdı. Təbii ki, gəlmişkən milli yeməklərinizin də dadına baxmağa fürsət tapdıq. Mətbəxinizi, ədviyyatlarınızı bizimkilərə çox bənzətdim. Bəlkə də bu bizi yaxınlaşdırır.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***





# "Formula-1" Azərbaycan Qran-prisinin ikinci günündə maraqlı anlar yaşandı

**İyunun 11-də "Formula-1" Azərbaycan Qran-prisinin ikinci gününə "Formula-2" yarışları ilə start verilib.**

"Formula-2" üzrə sprint yürüşündə hər biri iki pilotla təmsil olunan 11 komanda mübarizə aparıb. Pilotlar Bakı Şəhər Halqasında 21 dövrə vurublar. Gərgin idman mübarizəsi şəraitində keçən yarışda "ART Grand Prix" komandasının pilotu Frederik Vesti birinci olub. "Prema Racing"in üzvü Cehan Daruvala yarışı ikinci, Liam Louson ("Carlin") isə üçüncü sırada tamamlayıblar.

Daha sonra "Formula-1" Azərbaycan Qran-prisinin üçüncü sərbəst yürüşü keçirilib. Yürüşə hər biri iki pilotdan ibarət 10 komanda qatılıb.

"Mercedes" komandasının heyətində Luis Hamilton və Corc Rassel, "Ferrari" komandasında Karlos Sayns və Çarls Lekler, "Williams"ın heyətində Aleksander Albon və Nikolas Latifi yarışırlar. "Red Bull Racing" komandasında Serxio Peres, Maks Ferstappen, "Alpha Tauri"də Pyer Qasli və Yuki Tsunoda, "Alpine"da isə Fernando Alonso ilə Esteban Okon mübarizə aparırlar. Bundan başqa, "Alfa Romeo"nun heyətində Valtteri Bottas və Cou Quanju, "McLaren"də Daniel Rikkardo və Lando Norris yürüşdə iştirak edirlər. Pilotlar Mik Şumaxer və Kevin Maqnussen "Haas", Sebastian Fettel və Lans Stroll "Aston Martin" komandasının idman şərəfini qoruyurlar.



Üçüncü sərbəst yürüşdə "Red Bull Racing" komandasının pilotu Serxio Peres birinci, "Ferrari"nin üzvü Şarl Lekler ikinci, "Red Bull Racing"in digər pilotu Maks Ferstappen isə üçüncü yeri tutublar.

Sıralama turunda "Ferrari"nin pilotu Şarl Lekler birinci olub. "Red Bull Racing" komandasının pilotları Serxio Peres və Maks Ferstappen ilk üçlüyü tamamlayıblar. Bu turun nəticələrinə əsasən, iyunun 12-də keçiriləcək əsas yarışda pilotların düzülüşü müəyyənləşib.

Builki dünya çempionatına martın 18-20-də Bəhreyn Qran-prisi ilə start verilib. Sonrakı mərhələlər Səudiyyə Ərəbistanı, Avstraliya, İtaliya, ABŞ, İspaniya və Monakoda keçirilib. Yeddi mərhələdən sonra pilotların siyahısına "Red Bull Racing" komandasının niderlandlı sürücüsü Maks Ferstappen başçılıq edir. Onun aktivində 125 xal var. Ferstappendən 9 xal geri qalan Şarl Lekler ("Ferrari") ikinci sırada qərarlaşıb. İlk beşliyi 110 xalla Serxio Peres ("Red Bull Racing"), 84 xalla Corc Rassel ("Mercedes") və 83 xalla Karlos Saynz ("Ferrari") tamamlayırlar.

Konstruktorlar kubokunun lideri isə "Red Bull Racing" (235 xal) komandasıdır. "Ferrari" 199 xalla ikinci, "Mercedes" isə 134 xalla üçüncü pillədə yer alıb. Sonrakı yerlərdə "Maklaren" (59), "Alfa Romeo" (41), "Alpine Reno" (40), "Apfatauri" (17), "Haas Ferrari" (15), "Aston Martin" (7) və "Uilliyams" (3) komandaları qərarlaşıblar.

Qeyd edək ki, Azərbaycan "Formula-1" yarışlarına altıncı dəfədir evsahibliyi edir. Avropa Qran-prisi adlandırılan ilk yarış 2016-cı ildə təşkil olunub. Bu yarışda "Mercedes" komandasının pilotu Niko Rosberq birinci olub. Növbəti ildən Azərbaycan Qran-prisi adını alan yarışlarda Daniel Rikkardo ("Red Bull Racing" - 2017), Luis Hamilton ("Mercedes" - 2018), Valtteri Bottas və Luis Hamilton ("Mercedes" - 2019), Serxio Peres ("Red Bull Racing" - 2021) qalib gəliblər. 2020-ci ildə "Formula-1" Azərbaycan Qran-prisi koronavirus pandemiyası səbəbindən keçirilməyib.

# "Formula-2" yarışının sprint yürüşünün qalibləri mükafatlandırıldı





**Bakıda keçirilən "Formula-2" yarışının sprint yürüşünün qalibləri mükafatlandırıldı.**

Yürüşdə "ART Grand Prix" komandasının pilotu Frederik Vesti birinci, "Prema Racing"dən Cehan Daruvala ikinci, "Carlin" komandasının sürücüsü Liam Louson isə üçüncü olublar.

Mükafatları pilotlara Azərbaycanın gənclər və idman nazirinin müavini Mariana Vasileva, Azərbaycan Avtomobil Federasiyasının vitse-prezidenti Adil Kərimli və Milli Məclisin deputatı Nigar Arpadarai təqdim ediblər.

# "Formula-1" üzrə Azərbaycan Qran-pri yarışları ərəb KİV-in diqqət mərkəzindədir

İyunun 10-da start götürən "Formula-1" üzrə Azərbaycan Qran-pri yarışları ərəb KİV-in diqqət mərkəzindədir.




Səudiyyə Ərəbistanının SPA agentliyi, "Əl-Mədinə", "Ər Riyad" qəzetləri AZƏRTAC-ın xəbərinə istinadla yarışların ilk günü haqqında materiallar yayımlayıb. Bundan başqa, krallığın "Əl Mənatiq", "Sauidigazette", BƏƏ-nin "Emirates" agentliyi və "Əl-İttihad" portalı, Misirin MENA agentliyi və "Əl Əhram" qəzeti, Qətərin QNA agentliyi, "Əl Cəzirə" telekanalı və "Şarq" nəşri də bu mötəbər yarışlar barədə xəbərlər və reportajlar yayımlayıblar.

Materiallarda diqqətə çatdırılıb ki, Azərbaycan Qran-prisinin ilk günündə "Formula-1" pilotları birinci və ikinci sərbəst yürüşlərdə mübarizə aparıblar. Hər iki yürüşdə pilotlar 1 saat ərzində 6 kilometrlik Bakı trekində yarışıblar. Birinci sərbəst yürüşü "Red Bull Racing" komandasının pilotu Serxio Peres lider kimi tamamlayıb. "Ferrari"nin üzvü Şarl Lekler ikinci, "Red Bull Racing"in digər pilotu Maks Ferstappen isə üçüncü olublar. İkinci sərbəst yürüşdə "Ferrari"nin pilotu Ş.Lekler birinci olub. "Red Bull Racing" komandasının üzvləri Serxio Peres və Maks Ferstappen ilk üçlükdə yer alıblar.

Sonda qeyd olunub ki, iyunun 11-də pilotların düzülüşünü müəyyənləşdirəcək yarış keçiriləcək. İyunun 12-də isə "Formula-1" Azərbaycan Qran-prisinin qalibi müəyyənləşəcək.

**«AZƏRBAYCAN» qəzetinin 1918-ci il 11 oktyabr (Cümə günü) tarixli XII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**




# AZƏRBAYCAN

Cümə, 4 məhərrəmülhəram sənə 1337.
11 təşrini-əvvəl sənə 1918.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Kolyubakinskaya küçədə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 6-91.

Tək nüsxəsi 50 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Yanvarın birinədək Bakı üçün 35, başqa şəhərlərə 42 rublədir.
Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir.

Elan fiatı: sətri 2 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.


### ELAN

İkinci Bakı Realnı məktəbi şagirdanının əbəveyn [valideyn] və hamilərindən rica olunur ki, çocuqlarının məktəbə davamı üçün yenidən ərizə versinlər. Ərizələr Birinci Realnı məktəbin binasında hər gün saat 11-dən 2-yə qədər qəbul olunur.

Qeyd: Yeni qəbul olunanların ərizəsi dəxi qəbul edilir.

*İkinci Realnı məktəbinin müdiri:*
*Popov*

## HÖKUMƏT QƏRARDADI

**Bakı Ərazi İdarəsinə**

Azərbaycan Hökuməti Ərazi nazirinin 1918 sənəsi oktyabr 5 tarixli 45 nömrə əmri mövcibincə bu gündən etibarən Bakı quberniyasının Ərazi İdarəsi naçalnikinin müvəqqətən vəzifəsini ifaya başladım. Sabiq Bakı Ərazi Komissarlığı qulluqçularına öz vəzifələrinə başlaması təklifini edirəm.

*Ərazi İdarəsi naçalniki yerini*
*dolandıran: Şpitalski*
*6 oktyabr 1918, Bakı*

**Əmr nömrə 83**
7 oktyabr 1918

Bakı şəhərinin poçta stasyonu ehtiyacatı üçün at saxlayan A.E.Ananov, tezliklə at vermək və Bakı şəhər poçta qutularından məktubları cəm etməyə dəvət edilir. Bu əmr elanı tarixindən iki həftə keçənə qədər Ananov işə başlamazsa, bu vəzifə başqasına veriləcəkdir. Xəzinənin əqd edilən qiymətdən artıq məxarici olduqda həman təfavüt Ananovun rehin əmlakından alınacaqdır.

*Bakı Poçta-Teleqraf müdiri:*
*Sirotkin*

## MİLLƏTLƏRİN MÜBARİZEYİ-HƏYATI

Bu gün dörd buçuq sənəyə qərib [yaxın] bir zamandır ki, şu hərbi-aləm-şümul davam edir. Və bütün kainatı kökündən sarsıb viranə qoyur. Minlərcə insanları xakə [torpağa] sərir, babaları övladsız, anaları oğulsuz, gəlinləri qocasız buraxır.

Fəqət yenə millətlər mübarizeyi-həyat ilə uğraşmaqdan vaz keçmir, daha doğrusu, vaz keçəmmir... Nasıl ondan vaz keçə bilərlər ki, onunla ancaq mövcudiyyəti-milliyyə və müqəddərati-vətəniyyələrini [milli varlıqlarını və vətənlərinin müqəddəratını] təmin edəcək və o mübarizə sayəsində sahilisəla-mətə çıxacaq və onunla mənliyini ayaqlar altında əzilməyə qoymayacaq. Hasili, şu mübarizə ilə qüvvələnib yüksələcək. Və bu surətlə müarizlərinə [rəqiblərinə] qarşı meydan oxuya biləcək...

Şimdi hansı millətlər böylə mübarizeyi-həyat ilə uğraşır və onunla səadətə doğru addımlar atır, sualı qarşımıza çıxır ki, bu da zirdə [aşağıda] göstərəcəyimiz hikmətləri anlayan və o surətlə hərəkət edən hangi millətlər olduğu anlaşılacaq, hətta o millətlərin isimlərini belə tədad etməyə [sadalamağa] lüzum görülməyəcəkdir...

Əvət, o millətlər mübarizeyi-həyat ilə uğraşır və bu yolda çalışır-çabalayır ki, onlar "hərb"in xilqəti-bəşərdən [bəşəriyyətin yaranışından] bəri mövcud və onunla həmzühur olduğunu [eyni vaxtda meydana çıxdığını] bilir. İnsanlar yaşadıqca təbiət iqtizası [təbiətlərinin tələbi] olaraq yek-digərləri ilə [bir-birləri ilə] boğuşacaqlarını anlayır və daima qəvilər [güclülər] zəifləri əzməklə yaşayacaqlarını dərk edir. Odur ki, o millətlər daima hali-hərbdə [müharibə şəraitində] bulunurmuş kimi hazırlaşır və hərbə lazım gələn alətlərin yenidən icadına və yaxud o alətlərin başqa yerlərdən alınmasına çalışır, hasili, hərbə lüzumu olan hər nə varsa, onu mühəyya [tədarük] etməkdən geri durmayır və bununla bərabər əzim [əzəmətli] ordular təşkil edərək o ordulara qayeyi-amala doğru arş [İrəli!] əmrini verir.

Fəqət biz?

Ah, biz deyincə ürəyim parçalanır, qəlbim titrəyir, gözlərim adəta bir vərəm gözü kimi qaralır.

Nədən?

Çünki biz Qafqaziya islamları vətən müdafiəsi və millət mühafizəsi cəhətlərini düşünmək istəmədik. Bu yolda bir mübarizə etmək üçün hazırlaşmadıq. Mübarizeyi-həyatı ancaq yemək, içmək və kef etməkdən ibarət sandıq. Buna görə də həqir, səfil, zəlil olub ən nəhayət rüb'ümüzü [dörddə birimizi] təşkil edəmməyən bir millətin əsiri-firaşı [çarəsiz əsiri] olduq. Dün ağzından süd qoxusu gələn o çocuqların əlində aciz qaldıq və bununla türklük kimi böyük bir namı ləkələdik...

Qardaşlar! Şimdi artıq Avropanın ta göbəyində düşmənlərlə çarpışan türk qardaşların Qafqaziya dağlarını yara-yara aşıb sənə imdada gəldi. O nami-cəlilinə [uca adına] vurulan ləkələri silib, onu ucaltdı. Düşmənlərini zanubəzəmini-inqiyad etdirərək [diz çökdürərək] onlara aman dedirtdi.

İştə, qardaşlar! Şanlı Türk Ordusunun haqqımızda göstərdiyi bu fədakarlıqları və bu unudulammayacaq qəhrəmanlıqları, hasili, o şanlı ordunun bizə etdiyi bu böyük eyilikləri bir lövhə yapıb baş ucumuzda asmalıyız və onu daima oxuyub, ona səcdə etməliyiz.

Və bununla bərabər, onların bizi sahili-səlamətə çıxarmaq üçün təşkil etdiyi ordulara girməliyiz və bu sayədə şanlı bir türk əsgəri olub, əldə silah vətən imdadına qoşmalıyız.

Vətən, vətən eşqiylə, vətən üçün mübarizeyi-həyat eyləməliyiz!

*Rza Zaki*

## ORDU QƏRARGAHINDAN

Rəsmi.

1) Qarabağ cəbhəsində: 8-10-2024, 9 əvvəlində Şuşa qəsəbəsi bila-müharibə [döyüşsüz] işğal edilmişdir [ələ keçirilmişdir]. Əhali qitəati-əsgərimizi [hərbi birliklərimizi] bayraqlarla qarşılamışdır.

2) Petrovsk cəbhəsində: Düşmən Daqna istasyonundan irəliləyən süvarilərimizin önündən fərar etməkdədir. Qitəatımız tədricən irəliləyir.

3) Ordunun digər məntəqələrində sükunət vardır.

## ƏDLİYYƏ NƏZARƏTİNDƏ

Əmr.

3 təşrini-əvvəl [oktyabr] 1918 tarixdə:

1) Pavel Vladimiroviç Xolyavin;
2) Konstantin Aleksandroviç Manuylov;
3) Xarlampiy Vasilyeviç Sirbiladze;
4) Marian Lyudviqoviç Oleşkeviç;
5) Karl Qustavoviç Strumpf və
6) Vyaçeslav Nikolayeviç Klementyev Bakı nahiyə məhkəməsinə üzv təyin olunurlar.

*Ədliyyə naziri əvəzi:*
*[Teymur bəy] Makinski*

## AZƏRBAYCAN HÖKUMƏTİ MÜKƏLLƏFİYYƏTİ-ƏSGƏRİYYƏ QANUNİ-MÜVƏQQƏTİ [HƏRBİ MÜKƏLLƏFİYYƏT HAQQINDA MÜVƏQQƏTİ QANUN]

1 – Azərbaycan təbəəsi olan hər adam bu qanuna görə əsgər olacaqdır.

2 – Əsgərlik on yeddi yaşın bitdiyi ilin sonunda gələn ilin başından başlar və qırx beş yaşını bitirən ilin sonunda gələn ilin təşrini-əvvəlində (oktyabr) bitir.

3 – 18, 19 yaşındakı adamlar ikinci sinif ehtiyat olur və bunları ancaq bir hərb olduğu zaman çağırırlar.

4 – Hər adamın əsgərlik qulluğu (xidməti-fe'liyyə) on doqquz yaşını bitirən ilin sonunda gələn ilin əvvəlindən başlar və bu kimi adamlar bu ilin təşrini-əvvəl ayında qoşunda (qitəatda) olmaq üçün ehtiyaca görə ya həpsini və ya bir qismini çağırırlar.

5 – Əsgərlik qulluğu (xidməti-fe'liyyə) piyadə və nəqliyyə sinfi üçün 2 və başqa siniflər üçün 3 ildir. Bundan sonra bu kimi adamlar birinci sinif ehtiyata keçirlər.

6 – Birinci sinif ehtiyat müddəti piyada üçün 40 yaşının və başqa siniflər üçün də 38 yaşının bitdiyi ilin sonunda gələn ilin təşrini-əvvəl ayına qədər davam edir. Bundan sonrakı qulluğa müstəhfiz qulluğu deyilir.

7 – Hökumət səfərbərlik əsnasında lazım görərsə xidməti-fe'liyyədən izinli olanları və birinci və ikinci sinif ehtiyatları və müstəhfizləri çağıra bilər. Müstəhfizlər məmləkətin içində qulluq edir.

8 – Aşağıdakı şəxslər əsgərə alınmamalarını mövcib olan əhval zail oluncaya [keçib gedənə] qədər müvəqqətən əsgərə alınmazlar:

a) İyirmi dördüncü maddənin üç nömrəli fəqərəsindəki [bəndindəki] şəxslər,

b) İşlərinə baxılıb da haqlarında məhkəmə qərarının icrasına qədər məhkəmə və istintaq dairələrinin qərarı ilə həbs edilənlər,

c) Öz külfətinə çalışmağa istedadlı təkcə çörək verən şəxslər (bu xüsus ayrıca təfsil edilmişdir).

9 – Aşağıdakı şəxslər vəzifələrinin davamı müddətincə əsgərlik xidmətindən azadə qalırlar: nazirlər, nazir müavinləri, valilər, ziraət [kənd təsərrüfatı] idarələri müdirləri, dövlət xəzinəsi müdiri-ümumiləri [baş direktorları], məhkəmə rəisi və müddəiyi-ümumiləri [ittihamçıları], məhkəmeyi-təmyiz əzaları [kasasiya məhkəməsi üzvləri], məhkəmeyi-təmyiz müddəiyi-ümumi və müavinləri, müstəntiqlər, mülkiyyə qaimməqamı, müdirlər və müavinləri, polis müdir və sərkomissarları [baş komissarları], məhəllə ruhaniləri.

10 – Külfətlərinin halınca aşağıdakı şəxslərin əsgərlikləri yüngülləşir (təcil [təxir] olunur):

a) Xəstəlik üzündən və yaxud altmış yaşına vardığından çalışmaq istedadını itirmiş atanın və yaxud dul qalmış ananın çalışmağa istedadlı təkcə oğlu,

b) Anadan və atadan məhrum və yaxud bir neçə yetim qardaşların və yaxud ərə getməmiş bacıların çalışmağa istedadlı təkcə qardaşı,

c) Babanın və yaxud nənənin çalışmağa istedadlı təkcə nəvəsi (torunu),

ç) Bir və ya bir qaç övlada malik olub övladlarına kəndindən başqa baxacaq kimsəsi olmayan dul ata (baba),

d) Övlad və övrəti bulunan və müini-məhrəmi [məhrəm bir köməkçisi] olmayan külfət rəisi.

11 – Birdən ziyadə övlada malik olan atanın yaşına görə bütün övladları əsgərə alınır. Ancaq bu ata məiyyətə [köməkçiyə] möhtac isə, kəndisinin rizasıyla bir dənəsi buraxılır.

12 – Atidəki əşxasın [aşağıdakı şəxslərin] aid olduqları dəvairin [idarələrin] tələbi üzərinə vəzifələrinin davamı müddətincə əsgər olaraq vəzifələrində tərk olunurlar: dövlət bank müdirləri, maliyyə müfəttişi, sandıq əmini [kassir], vilayət və qəzalardakı mühasibəçilər və müavinləri, üç məmurdan fazla olmamaq şərtilə vapor [buxarlı gəmi], şiməndifər [qatar], teleqraf, posta idarələrinin məxsusi məmurları, doktor, doktor müavini, əczaçı, baytar olub məmuriyyətlərindən infikaklarında [uzaqlaşdıqlarında] dövlət işlərinin təxirə uğrayacağı məmul bulunan [gözlənilən] şəxslər, qanunun tarixi-nəşriyyatında rəsmi surətdə məktəb müəllimliyində bulunmuş olub vəzifələrində davam edəcək olanlar.

13 – Çalışmağa istedadı olan şəxslər şunlardır: xəstəlikdən, yaxud məsqütlükdən [düşkünlükdən, şikəstlikdən] dolayı çalışmaq istedadını büsbütün qaib etmiş olanlar və məhbuslar və üç sənədən ziyadə kəndisindən xəbər olmayan qaiblər müstəsna olmaq üzrə 60 yaşına qədər olanlardır.

14 – Əgər bir külfətin bir atadan və yaxud çocuqları bulunan bir anadan və ya nəvələri bulunan bir babadan və ya nənədən və yaxud kiçik yaşlı nəvələrə malik böyük bir qardaşdan ibarət olan, müin [köməkçi olaraq] buraxılmış çalışmağa istedadlı bir cavanın hər hansı bir səbəbdən qaib olmuş bulunması (ölüm, çalışmaq istedadını qaib etmək kimi) [halında], o zaman bu ailədən əsgərliyə alınmış cavanların ən böyüyü əsgərlikdən azad edilir.

15 – Bir adamın əsgərlik müamilatında [qeydiyyatında] evli sayılması əsgərliyə çağrılmazdan əvvəl nikah olmuş və qarı ilə qocanın bir evdə bulunmuş olmaları ilə məşrutdur [şərtləndirilir].

16 – Xidməti-əsgəriyyədən azad edilə biləcəyi qəbul olunmayan xəstəliklərə tutulduğundan və ya bir az əvvəl keçirmiş olduğu xəstəlikdən hənüz özünü düzəltməmiş şəxslərin xidmətə alınmaqları iyirmi dördüncü maddənin üçüncü fəqərəsi mövcibincə müəyyən müddətlərlə təxir olunur. Bu müəyyən müddətlərin xitamında təkrarən həkim baxışına tabe tutularaq xəstəlikləri keçmiş olanlar yaradıqlarına görə xidmətə alınıb, xəstəlikləri keçməyəcəyi anlaşılanlar 24-cü maddənin 3 və 4-cü fəqərələri mövcibincə ya daimi olaraq xidmətdən azad olunurlar və yaxud təkrar müəyyən müddətlərlə təxir olunurlar.

17 – Edadi məktəblərində təhsildə bulunan cavanların ikmali-təhsilləri [təhsillərini başa vurmaları] üçün 21 yaşına qədər və məmaliki-əcnəbiyyədə [xarici ölkələrdə] ali məktəblərdə təhsildə bulunanların isə 27 yaşına yetdiklərinə qədər əsgərə alınmaqları təxir olunur.

Ancaq bunlar bir sənə xidməti-əsgəriyyə ilə mükəlləfdirlər. Şu qədər ki, növi-təhsillərinə [təhsillərinin növünə] və qabiliyyəti-bədəniyyələrinə [fiziki imkanlarına] görə bilaxərə [daha sonra] nizamnameyi-məxsus mövcibincə ehtiyat zabiti olmaq üzrə ehtiyat zabit namizədliyi haqqına malik olurlar.

18 – Tutsaq olduqları üçün xidməti-əsgəriyyələrini öz həmyaşları ilə etməmiş olanlar tutsaqlıqdan qurtardıqdan sonra dərhal əsgərliyə cəlb olunurlar.

19 – Cinayət ilə məhkum olanlara və hüquqi-mədəniyyədən isqat [məhrum] edilənlərə xidməti-əsgəriyyələri əsnasında silah verilməz, bunlar inşaat qitəatında istixdam olunurlar [xidmətə cəlb olunurlar].

20 – İşbu qanun mövcibincə xidməti-əsgəriyyədən qaçanlar və ya hilə istemal edənlərlə [işlədənlərlə], işbu qanuna müxalif hərəkət edən bilcümlə əlaqədaran [bütün əlaqədar şəxslər] divani-hərblərdə [hərbi məhkəmələrdə] mühakimə olunurlar.

21 – Bu qanunu elan etmək və hər kəsin başa düşəcəyi vəchlə anlatmaq və əsgərlik xidmətinə çağrılacaq olanları bilatəxalüf [qarışıqlığa yol vermədən] vəqti-müəyyənində [müəyyən edilmiş vaxtda] qəza əsgər idarələrinə göndərmək və əsgərlikdən qaçanları axtarıb bulmaq xüsusunda lazım gələn bütün tədabiri [tədbirləri] yapmaq qəza qaimməqamlarının vəzifəsidir.

22 – Əxzi-əsgər [əsgərə götürmə] məclisləri bər-vəchiati [aşağıdakı] şəxslərdən tərəkküb edir [təşkil olunur]:

Əxzi-əsgər şöbə rəisi,
Qəza qaimməqamı,
Qazı,
Bələdiyyədən müntəxəb [seçilmiş] iki əza [üzv] (bələdiyyə təşkilatı olan məhəllərdə).

Bunlardan əxzi-əsgər şöbəsi rəisi məclisə rəyasət [rəhbərlik] edir.

Bunlardan başqa əfradı [əsgərləri] müayinə etmək üçün iki təbib yalnız müamələti-səhiyyədə sahibi-rəy olmaq [ancaq tibbi mövzularda səsə malik olmaq] üzrə bulundurulur. Məclisdə qərarlar səslərin çoxluğu ilə verilir. Səslər bərabər olarsa, rəisin səsinin olduğu tərəf qazanır. O biri tərəf də öz fikrini yaza bilər.

23 – Əsgərlik xidmətinə çağrılacaq cavanların qəza əxzi-əsgər məclislərincə mərqumun [adı çəkilən şəxsin] gərək külfətlərinin halına və gərək məşğuliyyətlərincə və yaxud işbu qanunda göstərilən əsaslara binaən [görə] xidməti-əsgəriyyəyə alınıb-alınmayacaqları təyin olunur. Ondan sonra həkim baxışına tabe tutulub mürəttəblərinə [təyinat yerlərinə] sövq olunur. (Maddə 24)

24 – İki həkim tərəfindən müayinə olunacaq hər fərd haqqında qabiliyyəti-bədəniyyə nizamnaməsinə tövfiqən [uyğun olaraq] həkimlər bər-vəchi-ati qərarları verəcəklərdir:

1) Silahlı olaraq xidməti-əsgəriyyəyə qabiliyyəti olanlar,
2) Silahsız olaraq xidməti-əsgəriyyəyə qabiliyyəti olanlar.
3) Müəyyən müddətlərlə xidməti-əsgəriyyədən azad qalacaqlar,
4) Bədənən xidməti-əsgəriyyəni ifa edəmməyəcək olanlar.

Əfradın kəndiləri üzərinə bu qərarlar yazılaraq ətibba [həkimlər] tərəfindən imza edilir və 1 və 2 nömrəli əfrad sövq, 3 və 4 nömrədəki əfrad tərxis olunur.

Əxzi-əsgər məclisi həkimlərin bu qərarına qənaət etməzlərsə, iki həkimdən aşağı olmamaq üzrə digər bir heyəti-səhiyyəyə müayinə etdirmək haqqını haizdirlər [haqqına sahibdirlər].

25 – Sövq olunacaq əfradın iki qitə [hissə] dəftəri tənzim olunur. Birisi əxzi-əsgər şöbəsində qalır, digəri əfradı götürəcək sövq məmuruna təslim edilir. Ancaq ikinci dəftərin əfradın sövq qafilələrinə görə qisim-qisim tənzimi və fəqət kaffəsinin [hamısının] əxzi-əsgər məclisi tərəfindən təsdiqi lazımdır.

26 – İşbu qanun tarixi-nəşrindən etibarən mötəbərdir.

Qəbul olundu.

*Azərbaycan Hökumətinin Rəisi:*
*Fətəli xan Xoyski*

**Aydınlıq bir gecədə təfəkkür dəqiqələri**

*Vaqonda gedərkən*
II

Əlvahi-səmaviyyəyə heyran oluyordum,
Heyrət: bəşərin əczini etməkdədir izhar.
Heyrətlə baxırdım: o ziyagahi-büləndə
Aydınlıq olan leyl, tamaşaya səza-var.
Göy parlaq ikən torpağın övladı qaranlıq,
Göylər gülüyorkən bəşərin gözləri ağlar.
Baxdım qəmərə, yıldıza, baxdım mələkuta,
Qərq oldu bütün varlığım amaqi-sükuta.

* * *

Birdən-birə bir tatlı səda duydu qulağım,
Guya uyumuşdum, o səs etdi məni bidar.
Dərhal çevirdim üzümü səmti-sədaya,
Gördüm duruyor bir qadın, ənzarı füsunkar.
Bir hakimeyi-qəlb idi ol hüsni-müsəxxər,
Pək cazibəli gözlərə malikdi o rüxsar.
Zülfi-siyəhi bəxtimi tənzir ediyordu,
Şəmsi-rüxü də atiyi-millət kimi nəvvar.
Nəvvar idi, taban idi, rəxşan idi ruyi,
Bir heykəli-amal idi guya ki, o didar.
Baxdım o gözəl çöhrəyə, baxdım mələkuta,
Qərq oldu bütün varlığım amaqi-sükuta.

*Əbdülsəlimzadə Məhəmməd Hadi*
*Bakı*

## BAKI QAÇQINLARININ İRANDAN QAYITMASI

Mart hadiseyi-müəssifəsindən [təəssüf doğuran mart hadisəsindən] sonra Bakı əhalisindən bir çoxları İrana keçib Astara, Ənzəli, Rəşt, Lahican, Qəzvin və Tehranda sakin olmaqda idilər. Bu qaçqınların çox hissəsi Ənzəli və Rəştdə məkan tutmuşdular. Bunlar füqəra və əlsiz-ayaqsızlardan olmayıb, Bakının məşhur tacir, sərvətli və sənət sahiblərindən ibarət idi. Qaçqınların bu müddət ərzində nə qədər məşəqqət və zillət çəkdiklərindən sərfi-nəzər edib [vaz keçib], fəqət Bakıya övdət etmələrindən [qayıtmalarından] bir qədər yazmaq istərəm. Aylardan bəri vətənindən uzaqlaşıb qulağı səsdə, gözləri yolda müntəzir bir halda Gilan torpağında yaşayan Bakı qaçqınları Bakıda nələr vaqe olması haqqında bir sərih [aydın] xəbər almaqdan ötrü vaxt-bivaxt dəniz kənarında günlərini keçirirdilər. Bakı haqqında dövran edən növbənöv şayiələr hər dəfə qaçqınlara bir cür təsir bağışlayırdı. Bakının qəhrəman Türkiyə əsgərləri tərəfindən mühasirə edilməsi və Bakı kənarında müharibələr vaqe olduğu xəbərləri Bakı qaçqınlarını daha da maraqlandırmışdı.

Zilhiccənin 7-də axşam çağı bir neçə paraxodun Ənzəliyə yavuqlaşdığını görən Ənzəli əhalisi bir dəqiqədə körpülərə cəm olub bir neçə paraxodun birdən-birə Ənzəliyə gəlməsinə təəccüb etdilər. Paraxodlar körpüyə yavuqlaşdılar. Bunlardan üçü ingilis əsgərləri, dördü erməni saldat və qaçqınları və digər üçü top-topxana və ərzaq şeyləriylə malamal [dopdolu] idi. Bunlardan əlavə bir saat bu paraxodların gəlməsindən qabaq Ənzəlidən Bakıya rəvanə olan nəqliyyat paraxodları da paraxodlar ilə bərabər Ənzəliyə qayıtdılar. Paraxodların bu halət ilə Ənzəliyə gəlmələri Bakı taleyinin nə surətlə həll olunmasını aşikar andırırdı. Bakı qaçqınlarında müşahidə edilən şadyanalığı qələm yazmaqdan acizdir. Bir çoxları ağlamaq dərəcəsinə erib gözləri yaşarmış bir halda bir-birləri ilə öpüşüb görüşürdülər. Ənzəliyə varid olan paraxodlar Bakı haqqında doğru bir xəbər söyləmədilərsə də, lakin Bakının qəhrəman Türkiyə ordusu tərəfindən işğal olunmasına şəkk və şübhə qalmadı. Bu əhvalatdan sonra Bakı qaçqınları Bakıdan ötrü biqərar olub Bakıya getmək üçün yollar və çarələr düşünməyə başladılar. Ailəsi olmayan qaçqınlar Bakıya getmək üçün Təbriz və Astara təriqi [yolu] ilə yola rəvanə oldular. Ailələri olanlar isə aramsız bir halda qalıb gecə-gündüz Ənzəlidən çıxıb Bakıya getmək həsrəti ilə qəfəsdə qalan quş kimi yaşamaqdan usandılar. Axırda Bakı mötəbəranından Ənzəlidə yaşamaqda olan Mirzə Əsədullayev bir neçə yoldaşları ilə Bakıya gəlmək üçün ingilislərdən bir paraxod icazəsi almaq qəsdinə düşdülər. Uzun müzakirat və münaqişatdan sonra Mirzə Əsədullayevin səyi və təlaşı və zəmanəti sayəsində "Arxangelsk" paraxodunun Bakıya gəlməsinə icazə almağa müvəffəq oldular. Bakıya paraxod gedəcəyi elan olunduqda Bakı qaçqınları Bakıya gedəcəkləri həvəsi ilə yolda düçar ola biləcəkləri hər bir qəzavü qədəri Allaha tapşıraraq ailələri ilə bərabər paraxoda əyləşdilər. Gecəni aramsız bir surətdə paraxodda keçirib, sabahı Bakı tərəfə yollandıq. Nargin cəzirəsi [adası] yaxınlığına yetişdikdə burada dayanmaqda olan gəmilərdən "Qars" hərbi gəmisi önümüzə gələrək paraxodumuzu dayandırdı. Altı saata qədər müzakiratdan sonra "Qars" gəmisi paraxodumuzun Bakıya yanaşmasına izin verib, bizi buraxdı. Bu biri tərəfdə dayanmaqda olan "Astrabad" hərbi gəmisi təzədən paraxodumuzu dayandırıb hərbi gəmilər nümayəndəsi Voskresenski Petrovskdan gələnə qədər dayandırılacağımızı elan etdi. Bu qərarla Bakının işıqlarına həsrətlə baxa-baxa üç gecə suyun ortasında qalmağa məcbur olduq.

# «AZƏRBAYCAN» qəzetinin 1918-ci il 11 oktyabr (Cümə günü) tarixli XII nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Axırda gözlənilən Voskresenski Petrovskdan gəlib axşam çağı paraxodumuzun Bakıya gəlməsinə icazə verdi. Və sərnişinlər Bakıya çıxdıqdan sonra yenə də paraxodun Nargin cəzirəsi yanına qayıtmasına Mirzə Əsədullayev və yoldaşlarından iltizam aldı. Bu qərarla Mirzə Əsədullayev, Həsən Mustafayev və Knyaz Əmir Acibiy barkas ilə Bakıya gəlib paraxodumuzun Bakıya gəlməsinə Türk Komandanı tərəfindən icazə alıb qayıtdıqdan sonra paraxodumuz Bakıya varid oldu. Bakı körpüsünə istiqbal üçün cəm olan əhali paraxod sərnişinlərini gördükdə böyük bir şadlıq və alqışlar ilə təbrik etdilər. Bütün paraxod qaçqınları Mirzə Əsədullayevin bu barədə çəkdiyi zəhmətləri fəramuş etməzlər [yaddan çıxarmazlar] zənnindəyiz. Sərnişinlər Ənzəlidən Bakıya məccanən [havayı] gəldilər. Bakıya salamat gəlib çıxan bu qədər sərni-şinlər tərəfindən bir kəlmə də olsa Mirzə Əsədullayevə və yoldaşlarına mətbuat vasitəsilə ihzari-təşəkkür gö-rülmədiyinə və bu tezlikdə bu qədər zəhmətləri bilmərrə [tamamilə] unutmaqlarına əfsus edirəm. Bununla öz tərəfimdən Mirzə Əsədullayevə və bu işdə olmazın zəhmətlər çəkən yoldaşlarına öz təşəkküratımı izhar edib, həsrətlə İranda qalan Bakı qaçqınlarının İrandan Bakıya nəql edilmələri üçün hökumət nəzdində lazımi binagüzarlıqda bulunmalarını [tədbir görmələrini] dərxatir etməyi [yada salmağı] özümə borc bilirəm. Ümidvar oluram ki, İranda min zillət və məşəqqət ilə gün keçirməkdə olan Bakı qaçqınlarının halı nəzərə alınıb onların tezliklə Bakıya gətirilmələri üçün bir çarə aranılacaqdır.

*Zülfüqar bəy Hacıbəyli*

## SUAL VƏ CAVAB

1 – Dövlət nədir, millət nədir, vətən nədir?

Dövlət: göstərdiyimiz bir xanənin müdiridir. Məsələn, bu gün bir dövlətin bayrağı altında bulunan bilcümlə vətən bir xanəyə müşabehdir [oxşamaqdadır]. Müstəqil bir xanə müdiri o xanənin daima həddi-idarəsini və təərrüzati-xaricədən [xarici müdaxilələrdən] məsun [toxunulmaz] qalmasını düşünər, lazım gələn tədabiri-mühimməyi [vacib tədbirləri] təşkil edər. Bir dövlətin sancağı altında bulunan insanların yaşaması hər nəyə mütəvəqqif [bağlı] isə onu ehzar [hazır] edər. Şu gözümüz önündə görmüş olduğumuz müəzzəm ordunu vəsaiti-mühimməsiylə [lazımi vəsaiti ilə] tədarük edər. Ordu isə o binanın divari-ərbəəsidir [dörd divarıdır], fərzən [fərz edək ki] bir binanın divarları olmazsa, o binanın səqfi [tavanı] təmərküzdən daima xalidir. Bir binanın ki, divar, damı olmazsa xaricdən vüqu bulacaq olan hər dürlü təərrüzdən əmin olammaz. Gərək hava və gərəksə heyvanati-vəhşiyə və sairə, hətta təvəhhüş edən [vəhşiləşən] insanlardan belə məsun deyildir. Ordunu təşkil edən üməra və zabitan [əmirlər və zabitlər] o divarların rükni-əzəmi [ən böyük dayağı] deməkdir. Bir dövlətin ordusu hər nə qədər səbatkar [möhkəm dayanan] rükni-əzəmlərinə istinad edərsə, o dövlətin sancağı hər an parlaq müzəffəriyyətlərə müncər [nail] olacağı bədihidir [aydındır].

Millət: bir dövlətin sancağı altında bulunan insanların heyəti-məcmuəsidir [ümumi heyətidir]. Bir millət hər nə qədər səy və qeyrət edərsə, o nisbətdə rifahi-hal ilə yaşamasını təmin etmiş olar. Əvvəli-əmrdə [ilk növbədə] millətə aid vəzifə də şudur, aləmi-zülməti tənvirə [zülmət aləmini işıqlandırmağa] xadim olan elektrik kimi cəhli-mənəvi [mənəvi cəhalət] ordusuyla cihada mühəyya [hazır] olan orduyi-maarifdir. Bir millət daima kəndi əleyhində bulunan cəhli-mənəvi ordusunu məğlub etmədikdən sonra, maddi düşmənlərini məğlub əlbət edəmməz, etsə də bəşəriyyətin taqəti fövqündə olan bir çox məzahim [əziyyətlər] və müşkülata [çətinliklərə] məruz qalacağı şübhəsiz olmazmı?

"Maarif-mənd olan zəvatın həmişə qədri baladır [ucadır]" deyilmişdir.

Tarixi-insaniyyətə müraciət edilincə, nə kimi millətlərin maarifsizlik üzündən inqiraz bulması [məhv olması] və nə kimi millətlərin də sayeyi-maarifdə təali bulması [ucalması] cəhətləri anlaşılammazmı?

Bu məqaləmi oxuyan din qardaşlarımdan təmənni edirəm ki, bəhaqq [həqiqətən] məalına [mənasına] vaqif olub, səy və qeyrətə anən və anən [hər an] ibrazi-təvəccöh etməlidirlər [rəğbət göstərməlidirlər]. Maarif, bir [millətin] yıxılmaz zirehlə yapılmış və heç bir vəsaitlə təxrib edilməz, mətin, mətini-sabit qalalarıdır.

Vətən: bir dövlətin hakim olduğu yerlərin də heyəti-məcmuəsinə deyilir. Vətən hər nə qədər tərəqqi edərsə, o millət, o dövlət o dərəcə rahat yaşar. Vətən tərəqqi etməz, yəni şu gördüyümüz torpaq, daşlar, dağlar hər nə isə, şəkli-əslisini milyonda bir nisbətdə təbdil edər [dəyişdirər]. Halən xilqəti-əsliyyəsində sabit qalar.

Tərəqqi edəcək o toprağın üzərində yaşayan insanlar deyil də, nədir?

İnsanların tərəqqisi iki şey ilədir: 1) maarif; 2) sərvətdir.

Asayişi təmin edəcək, millətin bir cüzü olan heyəti-hökumətdir. Hökuməti təşkil edəcək zəvat, mənabeyi-maarifdən [maarif mənbələrindən] sirab olan [doyunca içən] insanlardır. Demək olar ki, təməl – maarifdir. Minlərcə qüvveyi-icraiyyə kiçicik bir məntəqənin inzibatını [nizam-intizamını] güc hal ilə təmin edər amma ərbabi-maarif ondan daha səri [sürətli] cüzi çareyi-təmini bula bilər. Artıq bundan anlaşıldığına görə, hər dürlü fəlakət və müşkülat cəhalətdədir. Tərfi [yüksəlmə] və təali [ucalma] ilax. təhsili-elm və fününi-mütənəvve [müxtəlif fənlər] ilə qaimdir. Şu halda həmiyyətli qarelərimizdən bu nüqati-mühimmələri [vacib nöqtələri] idrak edə bilməyənlərə anlatmalarını rica etmək istərsəm, bilməm nasıl tələqqi edilər [qəbul edilər]?

*Tofiq*

## ŞƏHƏR DUMASINDA

**Təşrini-əvvəlin [oktyabrın] 8-dəki iclas**

İclas 30 nəfər qlasnı hazır olduqdan sonra axşam saat 6-da Qasım Qasımovun təhti-sədarətində [sədrliyi altında] açılır. İclasda keçmiş iclasın protokolu qəbul olunur. Roxlinin qlasnı vəzifəsindən, M.Sultanovun uprava üzvlüyündən və iki nəfər qlasnıların naxoşluğundan naşi [naxoşluğu səbəbindən] istefaları qəbul olunduqdan sonra Qasımov Su şöbəsinə nazirlik [müfəttişlik] vəzifəsini ifa etmək üçün bir adam intixab olunmasını [seçilməsini] təklif edir. 32 səslə (10 ziddinə) İbad Əliyev Su şöbəsi nazirliyinə seçilir.

**Bələdiyyə rəis müavininin maaşı haqqında**

32 səslə Şəhər rəisi müavininə ildə 15 min manat məvacib təyin edilib, bu vəzifəyə Mehdiyev intixab edilir.

**Duma heyətlərinin intixabı**

Məkatib [Məktəblər] şöbəsi əzalığına [üzvlüyünə] Əliağa Həsənov və Veyn-şal seçilirlər. Təşkilat heyətinin təklifinə görə müqavileyi-müştərəkə [kollektiv müqavilə] ilə mərbut [bağlı] məsələlərin həlli üçün Smirnov, Şor, Podşibyakin, Perçixin, Kara-Murza, Qasım Cəfərov və Əlisgəndər Cəfərovdan ibarət bir heyət seçilir.

**Hökumət istiqrazı**

Uprava üzvü Pleskaçevski Azərbaycan Hökumətiylə bağlanacaq faizsiz milyon yarım borc barəsində izahat verir. Sədr, bu pulun hökumət tərəfindən buraxılıb, Şəhər Dumasının təsdiq edəcəyini anlaşdırır. Duma qəbul edir.

**Şəhər darüttərbiyəsinin [uşaq tərbiyə evinin] çocuq xəstəxanasına təbdili [çevrilməsi]**

Şəhər darüttərbiyəsinin çocuqlara məxsus xəstəxanaya təbdil edilməsi barəsində doktor Kaufman müfəssəl məruzə oxuyur. Bunun məqsədi gələcəkdə çocuqlar xəstəxanasında sağlam vətəndaşlar yetişdirməkdir. Veynşal da buna tərəfdardır.

Blinov deyir ki, burada yetim çocuqları da bəsləmək mümkündür. Leontyeviç deyir ki, darüleytamlarda [yetimxanalarda] xəstəlik olduğundan bir az vaxtda 64 nəfər ölmüşdür. Natiq bu müəssisələrin ölüm fabrikasına dönəcəyindən qorxub hal-hazırdakı da rüttərbiyələri göstərir. Natiq məsələnin qəbulunu təklif eyləyir. Drujinin də Leontyeviçə tərəfdar olub bu layihənin tərtibini xüsusi heyətə verilməsini istəyir.

Qara bəy Qarabəyli həzrətləri məruzəni məqbul və layiqliədd edir [sayır], fəqət darüttərbiyənin dəyişməsi əvəzində cənbində [yanında] bir çocuqlara mənsub xəstəxana binasını daha da yararlı sandığı üçün məsələni komisyona verməyi təklif edir.

P. F. İlyuşkin məlum edir ki, qlasnılar məsələni layiqincə istima etməmişlər [dinləməmişlər]. Məruzə darüttərbiyəni fəsx etmək istəmir. Fəqət çocuqların vəfatı qarşısını alır. Darüttərbiyə yerində qalacaqdır, cənbində isə xəstə çocuqlardan ötürü bir şöbə güşad ediləcəkdir [açılacaqdır]. Azərbaycan Hökuməti Ümuri-Nafiə və Xeyriyyə Nəzarəti [Səhiyyə və Sosial Təminat Nazirliyi] fəaliyyəti sayəsində bir neçə xüsusi müəssisələr açılmışdır ki, müəyyən yaşa ermiş çocuqlar oraya göndəriləcəkdir.

Doktor Kaufman əlavə edir ki, çocuq xəstəxanası 2-3 sənədən sonra hazır olacaq. Darüttərbiyə cənbindəki xəstə çocuqlara mənsub şöbədən ötrü isə bütün ləvazimat hazırdır. Sədr uprava məruzəsini səsə qoyur. Məruzə lehinə 22, əleyhinə 15 səs çıxır. Bir səs iştirak etməmişdir.

**Şəhər maliyyəsinin vəziyyəti**

Q.Qasımov məruzəni istimadan əvvəl 10 dəqiqəlik tənəffüs elan edilməyi təklif edir.

P.F.İlyuşkin: Təcrübə göstərmişdir ki, tənəffüsdən sonra qlasnılar azalır, binaileyh [ona görə] ya məsələyə keçməli və yainki iclası qapamalı.

İstima edilən məruzənin bir çox rəqəmlərdən ibarət olduğu göstərir ki, məsələni layiqincə həll etməkdən [ötrü] upravanı hökumətdən 7 milyonluq bir qərz [borc] tələb etməyi barəsində müvəkkil buyursun. Şu qərz ərzaq və şəhər borcundan əlavə ən lazımlı məxaricata işləniləcəkdir.

P.F.İlyuşkin məlum edir ki, bələdiyyənin maliyyə komisyonu qərz təqrizini [borclanmanı] 6 milyon qət etmişdir. N.İ.Drujinin təklif edir ki, məruzənin rəqəmləri çoxluğundan naşi təb [çap] etdirib qlasnılara göndərməlidir ki, məruzə ilə layiqli surətdə tanış olsunlar.

Bu təklif Duma tərəfindən rədd edilib, 27 səs lehinə, 7 səs əleyhinə olaraq hökumət nəzdində 7 milyonluq istiqraz, bundan əlavə Duma əksəriyyəti-ara ilə [səs çoxluğuyla] upravaya təklif edir ki, darüttərbiyələrin fəsxi məsələsini təhlil etsin.

**Zibil yaxıcı sobalar**

Uprava öz məruzəsində Dumadan 20 ədəd zibil yaxıcı sobalar təmiri üçün 113000 rublə pul təxsis edilməsini [ayrılmasını] istida [xahiş] edir.

Məsələ uzun-uzadı müzakirəyə səbəb olur. Qlasnılardan bir neçə zat təklif edir ki, əski qayda üzrə zibili şəhər kənarına atdırsınlar.

Şəhər qlavası ən yaxın zamanda şəhər nəqliyyat arabalarının iş halına gətirilməsi və hökumətdən əsbabi-nəqliyyəni [daşıma vasitələrini] istəmək namümkün olduğunu elan edir.

Qara bəy Qarabəyli və Ağabala Quliyev təklif edirlər ki, şəhəri təmizləməkdən ötrü Türk Komandanlığının müavinəti [yardımı] istida edilsin.

Nəzarət şöbəsi (Kontrolnı otdel) məsələsi uprava ilə heyəti-rüəsa [rəyasət heyəti] miyanındaki [arasındakı] etilaf [uzlaşma] mövcibincə hələlik müzakirədən çıxarılır. İstida təklifi qəbul edilir.

Vaxtın gecliyindən naşi [gecliyi səbəbinbən] sədr iclası qapayır.

## BAKI XƏBƏRLƏRİ

– Bakı "Mariya" ünas [qızlar] məktəbi elan edir ki, təşrini-əvvəlin [oktyabrın] 15-dən tətilə buraxılanlar, daxil olmaq istəyənlər və şəhadətnamə almaq arzusunda olanlar imtahan ediləcəkdirlər. İmtahanlar "Svyataya Nina" ünas məktəbində saat 2-dən başlanacaqdır.

***

– Saykovskayanın zükur [oğlanlar] gimnaziyası elan edir ki, məktəbə daxil olmaq arzusunda olanlar bu barədə məktəbin dəftərxanasına sabah saat 11-dən 1-ə kimi və öylədən sonra isə 3-dən 6-ya kimi ərizə verməlidirlər.

***

– Bakı İkinci realnı məktəbi məktəblilərin qəyyum və valideynindən xahiş edir ki, çocuqlarının təhsildə davam etmələri barəsində məktəbə məlumat verməlidirlər. Bu barədə məlumat məktəb dəftərxanasında saat 11-dən 2-yə kimi qəbul olunur. Məktəbə yeni daxil olmaq arzusunda olanlar ərizə verməlidirlər.

***

– Bakı Kazyonnı [Xəzinə] Palatası ticarət və gəlir vergisini verməyənlərə elan edir ki, Azərbaycan Cümhuriyyəti Maliyyə nazirinin 6 təşrini-əvvəl [oktyabr] 1918 tarixli qanunu mövcibincə keçmiş hökumətlər tərəfindən verilmiş qanunlar fəsx edilib, vergilər bu qanun üzrə alınacaqdır:

1. Ticarət vergisi:

a) Vergi vərəqələrinin intişarı – 1 təşrini-sani [noyabr] 1918.

b) Bu barədə veriləcək şikayətlər – 15 kanuni-əvvəl [dekabr].

2. Gəlir vergisi:

a) Vərəqələri intişar etmək – 1 kanuni-əvvəl.

b) Şikayətlər – 1 kanuni-sani.

c) Vergini xəzinəyə vermək – 15 kanuni-sani [yanvar].

*Bakı Kazyonnı Palata müdiri:*
*Zire*

**Mərkəzi Ev Komitəsində**

Mərkəzi Ev Komitəsi tərəfindən 6-cı, 7-ci, 8-ci, 9-cu dairə komitələrinə birər kağızlar göndərilib, bu dairələrdə yaşayan, nahiyələrdən gəlmiş qaçqınlar barəsində siyahılar tərtib verilməsini istidada bulunmuşdur [xahiş etmişdir]. Bu siyahılarda fərarilərin milliyət və daimi surətdə yaşadıqları yerləri də göstərilməlidir. Əhalini xəbərdar etməlidir ki, bu siyahılar Ümuri-Nafiə və Xeyriyyə [Səhiyyə və Sosial Təminat] naziri tərəfindən qaçqınlara müavinətdə bulunmaq barəsində tərtib etdirilir.

– Mərkəzi Ev Komitəsi bütün dairələrin ev təşkilatlarına bununla elan edir ki, ev sahibləri tərəfindən kirayənişinlərə ediləcək qanunsuzluqlar barəsində Komitənin Hüquq mühafizəsi şöbəsinə ittilaat [xəbərlər] versinlər. Ev sahibləri qəbul edilmiş kirayədən artıq alacaq olarsa və yainki qiyabəti [qaib olduğu] zaman təşkilatlar tərəfindən edilmiş məxaricatı vermək və qəbul etmək istəməzsə, yenə həman şöbəyə xəbər verilməlidir.

**Yemişə taksa [meyvəyə nırx]**

Şəhər bələdiyyəsinin Taksa Komisyonu [Nırx Komissiyası] təşrini-əvvəlin [oktyabrın] 7-dəki iclasında bazarın əhvalını müzakirə etdikdən sonra işbu taksanı qəbul etmişdir:

Mal əti ilə qoyun ətinə isə şəhər sallaqxanasının fəaliyyətsizliyindən naşi hələlik taksa təyin edilməmişdir. Bu məsələni iki həftə geriyə ataraq qət etmişdir ki, şəhər bələdiyyə indində [nəzdində] təcili surətdə sallaqxananın fəaliyyətə başlaması barəsində istidada bulunsun.

| | | | |
|---|---|---|---|
| 1 | qarpız | funt | 1 manat |
| 2 | Gəncə üzümü | " | 3 m. 50 q. |
| | Dərbənd üzümü | " | 3 m. |
| | Bakı üzümü (şanı) | " | 3 m. 50 q. |
| 3 | alma dərəcə "əla" | " | 3 m. |
| | alma 2-ci dərəcə | " | 2 m. 50 q. |
| | alma xırda | " | 2 m. |
| 4 | armud dərəcə "əla" | " | 3 m. |
| | armud 2-ci dərəcə | " | 2 m. 50 q. |
| | armud xırda | " | 2 m. |
| 5 | nar böyük | " | 1 m. 50 q. |
| | nar miyanə | " | 1 m. 25 q. |
| | nar xırda | " | 1 m. |

## AZƏRBAYCAN POLİS MÜFƏTTİŞİ-ÜMUMİSİ VƏ BAKI TƏZİYƏDARANI

Məhərrəm ayı tüluunda [doğduğunda] Həzrəti İmam Hüseyn əzası münasibətilə sabiq illər misalında bu ildə də bəzi əzadaran dəstələrlə küçə və bazara çıxıb, Bakı istilahı ilə [Bakıda deyildiyi kimi] "dəstə gəzdirməyə" başlamışdır. Keçən gün bir caddədə şu "dəstə"lərdən birisi bir zəbtiyyə qaraqoluna rast gəldikdə, məsullarını Müfəttiş idarəxanasına gətirmişdilər. Burada Bəhaəddin bəy əfəndi tam bir pədəri-mənəvi [mənəvi ata] sifətilə ən avam və sadə bir müsəlmanın dərk edəcəyi bir lisani-şirin ilə "dəstə məsullarına" təqribən şu nəsihətlərdə bulundu:

"Oğullarım! Mən də sizin kimi bir müsəlmanam. Əmin olunuz ki, islam və islamiyyətin şan və dərəceyi-balasını [uca şan və mövqeyini] mən sizdən daha artıq dərk etməklə, onun yüksəlməsinin və aləm içində intişar tapmasının tərəfdarıyam. Biz türklər tam altı yüz sənədir ki, Avropa ilə Asiyanın ortasında bir qala təşkil edərək, bütün islamiyyətə əcnəbilər tərəfindən atılan kaman və nizələrə sinələrimizi sipər etmişik. Şu müddəti-mədidədə [uzun müddətdə] bir gün olmamış ki, biz türklər arxamızdan silahı atıb da asudə və insancasına həyat keçirək. Əmin olunuz ki, bizlər islam olmayıb xristian və ya başqa bir dində bulunsaydıq bu gün məqami-coğrafi və haləti-siyasiyyəmiz iqtizasınca bizlərdən məsud və bizlərdən əzim bir millət olmaz idi.

Bu gün Anadoluda heç bir xaniman qalmamışdır ki, orada 15-dən ziyadə və 60-dan kəm yaşlı bir erkək bulunsun. Bu son müharibələrdə ki, yalnız türklük və Türkiyə deyil, bəlkə bütün islam və islamiyyətə suiqəsd edilməkdə idi. Çanaqqala və Dardanel müharibələrində bütün dərə və çaylar türk şəhidləri ilə malamal [dopdolu] olub da axırda düşməni fərara məcbur etmişiz!.. Bunu biliniz və nəzər-diqqətə alınız ki, bu gün Türk Ordusunun buraya gəlməsi, Bakını zəbt etməsi həman islamiyyətə can fəda etmək məqsəd və məsləki-müqəddəsəsidir ki, Peyğəmbərizişanımızın şəriəti-mütəhhəri [şanı uca Peyğəmbərimizin pak şəriəti] naminə biz bu əza və əziyyətlərə uğramışız!..

Çarələr arayırlar

Həzrəti Hüseyn dəxi din və islamiyyət mücahididir. Ona təziyə tutan, onun halına yanan bir müsəlman var isə, gərək onun məslək və əfkarına təbəiyyət etsin [tabe olsun]. Bu gün sizin ən milli, vətəni, dini bir vəzifəniz var isə, o da sizin güclü və mühib [heybətli] bir islam ordusu təşkil etməyinizdir. Bu gün islamın bir müqtədir ordusu olarsa, islamiyyətə doğru cuş edən bəla fırtına və dalğalarını dəf edib islam məmləkətini, islam mərkəzini düşməndən müdafiə etməyə qadir olarsa, islam, islamiyyətə ən böyük xidmət və ən mücərrəb [sınanmış] fədakarlıq da olacaqdır. İştə, ən müqəddəs və həqiqi əzadarlıq da öylə olmalıdır.

Təkrar edirəm ki, mən islamiyyəti və onun şan və heysiyyətini sizdən eyi hiss edirəm. Bu gün İmam Hüseynə ağlamaq və yaxud küçə və bazara düşüb bağırmaq bugünkü dərdimizə dərman və ehtiyaclarımıza rəfihacət olarsa [ehtiyaclarımızı aradan qaldırarsa], o vaxt mən sizdən əvvəl və sizdən çabuq bu təziyədarlığa şitaban [tələsən] olaram.

Bunlardan əlavə təziyədarlıq və ibadət üçün bizim mütəəddid [çoxlu] məscidlərimiz vardır ki, hər halda həp müsəlmanlar orada ictima edib öz ibadətlərinə məşğul ola bilərlər. İbadət üçün daha küçələrə çıxmağın heç bir mənası yoxdur. Və baxüsus [xüsusilə] zamanın təqazası mövcibincə də [zamanın tələbinə uyğun olaraq] hökumətimiz tərəfindən küçələrdə hər bir ictima və izdiham məmnudur [qadağandır]."

Şu pədəranə [ata kimi] nəsihət və moizələrdən sonra Bəhaəddin bəy əfəndi dəstə nümayəndələrini təzir edərək [danlayaraq] tərxis etmişdir.

*Məhəmməd Sadiq*

**Müdirlər:**
**Ceyhun bəy Hacıbəyli**
**Şəfi bəy Rüstəmbəyli**

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***Millətlərin mübarizeyi-həyatı***

*səh. 172. "…rüb'ümüzü təşkil edəmməyən bir millətin…": burada söhbət ermənilərdən gedir.*

***Ordu qərargahından***

*səh. 173. Burada söhbət Qafqaz İslam Ordusu qərargahından gedir.*

*"8-10-2024, 9 əvvəlində": Bu rəqəmlərlə nə ifadə edildiyi açıq deyil. Böyük ehtimalla, "8-10" rəqəmləri "8 oktyabr", "9 əvvəlində" isə "saat 9-a işləmiş" mənasını verir. "2024" rəqəmləri səhv düşmüş ola bilər.*

***Azərbaycan Hökuməti Mükəlləfiyyəti-əsgəriyyə qanuni-müvəqqəti***

*səh. 174. "müstəhfiz" sözü "mühafizəçi; qoruyan, mühafizə edən" mənasını verir.*

*səh. 175. "…kiçik yaşlı nəvələrə malik böyük bir qardaşdan…": ehtimal ki, "nəvələrə" sözü yerinə "bacı-qardaşlara" olmalı idi.*

*səh. 176. "Qaimməqam": keçmişdə, bir inzibati ərazi vahidi olan qəzanı idarə edən məmur.*

***"Aydınlıq bir gecədə təfəkkür dəqiqələri: Vaqonda gedərkən" şeiri (səh. 177) üçün lüğət***

*əlvahi-səmaiyyə: səma lövhələri*
*ziyagahi-bülənd: uca işıq mənbəyi*
*leyl: gecə*
*səzavar: layiq*
*mələkut: ruhlar və mələklər aləmi (səma)*
*amaqi-sükut: sükut dərinlikləri*
*bidar: oyaq*
*ənzar: nəzərlər, baxışlar*
*hakimeyi-qəlb: qəlbə hakim olan qadın*
*hüsni-müsəxxir: (qəlbi) zəbt edən gözəllik*
*rüxsar: çöhrə, üz*
*zilfi-siyəh: qara saç*
*tənzir etmək: andırmaq*
*şəmsi-rüx: günəş kimi olan üz*
*atiyi-millət: millətin gələcəyi*
*nəvvar: nurlu*
*taban: parlaq*
*rəxşan: işıqlı*
*ruy: üz*
*heykəli-amal: arzuların timsalı*
*didar: üz, çöhrə*

***Bakı qaçqınlarının İrandan qayıtması***

*səh. 177. "Zilhiccənin 7-də…": miladi təqvimlə 14 sentyabr 1918-ci il.*

*səh. 178. "Barkas": kiçik ölçülü gəmi, əsasən liman daxilində istifadə olunur.*

***Şəhər Dumasında***

*səh. 180. "Şəhər Duması": seçkili yerli özünüidarə orqanı.*
*"Qalasnı": seçkili yerli özünüidarə orqanının üzvü (rusca).*

***Şəhər Dumasında: Şəhər maliyyəsinin vəziyyəti***

*səh. 182. "Bu təklif Duma tərəfindən rədd edilib, 27 səs lehinə, 7 səs əleyhinə olaraq hökumət nəzdində 7 milyonluq istiqraz, bundan əlavə Duma əksəriyyəti - ara ilə upravaya təklif edir ki, darüttər-biyələrin fəsxi məsələsini təhlil etsin.": Bu cümlə qarışıqdır, güman ki, cümlənin bir hissəsi düşmüşdür. Qəzetdə belədir.*

***Bakı xəbərləri***

*səh. 183. "Saykovskayanın zükur gimnaziyası": burada söhbət A. K. Saykovskaya tərəfindən 1914-cü ildə açılan Bakı Xüsusi tam oğlan gimnaziyasından (Бакинская частная полноправная мужская гимназия) gedir.*

***Bakı xəbərləri: Yemişə taksa***

*səh. 184. "Funt": metrik ölçü sisteminin tətbiq edilməsindən əvvəl işlədilən çəki ölçüsü vahidi, "pud"un 1/40-nə (0,4095 kq) bərabər idi.*

***Azərbaycan Polis müfəttişi-ümumisi və Bakı təziyədaranı***

*səh. 184. Zəbtiyyə qaraqolu: Hər hansı bir yaşayış məntəqəsində asayişi təmin edən inzibati idarə, polis idarəsi və ya səyyar qarovul.*

*səh. 185. "Çarələr arayırlar": Bu mətnin bəzi hissələri qəzet nəşrə hazırlandıqdan sonra çıxarılmış, çıxarılan hissələrin yeri boş buraxılmışdır. "Çarələr arayırlar" sözləri, özündən əvvəlki və sonrakı hissələrlə heç bir məntiqi əlaqəsi olmadan, ümumi kontekstdən kənarda qalmışdır.*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 15 min şəxsə reabilitasiya xidmətləri göstərilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin reabilitasiya mərkəzlərində bu ilin yanvar-may aylarında əlilliyi olan 15 minə yaxın şəxsə reabilitasiya xidmətləri göstərilib.**



Onlar səmərəli fizioterapevtik müalicə prosedurlarına cəlb edilib, müalicəvi bədən tərbiyəsi, sosial-psixoloji xidmətlərlə əhatə olunublar.

Bu dövrdə agentlik tərəfindən əlilliyi olan 5411 şəxsə 24 minə yaxın reabilitasiya vasitəsi verilib.

## "Azəriqaz" üzrə istehlakçıların sayı 2,5 milyona çatır

**Cari il iyunun 1-nə olan məlumata görə, "Azəriqaz" İstehsalat Birliyi üzrə istehlakçıların sayı 2 milyon 465 min 415-ə çatıb.**

AZƏRTAC xəbər verir ki, bunu İB-nin baş direktorunun satış üzrə müavini Rəşad Cavadov deyib. Bildirib ki, əhali sektoru üzrə 2 milyon 427 min 456 abonent, qeyri-əhali sektoru üzrə isə 37 min 959 abonent olub.

## Reabilitasiyaya cəlb edilən bir qrup qazi ilə görüş keçirilib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov nazirliyin Yevlax şəhərindəki əlilliyi olan şəxslər üçün Regional Bərpa Mərkəzində reabilitasiya keçən qazilərlə görüşüb.**

V.Behbudov mərkəzin şəraiti və qazilərə göstərilən xidmətlərlə tanış olub. Sədr şəhid ailələri və müharibə əlilləri ilə bağlı sosial dəstək tədbirlərini diqqətə çatdırıb.

Bidirilib ki, postmüharibə dövründə 3500, ümumilikdə ötən dövrdə 12500-dən çox mənzil və ya fərdi ev şəhid ailələri və müharibə əlillərinə təqdim edilib. Nazirlik tərəfindən ötən dövrdə 7400 müharibə əlili isə avtomobillə təmin olunub.

Vətən müharibəsinin 200 hərbçisi, ümumilikdə 300 müharibə əlili yüksək texnologiyalı son nəsil protezlərlə, 1400-dən çox müharibə əlili 19,3 mindən çox reabilitasiya vasitəsi, 2500 qazi reabilitasiya xidmətləri ilə təmin edilib.

Sonra sosial-psixoloji və tibbi-sosial reabilitasiyaya cəlb olunan müharibə əlillərinin agentliyin fəaliyyət istiqamətlərinə aid müraciətləri də dinlənilib. Müraciətlərdə qaldırılan məsələlərin həlli ilə əlaqədar tədbirlər görülüb. Görüşdə iştirak edən Vətən müharibəsi qaziləri onlara göstərilən dövlət qayğısından razı qaldıqlarını qeyd ediblər.

## Yanvar-may aylarında ölkə üzrə 19,6 milyard kubmetr təbii qaz çıxarılıb

Cari ilin 5 ayı ərzində ölkədə 19,6 milyard kubmetr təbii qaz hasil edilib.

Qazın 5,8 milyard kubmetri "Azəri-Çıraq-Günəşli"dən, 10,6 milyard kubmetri "Şahdəniz"dən, 3,2 milyard kubmetri SOCAR üzrə hasil olunub. Ötən ilin müvafiq dövrünə nisbətən 15,3 faiz, yəni 2,6 milyard kubmetr artımla qaz hasil edilib.

# Azərbaycanla Türkiyənin birgə layihəsi bütün Avropa məkanına fayda gətirir

## TANAP-ın istifadəyə verilməsinin 4 ili tamam olur




**2018-ci il mayın 29-da Bakıda, Səngəçal terminalında "Cənub qaz dəhlizi" istifadəyə veriləndən cəmi iki həftə sonra Türkiyədə, Əskişəhərdə TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) istismara daxil olması böyük nailiyyət idi. Bu mühüm hadisə Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən "Cənub qaz dəhlizi" layihəsinin uğurla tamamlanacağına zəmanət verirdi.**

Dəhlizin işə düşməsinə onun ilk iki seqmentinin yekunlaşması imkan yaratmışdı. Belə ki, "Şahdəniz" layihəsinin ikinci mərhələsi çərçivəsində artıq qaz əldə olunmuş və CQBK (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilmişdi. TANAP-ın tikintisinin başa çatması ilə üçüncü seqment istifadəyə verildi. Qarşıda yalnız TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) tamamlanması dayanırdı.

TANAP 2018-ci il iyunun 12-də Azərbaycan, Türkiyə, Serbiya, Ukrayna prezidentlərinin, Şimali Kipr xalqı liderinin və digər rəsmi şəxslərin iştirakı ilə istifadəyə verildi. Türkiyəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı vaxt - həmin il iyunun 30-da başlandı.

Fəaliyyətə başladığı vaxtdan indiyədək bu kəmərlə 29 milyard kubmetr Azərbaycan təbii qazı nəql olunub. Bu barədə cari il iyunun əvvəlində keçirilən Bakı Enerji Forumunda məlumat verilib. Bildirilib ki, həmin həcmin 6,8 milyard kubmetri bu il ixrac edilib. İlin yekununda TANAP-la 16 milyard kubmetr qazın ötürülməsi nəzərdə tutulub.

TANAP Azərbaycanla Tükiyənin birgə layihəsidir. Onun salnaməsi qısa olsa da, zəngin və maraqlıdır. Belə ki, layihə ilə bağlı Azərbaycan və Türkiyə arasında anlaşma memorandumu 2011-ci il dekabrın 24-də imzalanıb. Boru kəməri sisteminə dair sazişə isə 2012-ci il iyunun 26-da İstanbulda imza atılıb və sənəd hər iki ölkənin müvafiq qanunverici orqanları tərəfindən təsdiqlənib. Bununla da Azərbaycan və Türkiyə siyasi rəhbərliyinin fəaliyyəti nəticəsində TANAP-ın tikintisi ilə bağlı razılıq əldə edilib. Qazın uzunmüddətli sazişlər əsasında Avropa İttifaqı ölkələrinə ixrac edilməsi üçün mühüm danışıqlar aparılıb, TANAP-ın və TAP-ın inşasına dair sənədlər imzalanıb. 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda Azərbaycan, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə TANAP-ın təməli qoyulub. İstifadəyə verildiyi vaxtdan təxminən ilyarım sonra - 2019-cu il noyabrın 30-da TANAP-ın qazı Avropa sərhədinədək çatdıran ikinci fazasının çəkilişi yekunlaşıb.

TANAP-ın işə düşməsi mühüm tarixi hadisə kimi dəyərləndirilir. Çünki bu, Azərbaycanın təkcə neft diyarı deyil, həm də qaz ixrac edən ölkə olduğunu bir daha təsdiqlədi. TANAP Azərbaycan və Türkiyənin, hər iki ölkənin dövlət başçılarının birgə səyi nəticəsində gerçəkliyə çevrilən unikal layihə olduğuna görə, bu birliyi və qardaşlığı bir daha nümayiş etdirdi.

Prezident İlham Əliyev kəmərin əhəmiyyəti barədə belə demişdir: "TANAP-ın istismara verilməsi Türkiyə-Azərbaycan qardaşlığının növbəti təzahürüdür. TANAP Türkiyə ilə Azərbaycanın növbəti zəfəridir. TANAP tarixi layihədir. Bu gün biz XXI əsrin enerji tarixini birlikdə yazırıq. Bu tarix işbirliyi tarixidir, bu tarix sabitlik tarixidir. Enerji layihələrimiz bölgəmizə sabitlik gətirir. Bu layihələrdə iştirak edən bütün ölkələr, bütün şirkətlər fayda görür, xalqlar fayda görür".

TANAP təkcə region üçün deyil, Avropa məkanı üçün də mühüm əhəmiyyət daşıyır. Çünki o, Xəzərin sahilindən başlayaraq Adriatik dənizinin sahilinə, İtaliya torpağınadək uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ən böyük hissəsidir. Bu dəhlizi yaradan üç kəmərin ikincisi olması TANAP-ın dəyərini daha aydın əks etdirir. Belə ki, TANAP Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a qovuşur. Təsadüfi deyil ki, bu boru xəttini möhtəşəm "Cənub qaz dəhlizi"nin birləşdirici halqası, onurğa sütunu adlandırırlar.

TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir.

2019-cu il iyulun 1-dən etibarən TANAP Azərbaycan qazını TAP-a ötürmək üçün hazır vəziyyətə gətirilib. Həmin il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi keçirilib. Tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu kəmərin əhəmiyyətini belə vurğulayıb: "TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür. Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb".

Xatırladaq ki, TANAP-ın səhmlərinin 51 faizi "Cənub qaz dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi BOTAŞ-a, 12 faizi bp şirkətinə məxsusdur.

2020-ci il dekabrın 31-dən Azərbaycan qazı artıq Avropaya da nəql olunur. Qeyd olunduğu kimi, TAP kəməri bu qitəyə daşıdığı mavi yanacağı məhz TANAP-dan qəbul edir . Hazırda TANAP-ın mövcud ötürücülük qabiliyyəti 16 milyard kubmetrdir. Xatırladaq ki, ilkin mərhələdə kəmərin nəql etdyi bu həcmdə Azərbaycan qazının 10 milyard kubmetri Avropa, 6 milyard kubmetri isə Türkiyə üçün nəzərdə tutulub.

Zaman "Cənub qaz dəhlizi"nin genişləndirilməsinin vacibliyini gündəmə gətirib. Avropadakı istehlakçıların mavi yanacağa tələbatının artması ilə TAP-ın genişləndirilməsinə ehtiyac yaranıb. Bununla yanaşı, CQBK-nın və TANAP-ın genişləndirilməsi də gündəmə gəlir. Yəni Azərbaycan qazına tələbat çoxaldıqca onun nəqli ilə bağlı infrastrukturun potensial tələbatın səviyyəsinə gətirilməsi də zəruri məsələyə çevrilir. Azərbaycanın qaz hasilatı da artır. Yaxın gələcəkdə təkcə "Şahdəniz"dən deyil, işlənməkdə olan digər yeni yataqlardan alınacaq mavi yanacaq da ixrac ediləcək. Deməli, TANAP-ın əhəmiyyəti getdikcə artır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Postmüharibə dövründə şəhid ailələri və qazilərdən ibarət 93 min şəxsə 104 min sosial ödəniş təyin olunub

**Həmin vətəndaşların sosial ödənişlərlə təminatı sahəsində aparılan işlərə dair mətbuat konfransı keçirilib.**

44 günlük Vətən müharibəsində şəhid olan qəhrəmanlarımızın ailə üzvlərinin, müharibədə yaralanaraq əlilliyi müəyyən olunmuş hərbçilərin sosial ödənişlərlə təminatı istiqamətində müharibədən sonra elə ilk günlərdən müvafiq işlərə başlanıb.

Bunu Dövlət Sosial Müdafiə Fondunun sədri Himalay Məmişov postmüharibə dövründə şəhid ailələri və qazilərin sosial ödənişlərlə təminatı sahəsində aparılan işlərə dair keçirdiyi mətbuat konfransında bildirib.

Qeyd olunub ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin tapşırığı əsasında nazirlik tərəfindən şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı icra olunan sosial dəstək paketi çərçivəsində onların sosial ödənişlərlə təminatı da əsas fəaliyyət istiqamətlərindən biridir.

Müharibədən sonra bununla bağlı xüsusi işçi qrup yaradılıb, şəhidlərin ailələri ziyarət edilib, onlara sosial təminat hüquqlarına dair məlumatlar verilib.

Şəhid ailələrinin üzvlərinə, Vətən müharibəsində yaralanmış və müalicə bitdikdən sonra əlillik təyin edilmiş hərbi qulluqçulara onların müraciətinə, zəruri sənədləri təqdim etmələrinə ehtiyac olmadan e-sistem üzərindən proaktiv qaydada sosial ödənişlər (Prezidentin aylıq təqaüdü, pensiya və müavinət) təyin olunub.







"Müharibə veteranı" adı verilmiş şəxslərə də 2022-ci ilin əvvəlindən Prezidentin aylıq təqaüdünün təyinatı prosesi proaktiv qaydada həyata keçirilərək yekunlaşdırılıb.

Beləliklə, postmüharibə dövründə şəhid ailələrinin üzvləri və qazilərdən ibarət 93 min şəxsə 104 min sosial ödəniş təyinatı aparılıb.

2021-ci ilin əvvəlindən şəhid ailələri və müharibə əlillərinin, Milli Qəhrəmanların təqaüdləri, 2022-ci ilin əvvəlindən müavinətlər, o cümlədən əlilliyə görə müavinətlər orta hesabla 60 faiz artırılıb.

Postmüharibə dövründə Vətən Müharibəsi Qəhrəmanlarına Prezidentin aylıq təqaüdü, Vətən müharibəsinin veteranlarına Prezidentin aylıq təqaüdü təsis olunub.

H.Məmişov son 4 ildə köklü sosial islahatlar çərçivəsində şəhid ailələri və müharibə əlillərinin sosial ödənişlərində də ciddi artımlar olduğunu vurğulayıb, jurnalistlərin suallarını cavablandırıb.

## Ötən il Dövlət Neft Fondunun aktivləri 3,4 faizədək artıb

**Xam neftin orta illik xalis mədaxil qiymətinin Dövlət Neft Fondunun büdcəsində nəzərdə tutulmuş illik qiymətə nisbətdə 63,5 faiz artıq olması, vəsaitlərin idarə edilməsindən gəlirləri proqnoza nisbətdə 332,7 faiz çox icra edilməsi, eyni zamanda fondun hesabat ilində büdcədənkənar xərclərinin olması, büdcə xərclərinin isə 7 faiz az icrası nəticəsində fondun valyuta ehtiyatlarının ilin əvvəli ilə müqayisədə artmasına şərait yaradıb.**



Hesablama Palatasından AZƏRTAC-a bildirilib ki, 2021-ci il üzrə neftin qiymətinin proqnoza nisbətdə 25,4 ABŞ dolları artıq olması ilə bağlı mənfəət nefti və qazın satışından əlavə olaraq 3 milyard 208,9 milyon ABŞ dolları daxil olub. Eyni zamanda fondun valyuta aktivlərinin idarə edilməsindən proqnoza qarşı əlavə 1 milyard 486,98 milyon ABŞ dolları məbləğində vəsait daxil olub ki, bu da fondun büdcəsinin profisitlər icrasına və aktivlərin həcmində artıma gətirib çıxarıb. Belə ki, 2021-ci il dekabrın 31-nə fondun aktivləri ABŞ dolları ifadəsi ilə ilin əvvəlinə nisbətən 1 milyard 460,8 milyon ABŞ dolları və yaxud 3,4 faizə qədər artaraq, 45 milyard 25,1 milyon ABŞ dolları (75 milyard 972,3 milyon manat) təşkil edib.

## Azərbaycan neftinin bir bareli 128 dollardan baha satılır

**Azərbaycan neftinin qiyməti ucuzlaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 2,22 dollar azalaraq 128,93 dollar olub.**

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti martın 9-da (135,99) qeydə alınmışdı.



## AYİB ilə biznesin inkişafının dəstəklənməsi məsələləri müzakirə edilib

**Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB) ölkə nümayəndəliyinin rəhbəri Kamola Mahmudova ilə görüşüb.**

KOBİA-nın yaydığı məlumata görə, görüşdə agentlik və AYİB arasında texniki yardım layihəsi çərçivəsində uğurlu əməkdaşlıq qeyd olunub və bu əməkdaşlığın genişləndirilməsinə maraq ifadə edilib.

Görüşdə rəqəmsal və "yaşıl iqtisadiyyat", dövlət-özəl sektor tərəfdaşlığı sahələrində təşəbbüslərin dəstəklənməsi, KOB-ların maliyyələşdirilməsi imkanlarının genişləndirilməsi, AYİB-in müxtəlif proqram və layihələrində iştirak məsələlərinə dair fikir mübadiləsi aparılıb.




# Dirçəliş ünvanı - ŞUŞA

## Tarixi əzəmətini sürətlə bərpa edən Qarabağın tacı zəfərin və mədəniyyətin ünvanı kimi dünyaya səs salıb

**Qarabağın 270 illik əzəmətli tarixə malik büllur sarayı Şuşa gündən-günə dirçəlir, Qafqazın möcüzəvi şəhərinə çevrilir. Böyük qəhrəmanlıqla azadlığına qovuşdurulan Vətən qibləmiz indi də adına yaraşan şan-şöhrətini özünə qaytarır, beynəlxalq əhəmiyyətli tədbirlərə evsahibliyi edərək mədəniyyətin, barışığın, sülhün ismarıc məkanı zəfərin ünvanı kimi dünyaya səs salır.**

### "Hər gün inkişafla bağlı daha bir addım atılır"

Təsadüfi deyil ki, işğaldan azad edilmiş torpaqlar arasında ən genişmiqyaslı bərpa işləri də məhz mədəniyyət paytaxtımızda aparılmağa başlanılıb. Qarabağımızın baş tacında böyük quruculuq və bərpa işləri sürətlə davam edir. Qala şəhərimizdə həyata keçirilən bütün bu kompleks işlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa nəzarəti altında həyata keçirilir və dövlət başçısı Şuşaya mütəmadi səfərlər edərək görülən işlərin gedişatı ilə şəxsən tanış olur. Ötən il, işğaldan azad edilən torpaqlara 32 dəfə səfər edən Prezident İlham Əliyev, düz 7 dəfə yolunu Şuşa şəhərindən salıb. Cari ildə də bu müstəsna ənənə davam etdirilir və qalib lider İlham Əliyevin hər gəlişi zamanı Şuşanın necə möcüzəvi sürətlə dirçəldiyinin, simasını dəyişdiyinin, ruhunun özünə qaytarıldığının şahidi oluruq...

Bu il mayın 10-da növbəti dəfə Şuşaya səfər edərək həyata keçirilən işlərlə yerindəcə tanış olan Prezident İlham Əliyev mədəniyyət paytaxtımızdan etdiyi müraciətində də bildirdi ki, əslində, şəhərlər, kəndlər yenidən qurulur. Çünki işğal dövründə düşmən bütün şəhər və kəndlərimizi yerləyeksan etmişdir, bütün tarixi abidələrimizi dağıtmışdır, Qarabağın, bölgənin, Qafqazın incisi olan Şuşa kimi şəhəri bərbad hala salmışdır: "Biz - bu torpaqların sahibləri artıq qayıtmışıq və bu torpaq, bu səma bunu görür. Görür ki, hər gün inkişafla bağlı daha bir addım atılır. Hər gün daş üstə bir daş qoyulur. Biz azad edilmiş bütün torpaqları bərpa edəcəyik, bərpa edirik".

### Tarixlə müasirliyin qovuşduğu məkan

Qarabağın incisi Şuşanın baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Mədəniyyət paytaxtımızda həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur. Baş plan hazırlanarkən şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulub. Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Yaşayış massivində 25 binanın olacağı planlaşdırılır.

Vaxtilə Ulu Öndər Heydər Əliyevin abidələr şəhəri adlandırdığı qədim qalamızda 300 tarixi abidə, 550 qədim yaşayış binası, 870 metr uzunluğunda bərpa olunmuş qala divarları olub. Tarixi irsimizin daş yaddaşını özündə yaşadan Şuşada milli abidələrin çoxluğu, onların rəngarənglik baxımından fərqlənməsi, haqlı olaraq, şəhərin mədəniyyətimizin ən zəngin beşiyi adlandırılmasının səbəbidir. Mənfur düşmən Şuşadan milli ruhumuzu silmək üçün buradakı abidələrimizə də qənim kəsilmişdi, onları vandalizmə məruz qoymuşdu.

Amma şanlı Vətən müharibəsi sayəsində Şuşanı azadlığına qovuşduran Azərbaycan Ordusu vandal ermənilərin bu çirkin, alçaq niyyətlərini gözlərində qoydu.

### Heydər Əliyev Fondunun tarixi missiyası

Şuşanın erməni vəhşiliyinə məruz qalan tarixi, mədəni, dini abidələri də bərpa olunur, əvvəlki görkəminə qaytarılır. İşğaldan azad olunan bütün bölgələrdə olduğu kimi, Şuşada da bu istiqamətdə bərpa işlərinin böyük qismi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilir.

Fond tərəfindən bərpası həyata keçirilən belə binalardan biri milli memarlıq ənənələrini özündə əks etdirən Şirin su hamamıdır. Hamam ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısındadır və tarixi görkəmi qorunub saxlanılmaqla bərpa edilir.

Məşhur tarzən, bəstəkar və Azərbaycan tarını təkmilləşdirən sənətkar Sadıqcanın vaxtilə Şuşada yaşadığı ev də bərpa olunur. Şuşa şəhərinin mərkəzində, Mərdinli məhəlləsində yerləşən bina ilkin görkəmini 80 faizə qədər itirib. Binanın qalan hissələrində isə konstruktiv çatlar müşahidə olunur və qəza vəziyyətindədir.

O cümlədən də Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidləri Heydər Əliyev Fondu tərəfindən bərpa olunur. Hər üç məscidin memarı Kərbəlayi Səfixan Qarabağidir və bu məscidlər ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır. Şuşanı işğal altında saxladıqları dövrdə erməni barbarları bu məscidləri də vandalizmə məruz qoyublar. Ötən il Azərbaycan, Avstriya, İtaliya, Latviya və Türkiyədən olan ekspertlər tərəfindən bu məscidlərdə qiymətləndirmə işləri aparılıb, bərpa layihəsi işlənilib. Hazırda bu üç ölkə əhəmiyyətli abidədə yerli və xarici mütəxəssislərin iştirakı ilə bərpa-restavrasiya işləri davam etdirilir.

Şuşadakı mühüm mədəni-tarixi memarlıq abidələrindən olan Mehmandarovların malikanə kompleksində də bərpa işlərini Heydər Əliyev Fondu aparır. İşğal dövründə ciddi ziyan dəyən, ermənilər tərəfindən dağıntılara məruz qalan malikanə kompleksində mütəxəssislər qiymətləndirmə işləri aparıb, bunun əsasında bərpa prosesi icra olunur. Kompleksə məscid, kiçik və böyük yaşayış evləri daxildir.

Prezidentin Şuşa üzrə xüsusi nümayəndəsi Aydın Kərimov yerli mediaya verdiyi məlumatda bildirir ki, Mehmandarovlar malikanə-kompleksində işlər yaxın vaxtlarda yekunlaşacaq.

Göründüyü kimi, mədəniyyət paytaxtımızın tarixi simasının özünə qaytarılması üçün bu qədim yurdumuzda kompleks bərpa işləri həyata keçirilir. Şuşanın əvvəlki şan-şöhrəti özünə qaytarılır, doğma sakinlərinin əziz şəhərlərinə qovuşmaları üçün genişmiqyaslı quruculuq işləri görülür.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav Kilsəsinin nümayəndəsi ilə görüşüb

İyunun 11-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının sabiq Arxiyepiskopu Aleksandr İşeinin Birinci Fəxri xiyabanda məzarını ziyarət edib, önünə əklil qoyub və mərhumun ruhuna dualar oxuyub.



QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, daha sonra Qafqaz Müsəlmanları İdarəsində Rus Pravoslav Kilsəsinin rəsmisi ilə görüş keçirilib. Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının sabiq Arxiyepiskopu Aleksandr İşeinin vəfatının ildönümü münasibətilə Bakıya təşrif buyurmuş Pyatiqorsk və Çerkessk Arxiyepiskopu Feofilaktı qəbul edən QMİ sədri Şeyxülislam Allahşükür Paşazadə Aleksandr Atanın Azərbaycanda dinlərarası münasibətlərin, multikulturalizmin inkişafında, Azərbaycan və Rusiya arasında dostluq münasibətlərinin bərqərar olmasında rolundan, Azərbaycanda dinlərarası qardaşlıq və əməkdaşlıq mühitinə töhfələrindən danışıb. Qeyd edib ki, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının Arxiyepiskopu Aleksandr İşein 1998-ci ildə təsis edilmiş Bakı yeparxiyasının yepiskopu, 2012-ci ildən Arxiyepiskop statusunda ali din xadimi kimi səmərəli fəaliyyət göstərib, Azərbaycan cəmiyyətinin ehtiramını qazanıb, dövlətimizin ali mükafatları ilə təltif edilib.

Şeyxülislam A.Paşazadə Arxiyepiskop Aleksandrla qardaşlıq münasibətlərini yüksək dəyərləndirdiyini, onun Qafqaz Müsəlmanları İdarəsi ilə Rus Pravoslav Kilsəsi arasında dini-mənəvi əlaqələrin inkişafında böyük rolu olduğunu vurğulayıb. Moskva və bütün Rusiya patriarxı Kirilə salamlarını yetirən QMİ sədri ümidvar olduğunu bildirib ki, bu əlaqələr bundan sonra da davamlı inkişaf edəcəkdir.

Pyatiqorsk və Çerkessk Arxiyepiskopu Feofilakt, öz növbəsində, Şeyxülislam A.Paşazadəyə mərhum Arxiyepiskop Aleksandr həzrətlərinə hər zaman dəstək olduğuna görə təşəkkürlərini bildirərək, Rus Pravoslav Kilsəsində həmişə bu amili yüksək dəyərləndirdiklərini ifadə edib. Özünün Qafqaz bölgəsində fəaliyyət göstərdiyini vurğulayan Arxiyepiskop Feofilakt A.Paşazadəni Qafqazın ən böyük din xadimi kimi səciyyələndirib. O qeyd edib ki, dünyada xalqları düzgün yola yönəldən belə müdrik və məsuliyyətli din xadimlərinə böyük ehtiyac vardır.

Yeni nəşrlər

# Müstəqilliyin uğurlu salnaməsi

Azərbaycan Respublikasının son 30 ildə keçdiyi tarixi yolun tədqiqi və yazılması asan deyil. Burada tədqiqatçıdan tarixi faktlara düzgün yanaşmaq, müstəqilliyin fəlsəfəsinə bələd olmaq tələb edilir. Bu, həm də millətə dünən ilə bu gün arasındakı fərqi izah edən xidmətdir. Eyni zamanda bu o zaman faydalı olur ki, keçmişdə baş verənlər uydurmalar və təxəyyül məhsulları əsasında deyil, reallıqlar, tarixi faktlar, sənədlər əsasında təhlil və izah edilir.

Bu baxımdan Azərbaycanın müstəqillik dövrünün ən mürəkkəb tarixi-siyasi proseslərinə şahidlik etmiş Bakı Dövlət Universitetinin təşəbbüsü, rektoru Elçin Babayevin elmi məsləhətçiliyi ilə AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı tərəfindən yazılmış iki cilddən ibarət "Azərbaycan Respublikasının tarixi (1991-2021)" adlı fundamental əsəri həm tədqiqat, həm də yazılma peşəkarlığına görə müstəqilliyin uğurlu salnaməsi adlandırmaq olar. Əsərin elmi redaktoru tarix elmləri doktoru, professor İbrahim Zeynalovdur. 14 fəsildən ibarət olan birinci cilddə Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası ərəfəsində SSRİ-nin daxili və beynəlxalq vəziyyətinin ümumi mənzərəsi, sosializm sisteminin dağılmasının və soyuq müharibənin başa çatmasının nəticələri, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddialarının başlanması, Ermənistandan azərbaycanlıların vəhşicəsinə qovulması, Sumqayıt təxribatı, 1990-cı il 20 Yanvar hadisəsi, Ümumilli Lider Heydər Əliyevin sədrliyi ilə Naxçıvanda qəbul edilən qərarların əhəmiyyəti, Azərbaycan SSR-in adının və bayrağının dəyişdirilməsi kimi müstəqilliyin bərpasına qədərki mürəkkəb proseslər dərindən təhlil edilmişdir.

Kitabda Ermənistanın açıq hərbi təcavüzünün başlanması, Xocalı soyqırımı, Azərbaycan Respublikasının BMT-yə üzv qəbul edilməsi, ATƏT-in Minsk qrupunun yaradılması, müxtəlif ölkələr tərəfindən göstərilən real və qeyri-real vasitəçilik səyləri fonunda Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsi, 1992-ci ilin mayında silahlı çevriliş, Laçın və Kəlbəcər rayonlarının işğalı, ölkədə ümumi böhranın yaşanması, Yeni Azərbaycan Partiyasının yaradılması, BMT Təhlükəsizlik Şurasının Ermənistanın Azərbaycan ərazilərini işğal etməsi ilə bağlı qəbul etdiyi qətnamələrin əhəmiyyəti və s. məsələlərin aydın izahı hadisələrin baş verdiyi dövrün mənzərəsini göz önündə canlandırır. Müəllif baş verən hadisələri hansısa məhdud nəzəri yanaşmalar kontekstində deyil, müstəqil dövlətçiliyin məntiqi inkişafına diqqət yetirmişdir.

Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı, ölkədəki siyasi böhranın aradan qaldırılması üçün müdrik siyasi qərarların verilməsi, dövlət başçısının ilk xarici səfərləri, Bişkek protokolunun imzalanması, yeni neft strategiyasının müəyyənləşdirilməsi, "Əsrin müqaviləsi", 1994-cü və 1995-ci illərdə dövlət çevrilişi cəhdləri, Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsi, Milli Məclisə ilk seçkilərin keçirilməsi ilə bağlı məsələlər kitabın birinci cildinin yeddinci, səkkizinci və doqquzuncu fəsillərində əksini tapmışdır. Müəllif haqlı olaraq bu mərhələni ölkənin yeni inkişaf mərhələsi və geniş islahatlar dövrünün başlanğıcı kimi qiymətləndirmişdir.

Birinci cildin növbəti fəsillərində siyasi tariximizin digər mühüm məqamlarına - Avropa Şurası ilə əməkdaşlıq, həyata keçirilən islahatlar, ATƏT-in Minsk qrupu həmsədrlərinin təklifləri, 1998-ci ilin prezident seçkiləri, Avropa Şurasına tamhüquqlu üzv olmaq yolunda atılan addımlar, İlham Əliyevin rəhbərliyi altında Avropa Şurası Parlament Assambleyasında Azərbaycan diplomatiyasının çox mürəkkəb şəraitdə uğurlu fəaliyyətlərinə diqqət yetirilmişdir.

Kitabın 27 fəsildən ibarət olan II cildində isə XXI əsrin əvvəllərində Azərbaycan Respublikasının öz inkişafında yeni mərhələyə qədəm qoyması, beynəlxalq birliyin, aparıcı təşkilatların üzvlərindən birinə çevrilməsi, kosmos klubunun üzvü statusunu qazanması, beynəlxalq nəqliyyat yollarının kəsişdiyi, beynəlxalq tədbirlərin keçirildiyi mərkəzə çevrilməsi, Azərbaycanın işğal edilmiş ərazilərini azad etmək uğrunda Ermənistanın təxribatlarına cavab olaraq başlamış Vətən müharibəsi və onun nəticələri mötəbər tarixi sənədlər və qaynaqlar əsasında araşdırılmışdır. Müəllif bu cilddə də orjinal bir yol tutmuş, baş verən hadisələrin sistemli təhlili aparılmış, siyasi tariximizdə baş verənlərin, dövlət idarəçiliyində atılan addımların Azərbaycan Respublikasının müstəqilliyinə təsirləri tarixi-siyasi baxımdan qiymətləndirilmişdir. 2003-cü il 15 oktyabr prezident seçkiləri, 2005-ci ilin parlament seçkiləri, Bakı - Tbilisi - Qars dəmir yolunun reallaşdırılması prosesi tədqiq edilmişdir.

Azərbaycan Respublikasının ən yeni tarixində Heydər Əliyev Fondunun adı qızıl hərflərlə yazılmışdır. Əsərdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti geniş şəkildə əks olunmuşdur. İkinci cilddə Heydər Əliyev Fondunun yaradılması, başlıca məqsədləri və fəaliyyət istiqamətləri tədqiq edilmişdir. Burada habelə, 2008-ci ilin prezident seçkiləri, 2009-cu ilin Konstitusiya referendumu siyasi tariximizin mühüm hadisələri kimi öyrənilmişdir.

Kitabın növbəti fəsillərində Prezident İlham Əliyevin rəhbərliyi ilə formalaşan qüdrətli Azərbaycan Respublikasının regional və qlobal miqyasda birləşdirici güc amilinə çevrilməsi, türk dövlətləri və xalqları arasında əməkdaşlıqda yeni səhifələrin açılması, Azərbaycanın sivilizasiyalararası dialoq məkanına çevrilməsi, Azərbaycan Respublikasının BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvü seçilməsi məsələləri təhlil edilmişdir. Müəllif əsaslı olaraq qeyd edir ki, Prezident İlham Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan Respublikası dünya sivilizasiyalararası dialoqun keçirildiyi məkana çevrilmiş, dünyanın görkəmli din xadimləri Bakıda toplantılara qatılaraq fikir mübadiləsi aparmış və müxtəlif dini konfessiyalar üçün yaradılmış təcrübəni öyrənmişlər.

Müasir siyasi proseslərin dərindən tədqiq edildiyi əsərdə daim genişlənən dövlət idarəçiliyində yeniliklərin edilməsi məsələsinin öyrənilməsi də xüsusi istiqamətlərdən birini təşkil edir. 2013-cü ildən sonrakı mərhələdə siyasi və iqtisadi müstəqilliyin möhkəmləndirilməsi, "Cənub qaz dəhlizi"nin yaradılması, TAP və TANAP qaz boru kəmərləri, ölkədə keçirilən seçkilər, Azərbaycanın beynəlxalq idman oyunları mərkəzinə çevrilməsi kimi məsələlər əsərin ayrı-ayrı fəsillərində təhlil edilmişdir.

İkinci cilddə Ermənistan, erməni lobbisi və bu ölkəni dəstəkləyən güclər üzərində böyük qələbəyə gedən yolda islahatların daha da dərinləşdirilməsinin əhəmiyyəti aydın şəkildə izah edilmişdir. Burada dövlətin sütunlarının, ölkənin beynəlxalq mövqelərinin möhkəmləndirilməsi üçün atılan tarixi addımlar - 2016-cı il 26 sentyabr tarixli konstitusiya referendumu, Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin edilməsi, 2018-ci il növbədənkənar prezident seçkiləri, cümhuriyyətin 100 illiyinin bayram edilməsi, 2020-ci ilin növbədənkənar parlament seçkiləri müasir tarixin ən mühüm hadisələri kimi şərh olunmuşdur.

Əsərin dəyərini artıran məqamlardan biri də 2020-ci il noyabr zəfəri ilə bağlı qeydlərlə yekunlaşmasıdır. Kitabda vurğulanır ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında cəbhədə və diplomatiya sahəsində qazanılan Qarabağ zəfəri hazırda qardaş Türkiyə ilə birlikdə regional və beynəlxalq müstəvidə davam edir.

Hesab edirik ki, Azərbaycan Respublikasının 30 illik müstəqillik tarixini əks etdirən bu əsər həmin dövrün ən uğurlu salnaməsidir.

*İsmayıl HACIYEV,*
*AMEA Naxçıvan Bölməsinin sədri, akademik*

*Elnur KƏLBİZADƏ,*
*AMEA Qafqazşünaslıq İnstitutunun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent*




**"İşğaldan azad edilən ərazilərə səfərdə məqsəd dağıntılarla, eyni zamanda burada aparılan yenidənqurma işləri ilə tanış olmaqdır. Sizin bu qələbənizi təbrik edirik, hər zaman sizin yanınızdayıq".**

# *Paraqvaylı senator:* "Şuşa və Füzulidə gördüklərimiz barədə Paraqvay cəmiyyətinə məlumat verəcəyik"

Bu sözləri Şuşa şəhərində AZƏRTAC-ın bölgə müxbirinə müsahibəsində Paraqvay Senatında Paraqvay-Azərbaycan dostluq qrupunun rəhbəri Lukas Akino Xara deyib.

Lukas Akino Xara Azərbaycanın həqiqətlərini həmişə dəstəklədiklərini bildirib: "Biz parlamentimiz vasitəsilə hər zaman Azərbaycanın haqq işini dəstəkləməyə hazırıq. Bu, bizim Azərbaycana ilk dəstəyimiz deyil. Biz hər zaman Azərbaycana beynəlxalq səviyyədə dəstək olmuşuq. Bundan sonra da hər zaman Azərbaycana dəstəyimizi verəcəyik. Biz parlament səviyyəsində Xocalı soyqırımını tanımışıq. Bu gün Şuşaya səfərimizin məqsədi mədəniyyət beşiyi olan bu şəhərin gözəlliyini görmək və erməni işğalı zamanı Şuşaya dəyən ziyanın şahidi olmaqdır. Bu həqiqəti Paraqvay cəmiyyətinə çatdıracağıq. Füzuli şəhərinə gəlincə, müqayisə üçün deyim ki, Paraqvay tarixində də oxşar məqamlar olub. İşğal, soyqırımı məsələsi bizə çox tanışdır. Füzuli şəhərində də olduğumuz müddətdə dağıntıları, vandalizmi gördük. Bu barədə Paraqvay ictimaiyyətinə məlumat verəcəyik".

◆ Jurnalist araşdırması

# "Yaşıl inqilab"ın avtomobili

## Dünya elektromobilə keçir, bizdə isə...



**- Əşi, nəyinə lazımdır o maşın?.. Sənə lazımdırmı ki, saatlarla vaxtın getsin?!**
**Durub 3 saat enerjiyığma aparatının qabağında gözləyəcəksən, buna gərək varmı?**
**Gəl sən mənə qulaq as, ən yaxşısı dizeldir, bir çəni doldurdun, günlərlə gəz-dolan hər yeri…**

"Elektromobil almazdan əvvəl kimdən soruşurdumsa, dost-tanışdan ancaq belə məsləhətlər eşidirdim. Demək olar ki, hamı buna qarşı çıxırdı. Sonradan başa düşdüm ki, bu insanlar fikirlərindən çəkinərək, əslində, elektrikli maşınların nə qədər üstünlükləri olduğunu anlamaq istəmirlər".

Yanacaqla işləyən avtomobilini elektromobilə dəyişən Bakı şəhər sakini İlqar Zalıyev artıq bir ildən çoxdur ki, yeni tendensiyaya qoşulanlardandır. Bu müddət ərzində isə elektromobilin idarəçiliyindən, işləmə tempindən razı qaldığını bildirir. Tək narahatçılığı bölgələrə səfərlə bağlıdır. Çünki hələlik rayonlarda elektromobilin ererji toplanması məntəqələri mövcud deyil. Paytaxtda isə çox rahat şəkildə hərəkət etmək olur.

### Yeni əsrin modern texnologiyası

Elektromobillərin istehsalı və istifadəsi dünyanın hazırda ən böyük problemlərindən olan ekoloji çirklənmənin qarşısını almaq üçün atmosfer qatının mühafizəsi ilə bağlı optimal addımlardandır. Dünya ölkələri qarşıdakı illərdə daxiliyanma mühərrikli avtomobilləri tamamilə istismardan çıxarmaq və ətraf mühitə əlverişli elektromobillərin istifadəsi üçün qəbul etdikləri proqramlarla bir sıra məhdudiyyətlər tətbiq edəcəklər.

Hazırda ən yüksək pillədə Norveç dayanır. Burada 2025-ci ilə qədər daxiliyanma mühərrikli avtomobillərin satışının qadağan edilməsi ilə bağlı plan hazırlanıb. Böyük Britaniya, Danimarka, İsveç, İslandiya, Hollandiya, Sloveniya, İrlandiya və sairə kimi ölkələr isə "yaşıl inqilab"a keçidi 2030-cu ilə hədəfləyiblər. Bütün bu planlar yanacaqlı avtomobillərin istehsalını dayandırmaq üçün nəzərdə tutulub.

Bu istiqamətdə dünya sıralamasına nəzər saldıqda Norveçin təkcə hədəflərinin yox, eləcə də statistika baxımından da öndə olduğu aşkar görünür. Belə ki, bu ölkə dünyada adambaşına düşən elektrikli avtomobillərin sayına görə də birinci yerdədir. Aylıq satışların təxminən 65 faizini elektromobillər təşkil edir. Həmçinin hökumət vətəndaşların belə avtomobillərə marağının artırılması məqsədilə bir sıra güzəştlər də tətbiq edib. Elektromobil sürücüləri avtomobil vergisindən azad edilir, ödənişli yollarda pulsuz hərəkət etmək imkanına sahib olur, alış qiymətlərində endirim və yarı qiymətə parkinq xidmətlərindən istifadə edə bilərlər. Növbəti ikinci və üçüncü pilləyə ABŞ və İslandiya başçılıq edirlər. Bu ölkələrdə də elektromobil idarəçiləri üçün xeyli güzəştlər tətbiq edilir. Çin isə dünyanın ən böyük elektromobil istehsalı bazarına sahibdir.

### Elektromobillərin gömrük rüsumundan azad olunması hələ təklif olaraq qalır

Ölkəmizə gəldikdə, elektromobillərdən istifadə yönündə vəziyyət elə də qənaətbəxş deyil. Onların sayı olduqca az, əhalinin rəyi mənfi, istismara şərait isə məhdudiyyətlidir.

Statistikaya əsasən, ölkəmizdə istismarda olan avtomobillərin 80 faizindən çoxunun yaşı 10 ildən çoxdur, ekoloji təmiz nəqliyyat vasitələrinin faizi isə çox azdır. Bütün bunlar nəzərə alınaraq qabaqcıl beynəlxalq təcrübəyə uyğun ölkəmizdə də ekoloji təmiz elektrik və hibrid avtomobilləri və onların istifadəsi üçün zəruri olan enerji doldurucularına bir sıra maliyyə güzəştləri tətbiq edilməyə başlanıb. Bu barədə ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə məlumat verib.

Azərbaycana gətirilən elektrikli avtomobillərin statistikasına gəldikdə isə, Dövlət Gömrük Komitəsindən aldığımız məlumata əsaslanıb deyə bilərik ki, cari ilin 5 ayı ərzində ölkəyə 130 ədəd elektrik mühərrikli nəqliyyat vasitəsi idxal olunub. Ötən ilin eyni dövründə isə idxalın sayı cəmi 29 ədəd idi. Ümumilikdə, 2021-ci il ərzində gətirilən bu tip avtomobillərin sayı 160 ədəd təşkil edib.

Onu da deyək ki, 2019-cu ildən yalnız elektrik mühərriki ilə işləyən nəqliyyat vasitələri idxal zamanı ƏDV-dən azad olunub. Bununla yanaşı, 2021-ci ildə qəbul edilən qərara əsasən, ölkə ərazisində belə avtomobillərin satışı zamanı 18 faizlik əlavə dəyər vergisi də ödənilmir. Dövlət Gömrük Komitəsi onu da qeyd edir ki, belə avtomobillərin idxalı üçün tələbatı artırmaq məqsədilə elektromobillərin gömrük rüsumundan azad olunması ilə bağlı təkliflər irəli sürülüb.

Deyilənlərdən də görünür ki, gömrük rüsumunun ödənilməməsi də tətbiq edilərsə, elektromobillərin idxalı olduqca sərfəli olacaq.

### Korlanmış təbiəti qorumağa cəhd, həyat tərzi və ya xərcə qənaət...

Lakin bu zaman sual yaranır, elektrik avtomobilini idarə etmək üçün ölkəmizdə vəziyyət necədir?

"BMW i3"ə sahib İlqar Zalıyev bildirir ki, belə maşınların istifadəsi ənənəvi avtomobillərdən olduqca sərfəlidir və xərcləri yarı-yarıya endirir: "Yanacaq olmadığından motor yağını, benzin nasosu və s. dəyişdirməyə ehtiyac qalmır. Ancaq mən bu minik vasitəsindən təkcə şəhər daxilində istifadə edirəm. 150 kilometrlik tam şarj gücünə malik avtomobillə paytaxtdan kənar səyahətlər etmək çox çətindir. Bölgələrdə məntəqələrin çox az sayda, hətta deyərdim ki, yox həddə olması işləri qəlizləşdirir".

Radio aparıcısı, avto və texno bloqçu Tural Yusifov da elektromobil istifadəçilərindəndir. O da qeyd edir ki, elektrik avtomobilinin anlamı korlanmış təbiəti qorumağa cəhddir. "Mənim üçün elektromobil həyat tərzi və seçdiyim sağlam həyat yolunda əhəmiyyətli bir elementdir. Elektrik avtomobillərinin batareyası təbiətə atılmır. Həmçinin, onlar 100 faiz təkrar emal materiallarından hazırlanır, bərpaedilən enerji ilə təmin edilmiş fabriklərdə yığılır". Həftəlik xərcinin isə yükləmə mərkəzlərində maksimum 10 manat olduğunu deyən aparıcı əlavə edir ki, evdə sarj etmək hər kilovata görə 0.08 manat təşkil edir.

### Yarım saatlıq enerjidoldurma 3.50 AZN, bir saata isə 5 AZN təşkil edir

Göründüyü kimi, elektromobil idarə edənlərin əksəriyyətinin şikayəti qida qurğusu (elektrikdoldurma) məntəqələrinin sayının azlığı ilə bağlıdır. Bunu da araşdırdıq və bəlli oldu ki, ölkə ərazisində yalnız 2 məşhur yanacaqdoldurma məntəqəsində quraşdırılan şarj avadanlıqları mövcuddur. Ümumilikdə isə paytaxda 14 qida qurğusu aparatı var.

Bölgələrdə isə cəmi bir neçə ərazidə - Sumqayıt, Şamaxı, Kürdəmir, Salyanda qida qurğusu mövcuddur. Yarım saatlıq sarj müddətində 3.50 AZN, bir saatlıq müddətdə isə 5 və ya 5.70 AZN ödəyərək qida qurğusundan elektrik alınır. Bölgələrdəki vəziyyətlə bağlı yanacaqdoldurma məntəqələri onu da bildirirlər ki, sarj avadanlıqlarının sayının azlığı və fəaliyyətsizliyi regionlarda elektromobillərin olmaması ilə əlaqədardır. Tələbat çox olduğu zaman bunun sayı da artırılacaq.

Yanacaqdoldurma məntəqələrində quraşdırılan sürətli sarj qurğularından əlavə bəzi ticarət mərkəzlərində və hipermarketlərin dayanacaqlarında da ödənişsiz 220 gərginlikli bir neçə sarj məntəqəsinə rast gəlinir. Lakin doldurulma sürəti zəif olan belə yerlərdən yalnız həmin məkanlara gediləndə, paralel zaman kəsiyində istifadə məqsədəuyğundur. Bunlarla yanaşı, 220 voltluq enerji gərginliyi olan istənilən yerdə də (evdə, işdə və s.) akkumulyator şarj edilə bilər. Bu zaman sürətli sarj məntəqələrində 30-60 dəqiqəlik müddəti təşkil edəcək tam yüklənmə (marka və modeldən asılı olaraq) təxminən 10-12 saata başa gələ bilər.

Yeri gəlmişkən, sürətli sarj avadanlıqlarının tapılmasında köməyə "PlugShare" mobil tətbiqi gəlir. Belə ki, bu tətbiqlə beynəlxalq müstəvidə, eləcə də Azərbaycanda mövcud olan enerjidoldurma məntəqələrinin xəritə üzərində siyahısını asanlıqla tapmaq mümkündür.

### Proqram və təbliğatlarla uğurlu cəhdlər edilə bilər

Azərbaycandakı elektromobillərlə bağlı hazırkı durumu şərh edən yol hərəkəti üzrə ekspert Ərşad Hüseynov qəzetimizə bildirir ki, dünyada elektrikli avtomobillərə keçid sürətli şəkildə planlaşdırılsa da, ölkəmizdə konkret belə hədəflər yoxdur. Ancaq "Yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda yer alan müddəalardan biri də ekoloji cəhətdən daha təhlükəsiz, ətraf mühitə az zərərli nəqliyyat vasitələrinin, xüsusilə də elektromobillərin Azərbaycanda stimullaşdırılması üçün tədbirlərin görülməsi ilə bağlıdır: "Bunların həyata keçirilməsi üçün müvafiq dövlət qurumlarının qarşısına vəzifələr qoyulub. İndiki əsas iş, elektromobillərin Azərbaycana gətirilməsi zamanı güzəştlərin tətbiqindən ibarətdir".

Ekspert qeyd edir ki, başlıca təbliğat ilk olaraq əhali arasında aparılmalıdır. Elektromobillərlə bağlı dolğun, maarifləndirmə tədbirlərinin təşkili yönündə bu sahəyə aid olan şəxslər öz üzərinə düşəni etməlidirlər. Əhaliyə aşılanmalıdır ki, elektromobillər daha təhlükəsiz, daha rahat və daha əlverişlidir.

Ekspert bu sahənin əsas 3 probleminə toxunaraq deyir ki, belə avtomobillər bazarda ilkin vaxtlarda mövcud olan zaman yeni texnologiya əsasında hazırlandığı üçün qiymətləri olduqca baha idi.

İkinci əl elektromobillərin dövriyyəsinin olmaması isə orta və aşağı təbəqələr üçün əlçatımlılığı qeyri-mümkün edirdi. Ancaq dünya bazarlarında artıq işlənmiş elektrikli avtomobillərin alqı-satqısı genişlənib. Digər bir məqam avtomobillərin enerji ilə təminatıdır. Dünya ölkələrində on minlərlə enerji qurğuları quraşdırıldığı halda, Azərbaycanda bunun şəbəkəsi çox az həddədir. Üçüncü olaraq isə elektromobillərə qulluq prosesləridir ki, bu sahədə də ixtisaslaşmaya ehtiyac var. Mütəxəssis hesab edir ki, bu 3 istiqamətdə daim müvafiq işlər görülərsə, Azərbaycanda elektromobillərin istifadə çəkisi dünyadan geri qalmayacaq.

Son olaraq, Ərşad Hüseynov utilizasiyası ilə bağlı dövlət proqramının hazırlanmasının zəruriliyini qeyd edərək deyir ki, bu yolla elektrikli avtomobillərə böyük maraq yaratmaq olar: "Utilizasiya prosesi çərçivəsində hazırda dövriyyədə olan istismara yararsız avtomobillər müəyyən şərtlər daxilində sahiblərindən götürülə bilər. Bununla da, onlara təqdim olunan müvafiq məbləğdə yardım və ya subsidiya ilə daha təhlükəsiz elektromobillərin alınmasına şərait yaradıla bilər. Bu da belə maşınların populyarlaşmasına kömək edər. Yaxşı olar ki, bu yöndə qərarlar daha tez hazırlansın".

### Ölkədə atmosferi 84 faiz çirkləndirən nəqliyyat vasitələridir

Daxiliyanma mühərrikli avtomobillərin atmosferə həddindən artıq ziyan vurduğu və bunun nəticəsində baş verən ekoloji dəyişikliklər hər kəsə bəllidir. Bununla bağlı söhbətimizi AMEA-nın müxbir üzvi, kimya elmləri doktoru, professor İslam Mustafayevlə davam etdiririk.

Mütəxəssis qeyd edir ki, yanacaq mühərrikləri işə düşərkən ətraf mühitə karbon dioksid, azot oksid və digər zəhərli qazlar xaric edilir. Bu zaman "parnik effetki" deyilən hal müşahidə edilir. Parnik effekti yerdəki bəzi qazların konsentrasiyasının artması səbəbindən meydana gələn Yer atmosferinin aşağı təbəqələrinin istiləşməsidir. Bununla da Günəş şüaları planetin səthini qızdırır, nəticədə Yerin istiliyi artır.

İndiki dövrdə hökm sürən, gələcək vaxtlarda daha da kəskinləşməsi ehtimal olunan qlobal iqlim dəyişikliklərinin səbəbi də məhz çirklənən hava təbəqəsidir. İslam Mustafayev bildirir ki, Azərbaycanda hazırda atmosferin çirklənməsinin 84 faizi avtomobil nəqliyyatı ilə bağlıdır: "Bu olduqca böyük rəqəmdir. Əgər əlimizdə bu faizi azaltmaq üçün belə bir fürsət varsa, mütləq ondan yararlanmalıyıq. Məsələn, 30 faiz yanacaqlı avtomobilləri elektromobilə keçirə biləriksə, müvafiq faizlə də zəhərli qaz hasilatını azaltmış olacağıq".

Faydaları ilə bağlı məsələlərdən əlavə elektromobillər haqda tənqidi fikirlər də insanlarda çaşqınlıq yaradır. Bu zaman düşünülür ki, əgər elektriklə hərəkətə gətirilən nəqliyyat vasitələri də zərərlidirsə, o zaman nə üçün ona keçid edilməlidir?

Bu yöndə isə suallarımızı ekologiya və təbii sərvətlər nazirinin müşaviri Rasim Səttarzadə cavablandırdı. O vurğuladı ki, əgər elektrikli avtomobillər üçün nəzərdə tutulan enerji alternativ enerji ilə (günəş panelləri, külək generatorları və s.) təmin edilirsə, burada heç bir kəskin münasibətdən söhbət gedə bilməz. Digər tərəfdən, utilizasiya və s. prosesləri ilə bağlı məqamlar gündəmə gətirilirsə, hər halda buna bir neçə zərərli təsirin içindən diferensial yanaşılmalıdır. Müşavir söyləyir ki, əgər elektrikli mühərriklərin istifadəsi zamanı ətraf mühitə mənfi təsir daha azdırsa, hökmən ən optimal variant olaraq bu seçilməlidir: "Hazırda insan Yer kürəsinə az qala aldığı nəfəslə belə zərər yetirmək yönündə addımlayır. Vurduğumuz ziyanların miqdarını minimallaşdırmaq hər kəsin yaşantısı üçün öz müsbət təsirini göstərə bilər. Bu proseslərdə isə bizim üzərimizə düşən vəzifə ən uyğun variantdan istifadədir".

Bəşəriyyətin problemləri bitib-tükənmir. Əhalinin sayı və komfortlu yaşam istəyi artdıqca, sanki planet insanlığa tab gətirə bilmir. Okeanlara atılan tullantılar, atmosferə vurulan zərərlər, əlqərəz, bəşəri sağlamlığı təhdid altına alan, istənilən vəziyyət sabahımızın təhlükəsini bizə bir addım daha yaxınlaşdırır. Ümumdünya Səhiyyə Təşkilatı qeyd edir ki, bu gün dünya əhalisinin 99 faizi həddindən artıq normadan aşağı səviyyədə olan hava ilə nəfəs alır. Əgər bu prosesi dəyişdirmək üçün əlimizdə qismən şans varsa, öhdəliyimizə əməl etməkdən boyun qaçırmamalıyıq.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# Çimərlik mövsümü çimərliksiz başlayır

## Yayın əsas sərinlik mənbələrinin çoxu təhlükə yayır




İyunun 15-dən Azərbaycanda çimərlik mövsümü başlayır. Yay mövsümündə əhalinin əsas üz tutduğu yerlərdən olan çimərliklər pandemiya dövründə ya bağlı qaldı, ya da ki, müəyyən qaydalar çərçivəsində işlədi. Bu il isə xəstəliyin səngiməsi səbəbindən çimərliklər yenidən insanları coşqu ilə qoynuna alacaq.

Təbii ki, yay aylarında paytaxt əhalisinin əsas istirahət məkanına çevrilən çimərliklərin təmizliyi, sanitar-gigiyenik normalara cavab verməsi, dəniz suyunun çirkli olmaması, təhlükəsizlik qaydaları, çimərlik ərazilərində xidmətin keyfiyyəti əsas faktorlardan hesab edilir. Elə bu məqsədlə hər il olduğu kimi, bu il də Bakı Şəhər İcra Hakimiyyəti çimərlik ərazilərinin təmizlənməsi ilə bağlı müvafiq qurumlara tapşırıqlar verib. Eyni zamanda Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Xəzər Kompleks Ekoloji Monitorinq İdarəsi mayın 16-dan etibarən Bakı və Sumqayıt şəhərləri ərazisində yerləşən çimərliklərin sanitariya vəziyyətinin müayinəsi və dəniz suyunun keyfiyyət göstəricilərinin laboratoriya tədqiqat üsullarının monitorinqlərini keçirib.

### Bəzi ərazilərdə intensiv çirklənmə halları hələ də davam edir

Yay mövsümünə hazırlıqla əlaqədar olaraq aparılan müayinələrin nəticələrinə görə, Mərdəkan, Şüvəlan, Novxanı, Buzovna, Zaqulba, Nardaran çimərliklərində dəniz suyunun fiziki-kimyəvi, bakterioloji göstəricilərinin norma səviyyəsində olduğu aşkarlanıb.

Aparılmış monitorinqlər zamanı Səbail rayonunun Şıx, Qaradağ rayonunun Sahil çimərliklərinin sanitariya-mühafizə zonalarında dənizin tullantı çirkab suları ilə intensiv çirklənmə hallarının hələ də davam etdiyi müəyyənləşdirilib. Nəticədə qeyd olunan çimərliklərin suyunda mikrobioloji çirklənmə göstəriciləri normadan çox olub. Həmçinin Suraxanı rayonu Hövsan, Xəzər rayonu Türkan çimərliklərinin sanitariya-mühafizə zonalarına buraxılan tullantı çirkab suları ilə çirkləndirilməsi səbəbindən dəniz suyunun mikrobioloji çirklənmə göstəricilərinin mövcud normativlərin tələblərinə cavab vermədiyi məlum olub. Aparılmış laborator müayinə nəticələrinə əsasən, Pirşağı çimərliyinin suyunun mikrobioloji çirklənmə göstəriciləri də sanitariya norma və qaydalarının tələblərinə cavab verməyib. Sumqayıt şəhər çimərliyinə gəlincə isə, laboratoriya müayinəsinə götürülmüş dəniz suyu nümunələrində mikrobioloji çirklənmə göstəricisi olan bağırsaq çöpləri qrupu bakteriyalarının sayı normadan çox olub.

2022-ci il ərzində çimərlik mövsümündə mövcud vəziyyətin əhalinin sağlamlığı üçün ciddi təhlükə törətdiyini, əhali arasında yoluxucu xəstəliklərin baş verməsi və yayılması təhlükəsini nəzərə alaraq, "Sanitariya-Epidemioloji Salamatlıq haqqında" Qanuna əsasən, Səbail rayonu Şıx, Qaradağ rayonu Sahil, Suraxanı rayonu Hövsan, Xəzər rayonu Türkan, Sabunçu rayonu Pirşağı çimərliklərinin və göstərilən ərazilərdə qeyri-qanuni çimərlik sahələrinin çimərlik kimi istifadəsinin müvəqqəti olaraq qadağan edilməsi barədə Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin müvafiq qərarları qüvvədə saxlanılıb, həmçinin Sumqayıt şəhər çimərliyinin çimərlik kimi istifadəsinin müvəqqəti olaraq qadağan edilməsi barədə qərar qəbul edilib.

### İctimai çimərliklərdə təmizlik-abadlıq işləri aparılıb

Bakı Şəhər İcra Hakimiyyətindən qəzetimizə bildirilib ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə Bakı şəhərinin sahil kənarı ərazilərində yaradılan ictimai çimərliklərdə mövsümə hazırlıq işləri başa çatıb.

4 ildir ki, Abşeron yarımadasının Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində, Səbail rayonunda Şıx çimərlik ərazisində - ümumilikdə 6 yerdə fəaliyyət göstərən bu çimərliklər şəhər sakinlərinin Leyla Əliyevaya müraciətlərindən sonra paytaxtın dənizkənarı ərazilərində yerləşən özəl istirahət mərkəzlərinə və çimərliklərə alternativ olaraq yaradılıb. Burada yaradılan şərait və başlıcası isə pulsuz xidmət göstərilməsi Bakı sakinləri və qonaqların böyük rəğbətini qazanıb.

Mövsüm ərəfəsində ictimai çimərliklərdə lazımi təmizlik-abadlıq işləri aparılıb. Qış ərzində dəniz sahilinə yığılan tullantılar, həmçinin dalğaların sahilə atdığı müxtəlif əşyalar yığışdırılır, digər təmizlik işləri görülür. Çimərliklərdəki inventarlar, günlüklər, söhbətgahlar, sanitariya qovşaqları və duşlar yoxlanılır, təmir işləri aparılır. Eyni zamanda rəsmi çimərlik olmayan ərazilər də nəzarətdən kənarda qalmayacaqlar. Rayon icra hakimiyyətləri, kommunal xidmətlər bu ərazilərin təmizliyini diqqətdə saxlayacaqlar. İctimai çimərliklərdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, həmçinin tibb məntəqələri yaradılır.

### Dənizdə təhlükəsizlik qaydaları ilə bağlı tövsiyələr

Fövqəladə Hallar Nazirliyinin (FHN) Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat şöbəsinin rəisi, daxili xidmət mayoru Aqşin Əlili qəzetimizə çimərlik mövsümü ilə əlaqədar təhlükəsizlik qaydalarından və xidmət tərəfindən aparılan işlər barədə məlumat verib: "Xidmətin ümumilikdə 44 struktur bölməsi var və burada çalışan dalğıc və xilasedicilər peşəkar şəxslərdir. Çimərlik mövsümünə hazırlıqla əlaqədar olaraq əməkdaşlara ixtisasartırma kursları keçirilib, onlara xilasetmə üsulları ilə yanaşı, həkimə qədərki ilkin tibbi yardım vərdişləri də öyrədilib. Onun sözlərinə görə, çimərliklər 200 metrdən az məsafədə təşkil olunmamalı, hər 50 metrdə bir xilasedici olmalıdır. Təhlükəsizlik baxımından çimərliklərdən istifadə səhər 09:00-dan axşam 20:00-a qədərdir. Hava qaraldıqdan sonra suya daxil olmaq təhlükəlidir, çünki bu zaman suda görüntü olmadığından üzmə sərhədlərini müşahidə etmək olmur. Dənizdə nişanlar qoyulan ərazini keçmək olmaz. Axtarış zamanı qayıqlardan, kiçikhəcmli gəmilərdən də istifadə olunur, amma kiçikhəcmli gəmilərin də qaranlıqda suya daxil olması qadağandır".

Aqşin Əlili təhlükəsizlik baxımından vətəndaşlara nəzarətsiz çimərliklərdən istifadə etməməsini tövsiyə edir. Hansı çimərlikdə xilasedici yoxdursa, deməli, həmin ərazidə təhlükəsizlik tədbirləri görülməyib və üzmək üçün təhlükəli yerdir. Nəzarət olunan, o cümlədən ictimai çimərliklərdə isə üzmə sərhədlərini müəyyən edən 1.75 metr dərinlikdə nişanlar qoyulur ki, onları keçmək olmaz. Həmçinin spirtli içkidən istifadə edib dənizə daxil olmaq, küləkli havada suya girmək təhlükəlidir. Xidmət mayoru vurğulayır ki, qaydalara görə, küləyin sürəti saniyədə 10 metrdən artıqdırsa, dənizdə çimmək olmaz. Ərazidə quraşdırılmış maarifləndirici lövhələrin üzərində yazılan tələblərə, xilasedicilərin göstərişinə əməl etmək lazımdır. Uşaqlar çimərlikdən yalnız böyüklərin müşayiəti ilə istifadə etməli və çimərlik ərazisinə nəzarətsiz buraxılmamalıdırlar. Hər hansı təhlükə baş verdikdə isə mütləq "112" qaynar xəttinə zəng vurmaq lazımdır.

### Çimərlik mövsümü ilə əlaqədar sualtı baxışlar keçirilib

Statistikaya əsasən, hətta təcrübəli xilasedicilərin belə nəzarətsiz ərazilərdə boğulduğu qeydə alınır. Nəzarətsiz ərazilərdə boğulmanın bir neçə səbəbi var. Bunlardan biri su altında daş, qaya, digər yad cisimlərin insanları zədələməsi, qəfləti dərinliklər, qıcolma, çuxurlar və ən əsası sualtı axınlardır.

Şöbə rəisi deyir ki, suda üzərkən quruya doğru çıxmağa çalışan şəxs sahilə çata bilməyib dənizə doğru hərəkət etdiyini hiss edirsə, demək, bu zaman o, su axınına düşmüş olur. Su axınına düşdükdə isə diqqət etməli bəzi məqamlar var: "Belə vəziyyətdə ilk növbədə panikaya düşməməli və axına qarşı deyil, sahilə paralel olaraq hərəkət edilməlidir. Çünki axın insanı suyun altına çəkmir, axın bir o qədər dərin hissələrdə olmur. Maksimum dərəcədə güc toplayaraq sahilə paralel 5-10 metr məsafədə üzərək axından çıxmaq olar".

Nəzarət olunan çimərliklərdə mövsümqabağı dalğıclar vasitəsilə sualtı baxışlar da keçirilir. Bu zaman daş, qaya parçaları təmizlənir, çuxur, yarğanlar, təbii proseslər nəticəsində yaranan digər təhlükəli amillər vaxtında aşkar edilərək qadağanedici nişanlar qoyulur. Eyni zamanda sualtı axınlar da vaxtında aşkarlanır.

Aqşin Əlili bildirir ki, məhz təhlükəsizlik tədbirləri nəticəsində ötən il suda boğulma faktı ilə üzləşən 227 şəxs xilasedicilər tərəfindən qurtulub. Nəzarət olunan ərazilərdə ölümlə nəticələnən bədbəxt hadisə də baş verməyib.

### Nəzarətsiz çimərliklərdən istifadə təhlükəlidir

Yay mövsümünü kiçikdən-böyüyə hər kəsin səbirsizliklə gözlədiyi bəllidir. Xüsusən bu aylarda insanlar istirahətə önəm verir, yayın qızmar istilərində dənizə girərək sərinlənir və çimərliklərdə asudə vaxt keçirirlər.

Əyləncə və istirahətimizin xoş bitməsi üçün təhlükəsizliyimiz çox önəmlidir. Buna görə nəzarətsiz çimərliklərdən istifadə etməməli, eyni zamanda dəniz suyunda mikrobioloji çirklənmə səviyyəsi yüksək olan ərazilərə üz tutmamalıyıq. Həmin ərazilərdə dənizə baş vurmaq insanlarda müxtəlif infeksiyaların yaranmasına səbəb olaraq sağlamlığınıza ciddi ziyan vura, müxtəlif xəstəliklərin yaranmasına gətirib çıxara bilər. Qadağan olunan, nəzarətsiz çimərliklərdə suya girmək həyatınız bahasına başa gələ bilər. Odur ki, diqqətli olun.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Dünya olduğu kimi

# Hisslərin ən gözəl ifadəsi

**İnsan psixologiyasına təsir edən, zövq oxşayan, insanı müxtəlif əhvali-ruhiyyəyə salan, hisslərin ən gözəl ifadəsi, incəsənət növü musiqidir. Musiqi yunan mənşəli söz olub, "mousa" və "ike" sözlərindən əmələ gəlib. Yunan mifologiyasına görə, tanrı Zevsin qızları olaraq bilinən doqquz ilahəyə "Mousa-Muse-Mələk" deyilir. Yunanca "ike, ika" hissəciyi isə sözlərin sonuna artırılaraq, "danışılan dil" anlamına gəlir.**

### *İlk musiqilər - insanı valeh edən təbiət səsləri*

Musiqinin yaranması ilə bağlı müxtəlif mülahizələr var. Bəzi məlumatlara görə, ilk musiqi 160 min il əvvəl Afrikada yaranıb. Bundan əlavə, musiqinin insanın Yer üzündə olmasından əvvəl yarandığı deyilir. Quşların səsi, dənizin dalğası, təbiətdəki müxtəlif səslər ilk melodiyalar hesab olunur.

İnsanın doğulduğu ilk gündən musiqi ilə tanışlığı başlayır ki, bu da analardan eşitdiyimiz həzin layladır. Böyüdükcə beynimizdəki musiqi anlayışı dəyişir, müxtəlif janrlarda mahnı və musiqilər eşitməyə başlayırıq. Ən gözəl mahnının da əsasını musiqi təşkil edir. Bəzən mahnının sözlərinə fikir vermədən, sadəcə onun gözəl melodiyasının təsiri altına düşürük. Bu da musiqinin təsir gücünü bir daha göstərir. Yəni danışmadan da duyğuları çatdırmaq mümkündür. İnsanlar tərəfindən yaradılan, bəstələnən musiqi qədim dövrlərdə müxtəlif vasitələr, daha sonra isə musiqi alətlərinin yaranması ilə inkişaf edib. 7 not üzərində çox sadə yaradıldığını düşündüyümüz musiqilər əslində böyük və dərin incəsənət nümunəsi ortaya qoyur.

### *Qədim Azərbaycan musiqisi*



Azərbaycan musiqisi çoxəsrlik tarixə əsaslanır. Arxeoloji qazıntılar zamanı bu barədə bir sıra abidələrdən, Qobustan və Gəmiqaya qaya rəsmlərindən ilk məlumatlar alınıb. "Kitabi-Dədə Qorqud" dastanında və Nizaminin, Füzulinin əsərlərində Orta əsrlərin musiqi həyatı, musiqi alətləri barədə zəngin məlumatlar var.

İlk yazılı abidəmiz olan "Kitabi-Dədə Qorqud"da musiqi ilə bağlı bir sıra parçaların mövcudluğu, dastanda musiqi alətlərinin adlarının çəkilməsi musiqimizin qədimliyinin əyani sübutudur.

Azərbaycanın Səfiəddin Urməvi, Əbdülqadir Marağai, Mirzəbəy, Mir Möhsün Nəvvab kimi məşhur alimlərinin risalələrində Orta əsr musiqi mədəniyyətinin, ifaçılığının yüksək inkişaf səviyyəsi, Azərbaycan musiqisinin nəzəri problemləri əksini tapıb.

### *Musiqi növləri*

Digər incəsənət növləri kimi musiqinin də müxtəlif janrları var. Məşhur janrların sırasında klassik, pop, rok, caz, hip-hop və sairə yer alıb. Klassik musiqi zamanın sınağından çıxaraq bu günə qədər insanları cəlb edən, sevilib dinlənilən musiqidir. Bu musiqi növü Qərb ənənələrinə söykənərək XI əsrdən bu günə qədər böyük bir dövrü əhatə edir.

Klassik musiqinin əhatə etdiyi illər də özlüyündə bir neçə dövrə bölünür. Bu musiqidən danışdığımız zaman Avropa dühalarını unutmaq olmaz. İohann Sebastyan Bax, Motsart, Şopen, Rixard Vaqner, Mendelson, Cüzeppe Verdi klassik musiqinin dahiləri hesab olunurlar.

Azərbaycanda klassik musiqi XX əsr musiqi tarixində mühüm yer tutur. Bu dövrdə ölkəmizdə yüksək orijinal musiqi üslubu ilə seçilən bəstəkarlıq məktəbi yaranır. Azərbaycanda klassik musiqinin banisi dahi bəstəkar Üzeyir bəy Hacıbəyli hesab olunur. Növbəti dövrlərdə Azərbaycan musiqisi ölkə hüdudlarından kənarlarda, beynəlxalq miqyasda geniş şöhrət qazanır ki, bu da əsasən Qara Qarayev, Fikrət Əmirov və Niyazinin yaradıcılıq axtarışları ilə bağlıdır.

Rok ingilis sözü olub yellətmək, tərpətmək, atıb-tutmaq mənalarını verir. Bəzən rok pop musiqi ilə qarşı-qarşıya qoyulur. Əslində "rok" və "pop" anlayışları arasında açıq-aydın sərhəd yoxdur və bir çox musiqi növləri bu ikisinin arasındadır. Rokun kökləri ilk rok janrları rok-n-roll və rokabillinin də çıxdığı blyuzdan (blues) başlayır. Rokun ilk altjanrları o zamanlar folk, kantri (country), skiffl (sciffle) kimi xalq və estrada musiqisi ilə sıx əlaqədə yaranıb. Ötən əsrin 60-70-ci illərində rok musiqisinin ən böyük altjanrları yaranıb - bunlara hard-rok, pank-rok, rok-avanqard daxildir. Rokun əsas inkişaf mərkəzləri ABŞ və Qərbi Avropa hesab olunur. Böyük Britaniya roksevərliyinə görə Avropada öndədir və mahnılar əsasən ingilis dilində yazılır.



Caz əsasən XX əsrdə ABŞ-da zəncilər tərəfindən yaradılmış musiqi növü hesab edilir. ABŞ barlarında eşidilməyə başlayan musiqi zaman keçdikcə dünyaya yayılır və inkişaf edir. Zəncilər tərəfindən yaradıldığı hesab edilən caz musiqisi yavaş-yavaş ağdərililərin də diqqətini çəkir.

Zamanla digər ölkələrə yayılan və məşhurlaşan caz müəyyən dövrdə Azərbaycanda da populyarlıq qazanır. Azərbaycanda 1920-ci illərdə məşhurlaşan cazın əsası 1930-cu illərin sonunda Niyazi və Tofiq Quliyevin yaratdığı, "Dövlət Cazı" adı ilə tanınan Dövlət Estrada Orkestri tərəfindən qoyulub.

Təbii ki, janrlardan danışarkən Azərbaycan musiqi sənətinin şahı sayılan muğam diqqətdən kənarda qala bilməz. Bəzi mənbələrdə "muğam" sözünün ərəb dilindəki "məqam" sözündən gəldiyi bildirilir, mənası yer, mövqe deməkdir. Bu termin bəzi Şərq ölkələrində, həmçinin Orta Asiya və Hindistanda "makon" adlanır. Tarixçi İlya Məhərrəminin iddiasına görə, muğam sözünün kökü "muğ" sözündən götürülüb. Müəllif qeyd edir ki, məzhəbi dini ayinlər musiqi, avaz və ritmlə icra olunurdu və zaman keçdikcə bu, inkişaf edərək, formalaşaraq, indiki muğam səviyyəsinə gəlib çatıb. Mürəkkəb, emosional məna daşıyan, bədii həyəcan və müxtəlif musiqi obrazlarının inkişafını ifadə edən musiqi janrı hesab olunur. Azərbaycanda muğam üçlüyün müşayiəti ilə xanəndə tərəfindən ifa edilir və belə ansamblın ifa etdiyi vokal instrumental bütöv muğam dəstgahı adlanır. Dəstgah muğamın küll halında, yəni onun dəramədinin, bütün şöbə və guşələrinin, eləcə də hər şöbənin təsnif və rəng, yaxud diringələrinin ardıcıl ifa olunması deməkdir. Azərbaycan muğamları 2008-ci ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına daxil edilib. Muğamın müxtəlif növləri olsa da, müasir ifaçılıqda əsasən beşinə rast gəlinir. Bunlar "Yegah", "Dügah", "Segah", "Çahargah" və "Pəncgah"dır. Məlumatlara görə, muğam və şöbə adlarının yaranma tarixi yerlər və məkanlar ilə əlaqəlidir. Məsələn, "Qarabağ şikəstəsi", "Şirvan şikəstəsi", "Arazbarı", "Bayatı-Şiraz", "Ovşarı", "Əşiran" və sairə.

### *Azərbaycanın musiqi alətləri*

Azərbaycanda musiqi alətləri quruluşlarına görə müxtəlif növlərə ayrılır. Bunlar simli, nəfəs, zərb və özüsəslənən musiqi alətləridir. Simli alətlərə tar, saz, kamança, ud, tənbur, əlbuta, qorbuta, canqor, nəfəslə çalınanlara balaban, tütək, zurna, ney, tulum, zərb alətlərinə nağara, qaval, qoşanağara, dümbək, özüsəslənənlərə isə şaxşax, kaman və laqqutu aiddir.

Azərbaycanda zərb çalğı alətlərinin kökləri qədimlərə gedib çıxır. O dövrlərdə insanlar müəyyən vasitələrlə ritmlər yaradıblar. Belə vasitələrdən biri ayaqdöymə zərb üsulu idi ki, bu zaman qazılmış quyunun üzərinə quru ağac döşəyib üstünü müxtəlif heyvan dəriləri ilə örtərək onu ayaqla döyəcləməklə çeşidli ritmlər alarlarmış. İlk zərb alətlərinin belə yarandığı güman edilir. Hazırda musiqi sənətimizin inkişafında böyük rol oynayan zərb alətlərindən geniş istifadə edilir. Onlar əsasən 3 növə ayrılır - membranlı, idiofonlu və idiomembranlı.

Nəfəs alətlərinin ilk sadə nümunələri eramızdan bir neçə min il əvvəl qarğı və qamışdan hazırlanıb. Bu ənənə



dövrümüzə qədər yaşamış və bu gün də davam etdirilir. Hazırda bir neçə nəfəs aləti - ney, tütək, musiqar, sümsü və onun növləri qarğı və qamışdan hazırlanır. Nəfəs alətləri sümükdən, heyvanların buynuzundan, gildən, müxtəlif ağac növlərindən, mis və digər materiallardan da hazırlana bilər. Nəfəs alətlərinin texniki və bədii imkanları o qədər də geniş deyil. Bu da hər şeydən əvvəl onların səs diapazonunun məhdudluğu ilə əlaqədardır.

Simli çalğı alətlərinin yaranmasına gəlincə, bununla bağlı bir çox rəvayətlər var. Rəvayətə görə, qartalın parçaladığı bir heyvanın bağırsaqları ağacın budaqlarına dolaşır. Sonradan quruyub tarıma çəkilmiş bağırsaq külək əsdikcə titrəyərək müxtəlif musiqi səsləri çıxarmağa başlayır. Bu səsləri eşidən qədim insanlar ilk simli çalğı alətlərini icad edirlər. Tarixən simli çalğı alətlərinin gövdəsi, qolu və kəlləsi müxtəlif ağac növlərindən, simləri və qoluna bağlanmış pərdələri isə müəyyən üsullarla heyvan bağırsağından hazırlanıb.

### *"Krala layiq" musiqi aləti*

Qədim nəfəs alətlərindən biri olan fleyta italyanca "flauto" sözündən götürülüb, külək, meh deməkdir. Keçmişdə qamışdan düzəldilən fleyta əsrlər boyu təkmilləşdirilib. Qədim dövrlərdə şaquli tutularaq çalınan bu alət hazırda ifa zamanı üfüqi vəziyyətdə tutulur. Alətin hazırkı forması ilk dəfə 1832-ci ildə alman fleytaçısı T.Byom tərəfindən təkmilləşdirilib.

İlk dəfə fleytanı opera orkestrində daimi alət kimi tətbiq edən Lülli olub. Onun orkestrində fleyta dikinə (blokfleyta) ifa olunurdu. Bu fleytanın səsi daha poetik olduğu üçün başqa bir adla italyanca "flüte dolce" - zərif fleyta adlandırılırdı. Böyük səs gücünə malik köndələn fleyta daha uzunömürlü olaraq XVIII yüzilliyin ortalarında dikinə tutulan fleytanı simfonik orkestrdən tamamilə sıxışdırıb çıxara bilir. XV əsrdən etibarən fleyta instrumental ansamblların tərkibinə daxil olub. Eyni zamanda fleytadan çox zaman solo aləti kimi də istifadə edilir.

Rusiya musiqi alətlərindən biri olan balalayka "qarışdırmaq" və "balakanie" sözlərindən alınıb. Qədim balalayka müasir növündən fərqlənirdi. Əvvəlki növündə 2 sim olduğu halda indiki alət 3 simlidir. Bu musiqi aləti əslində solo ifa üçün nəzərdə tutulub, lakin son illərdə balalayka orkestrləri də qurulub.



Simli musiqi alətlərindən olan skripka XVI əsrdə meydana gəlsə də, XVII əsrdə geniş yayılır. Tarixin ən məşhur skripka ustası Antonio Stradivari olub. Azərbaycanda isə ilk skripkaçı Ceyhun Bədəlbəyli hesab olunur. Müasir dövrdə bu alətdən həm instrumental ansamblların əsas tərkib hissəsi, həm də solo alət kimi istifadə olunur.

Royal musiqi alətinin fransızcadan tərcüməsi "kral, krala layiq" deməkdir. Bu adın seçilməsi kralların bu musiqi alətinə olan marağından irəli gəlmir. Sadəcə royalın geniş ifa imkanları ilə bağlıdır. Royal ən çoxsəsli musiqi aləti hesab olunur.

Paixiao Panflute qədim Çin musiqi alətidir. Alət ilk dəfə XI əsrdə kəşf edilib, daha sonra isə istifadə olunmadığı üçün unudulub. Musiqi aləti XX əsrdə yenidən meydana çıxıb.

Sitar çoxsimli musiqi alətidir. Hindistan xalq aləti olan sitarın əsas 7 simi var. Bundan əlavə, sitarda 9-13 rezonans edən simlər də var ki, onlar əsas simlərin səsinə rezonansla cavab verməklə sitarı digər alətlərdən fərqləndirən unikal səsləndirmə yaradırlar.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Sağlıq olsun

# Ruhun şəfası

**Musiqi terapiyası ən qədim müalicə üsullarından biridir və dörd min ildir müxtəlif xəstəliklərin müalicəsində istifadə edilir. Hələ tarixin ən erkən dövrlərində insanlar təbiətdə olan nəyisə izah edə bilməyəndə bunun sehirli və sirli olduğunu düşünüblər.**



Onlar səsləri ruhların səsi kimi təsəvvür edib təbil çalmaqla və ya başqa səslər çıxarmaqla öz səslərini ruhlara eşitdirməyə çalışıblar. Şamanlar bir növ xəstəlik səbəbi olaraq düşündükləri pis ruhların xəstələrin bədənini tərk etməsi üçün ritm, musiqi və rəqsdən istifadə ediblər. Oxunan mahnılar, çalınan musiqilər, ritm və xəstəliklərin müalicəsi üçün yandırılan buxur pis ruhları qovmaq məqsədi daşıyıb. Qədim Çində belə hesab olunub ki, "lo" adlanan yüksəksəsli qonq pis ruhları və cinləri xəstədən uzaqlaşdırır.

Qədim yunanlar da musiqini bütün fəzilətlərin kökü hesab ediblər. Yunan mifologiyasında lirada gözəl ifa etməsi ilə tanınan Apollon həm musiqinin, həm də təbabətin tanrısı hesab olunurdu. O, lira çalmaqla insanların dərdlərini aradan qaldırırdı.

Təbabətin atası Hippokrat bəzi xəstələri müalicə üçün məbədə apararmış. Hippokrata görə, başqa tibb vasitələrinin faydasız olduğu xəstəliklərdə musiqini sınamaq vacibdir.

### *Əsəbi insanları melodiyalarla müalicə etmək mümkündür*

Yunan filosofu Platonun (Əflatun) fikrincə, musiqi harmoniya və ritmlə birlikdə ruhun dərinliklərinə təsir edərək insana tolerantlıq və rahatlıq verir. Qədim Yunanıstanda musiqidən epilepsiya, depressiya, melanxoliya, maniya, dəlilik, isteriya, iflic, qızdırma, revmatizm, müxtəlif ağrılar, taun, qızılca, quduzluq və sair kimi xəstəliklərin müalicəsində istifadə edildiyinə dair məlumatlar var.

Hətta Homer "Odisseya"da musiqinin qanaxmaya yaxşı təsir göstərdiyini belə iddia edib. Filosof və riyaziyyatçı Pifaqor isə ümidsizliyə qapılan və ya əsəbi olan insanları müəyyən melodiyalarla müalicə etməyin mümkünlüyünü araşdırıb. Pifaqor səslərin ahənginin nəticəsi olan musiqinin bədəndəki harmoniyanın pozulduğu hallarda onun bərpasına ən təsirli vasitə olduğunu hesab edib.

### *İnsan əhvalının eniş-yoxuşu*

Böyük təbib İbn Sina da musiqinin insan orqanizminə təsirini araşdırıb. Müalicənin təsirli olması, xəstənin əqli-mənəvi tarazlığının yüksəldilməsi üçün ətrafdakı mühitin ürəyəyatan olmasının vacibliyini kəşf edən təbib buna görə musiqi dinləməyi ən təsirli üsullardan biri kimi dəyərləndirib.

Musiqi notlarının insan əhvali-ruhiyyəsinin eniş-yoxuşunu təmsil etdiyini müəyyən edən İbn Sinanın fikrincə, musiqinin bizə xoş təsiri eşitmə gücümüzə görə yox, həmin kompozisiyadan müxtəlif mənalar çıxaran idrak qabiliyyətimizə, başqa sözlə, musiqinin oyandırdığı hisslərimizə görədir.

Övliya Çələbi də məşhur səyahət kitabında çəngilərin, ud ifaçılarının və skripkaçıların xəstəxanalarda musiqi seansları ifa edərək xəstələrin sağalmasına töhfə verməyə çalışdıqlarından bəhs edib.

Musiqi terapiyası XVIII əsrdən etibarən tibbin müxtəlif sahələrində istifadə olunub, XX əsrdə isə bu müalicə metodu Avropada daha da inkişaf etdirilib.

Beləliklə, Avropada məktəblərdə və xəstəxanalarda həm uşaqlar, həm də böyüklər üçün musiqi terapiyası seansları təşkil olunmağa başlanıb. Xüsusilə musiqinin tətbiqi ilə xəstə uşaqlarda çox uğurlu nəticələr əldə edilib.

## Xatirələr yada düşər

**Sevdiyimiz musiqiyə qulaq asanda beynimizdə, adətən, həyəcanlı və ya xoşbəxt olduğumuz vəziyyətlərdə ifraz olunan "dopamin" adlı maddənin ifrazının artdığı bildirilir.**



Bu, musiqiyə qulaq asmağın nə üçün xoşagələn olduğunun səbəbini izah edir. Eyni zamanda müəyyən edilib ki, bu maddənin ifrazı musiqi pik həddə çatdıqda daha çox olur. Yəni musiqinin eniş-yoxuşlarına paralel olaraq, beyində də "dopamin" ifrazında dəyişmələr müşahidə olunur. Bütün bunlar beynin musiqiyə ani reaksiyaları olsa da, musiqi dinləməklə beyində qalıcı dəyişikliklərin yarandığını da göstərir. Məsələn, Alsheymer xəstələri bəzən ailələrini, hətta kim olduqlarını belə xatırlaya bilmirlər, amma uşaqlıqdan bildikləri mahnı ifa olunanda həmin mahnını müşayiət edə, hətta mahnının oyatdığı xatirələri də yada sala bilirlər. Bu nümunə də göstərir ki, şüurlu şəkildə öyrəndiyimiz bir çox şey beynimizdən silinə bilər, lakin musiqinin daşıdığı məlumat beyində daha çox qalıcı olur.

## Beyninizin yaşlanmasını istəmirsinizsə...

**2018-ci ildə aparılan araşdırma zamanı tədqiqatçılar beynin necə yaşlandığını öyrənmək üçün peşəkar və həvəskar musiqiçilərin MRT nəticələrini qeyri-musiqiçilərin MRT nəticələri ilə müqayisə ediblər. Bu zaman musiqiçilərin beyinlərinin daha gənc göründüyü qənaətinə gəliblər.**



Almaniyanın Jena Universitetinin professoru və tədqiqatın müəlliflərindən olan Kristian Qasera araşdırma zamanı daha maraqlı bir faktın da ortaya çıxdığını bildirib. Məlum olub ki, həvəskar musiqiçilərin beyni peşəkar musiqiçilərə nəzərən daha gec qocalır. Alimlər bunu həvəskarların musiqi ilə dolanışıq məqsədilə məşğul olmamaları ilə izah edirlər. Yəni onlar boş zamanlarında sadəcə əylənmək xatirinə musiqiyə qulaq asdıqları üçün peşəkar musiqiçilərdə olan stres faktorlarını yaşamırlar.

Həm də alimlər musiqi alətində ifa etməyi beyin üçün məşq sayırlar. Şahzadə Edvard Adası Universitetinin psixologiya üzrə dosenti Cessika Stronq söyləyib ki, hələ də musiqi ifa edən yaşlı insanlar, əvvəllər musiqi ifa edənlər və musiqiçi olmayan insanlar arasında koqnitiv fərqləri araşdırıb. İştirakçılar yaddaş, ardıcıllıq və diqqət, tapşırıqları yerinə yetirmək bacarıqları və ətraf mühiti dərk etməyə kömək edən vizual məkan qabiliyyətləri üçün sınaqdan keçiriliblər. Musiqi hazırlığı olan iştirakçılar anlama, planlaşdırma və diqqət sarıdan daha yaxşı nəticə göstəriblər.

2019-cu ildə isə alim Klud Alain və onun Rotman Tədqiqat İnstitutundakı komandası musiqi təhsilinin yaşlı insanların beyninə necə təsir etdiyini araşdırıb. Tədqiqatçılar yaşlıları musiqi və ya təsviri sənət seanslarına yazdırıblar. İştirakçılar seanslarda iştirak etməzdən əvvəl şifahi anlama, yaddaş və koqnitiv nəzarəti ölçən testlərdən keçiblər. Üç aydan sonra musiqi seanslarına qatılan şəxslərin tormozlayıcı nəzarət bacarıqlarının yaxşılaşdığı müşahidə edilib.

## Klassik "ağrıkəsici"

**Massaçusets xəstəxanasında ürək əməliyyatı keçirmiş insanlar üzərində aparılan müşahidələrə əsasən məlum olub ki, əməliyyatdan sonra Volfqanq Amadey Motsartın fortepiano sonatalarını dinləyən xəstələr digər xəstələrə nisbətən daha sürətli sağalıblar. Onların ürək ritmləri və qan təzyiqi normal vəziyyətə daha tez qayıdıb.**



Eyni zamanda araşdırmalarla sübut olunub ki, səbəbi bilinməyən ağrılardan əziyyət çəkən xəstələr sadəcə musiqi dinləməklə rahatlaşa bilirlər. Ən yaxşı "ağrıkəsici" musiqi isə klassik musiqi, xüsusilə Motsart və İohann Sebastyan Baxın əsərlərinin olduğu hesab edilir.

Klassik musiqi dinləmənin başqa bir faydası da stresin səviyyəsini azaltmasıdır. Tayvanda 236 hamilə qadın üzərində aparılan araşdırma göstərib ki, iki həftə ərzində gündə 30 dəqiqə klassik musiqi dinləyən iştirakçıların musiqi dinləməyən iştirakçılarla müqayisədə stres, narahatlıq və depressiyaları əhəmiyyətli dərəcədə azalıb.

Alimlər bunu belə izah edirlər ki, klassik musiqinin tempi insan ürəyinə bənzəyir və bu hal həm narahatlığı, həm də depressiyanı aradan qaldırır.

## Eşitmə qabiliyyətimizi yaxşılaşdıran musiqi

**Davamlı musiqiyə qulaq asmaq karolmanın qarşısını alır. Təcrübə göstərib ki, musiqiçilər heç vaxt musiqi ilə məşğul olmayanlardan daha yaxşı eşidirlər:**



İdman məşqləri zamanı musiqiyə qulaq asılarsa, bu zaman effektivlik 20 faiz artar;

Psixoloji eksperimentlər sübut edib ki, müntəzəm olaraq sevimli musiqiyə qulaq asan insanlar 5 dəfə daha çox xeyirxah işlərlə məşğul olur və digər insanlara kömək edirlər;

Musiqi təhsili alan uşaqlar digər uşaqlara nisbətən oxumaq və yazmaqda daha rahat olurlar. Musiqi uşaqlarda yaddaşı gücləndirir və emosional zəkanın (EQ) inkişafına böyük təsir göstərir.

Musiqi bədəndəki gərginliyi azaldaraq ürək döyüntüsünü tənzimləyir və daha rahat yuxuya sahib olmağı təmin edir;

Təzyiq problemi olan xəstələr musiqi dinləyərək daha qısa müddətdə sağalırlar. Gündə orta hesabla 30 dəqiqə musiqi dinləyən xəstələrdə təzyiq və nəbz normal olur;

Araşdırmalar zamanı müşahidə olunub ki, musiqi meditasiyasında istifadə edilən ağır metal və texno musiqi ifaları xəstələri narahat edir və ürək döyüntülərini nizamsızlaşdırır. Ona görə də musiqi terapiyasında belə musiqidən istifadə edilməsi arzuolunmaz hesab edilir;

Qulaqcıq vasitəsilə yüksək səslə mahnıya qulaq asmaq isə qulaq və başağrılarına səbəb olur.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Naftalan AzTU ilə əməkdaşlıq edəcək

**Naftalan Şəhər İcra Hakimiyyətində Azərbaycan Texniki Universitetinin (AzTU) nümayəndələri ilə işgüzar görüş keçirilmişdir.**

Görüşdə şəhər icra hakimiyyətinin başçısı Vüqar Novruzov, universitetin rektoru, iqtisad elmləri doktoru Vilayət Vəliyev, Logistika və Nəqliyyat İnstitutunun direktoru Fuad Daşdəmirov iştirak etmişlər.



Görüş zamanı qonaqlara Naftalan şəhəri, onun turizm potensialı və Naftalan nefti haqqında ətraflı məlumat verilib. Şəhərdə son illər həyata keçirilən layihələr və bunun sayəsində Naftalanın beynəlxalq turizm mərkəzinə çevrilməsi barədə danışılıb.

AzTU-nun rektoru Vilayət Vəliyev "Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması qaydası"nın təsdiq edilməsi haqqında Nazirlər Kabinetinin müvafiq qərarının mahiyyəti barədə danışaraq hərəkətin təhlükəsizliyi baxımından bu görüşün önəm daşıdığını diqqətə çatdırıb. Qeyd edib ki, burada dayanıqlı şəhər modelinin tətbiq edilməsi nəzərdə tutulub.

Görüş zamanı Naftalan şəhərində küçə və yol şəbəkəsində hərəkətin bütün iştirakçılarının səmərəli, təhlükəsiz və rahat hərəkətini təmin edən "Şəhərdaxili hərəkət (mobillik) planı"nın hazırlanması istiqamətində yaxın gələcəkdə görüləcək işlər müzakirə edilib, mobillik planı üzrə monitorinqlərin keçirilməsinin zəruriliyindən və bu tədbirlər üzrə hədəflərdən söz açılıb.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün***
***abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | | |
|---|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* | *1 illik* 124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* | |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* | *6 aylıq* 62,40 (altmış iki manat qırx qəpik) manat |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* | |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* | *3 aylıq* 31,20 (otuz bir manat iyirmi qəpik) manat |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* | |
| *"City press" MMC* | *(055) 819-09-26* | |

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# "Sərhəd" hərbi-idman oyunlarında 181 məktəbdən 905 şagird iştirak edib









**Dövlət Sərhəd Xidmətinin (DSX), Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin birgə tədbirlər planı əsasında hər il təşkil olunan "Sərhəd" hərbi-idman oyunları başa çatıb.**

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, bu il ümumilikdə üç mərhələdə keçirilmiş yarışlarda 36 sərhədyanı və digər rayonların 181 məktəbinin 905 şagirdi iştirak edib, ilk iki mərhələnin yekunlarına görə 10 komanda iyunun 1-dən 10-dək final mərhələsində mübarizələrini davam etdiriblər.

Komandalar "Sərhəd pozucusunun yaxalanması və onun təxliyə edilməsi", "Ləpirçilik", "Sərhəd naryadı tərəfindən nəqliyyat vasitəsinə baxışın keçirilməsi", "Maskalanma", "Yaralanmış sərhəd naryadına ilkin tibbi yardımın göstərilməsi və onun təxliyə olunması", "Avtomatın sökülməsi və yığılması", "Tüfəngdən hədəfə atəş açmaq" və "Sıra hazırlığı" üzrə bilik və bacarıqlarını nümayiş etdiriblər.



Hərbi-idman oyununun keçirildiyi günlərdə məktəblilər sərhədçilərin xidməti və məişət şəraiti ilə tanış olub, onlar üçün bir sıra maraqlı ekskursiyalar təşkil edilib, çoxsaylı mədəni-kütləvi tədbirlər, bilik və idman yarışları keçirilib. Final mərhələsinin yekunlarına görə Qusar rayonunun Yuxarı Zeyxur kənd tam orta məktəbinin "Zeyxur" komandası birinci, Cəlilabad rayonunun Ləkin kənd tam orta məktəbinin "Ləkin" komandası ikinci, Qax rayonunun Zəyəm kənd tam orta məktəbinin "Zəfər" komandası isə üçüncü yeri tutublar.

İyunun 10-da Dövlət Sərhəd Xidmətinin "Lənkəran" sərhəd dəstəsində "Sərhəd" hərbi-idman oyunlarının yekunlarına həsr olunmuş təntənəli tədbir keçirilib.

Tədbirdə iştirak edən DSX-nin, Gənclər və İdman Nazirliyinin və Təhsil Nazirliyinin rəsmiləri qalib komandaları təbrik edərək bu oyunların gənclərdə Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında, Ulu Öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasında, sərhədçi peşəsinə marağın artırılmasında da mühüm rol oynadığını vurğulayıblar.

Tədbirdə qaliblər kubok, medal, diplom və qiymətli hədiyyələrlə, eyni zamanda oyunlarda fəal iştirak etmiş komandalar isə həvəsləndirici hədiyyələrlə mükafatlandırılıblar.

Sonda "Sərhəd" hərbi idman oyununun iştirakçıları ilə xatirə fotoşəkilləri çəkilib.







# Dünya pandemiyadan qurtulur

## Qapılar açılır, səyahətlər bərpa olunur, turizm dirçəlir

**Amerika Birləşmiş Ştatları, Kanada, Böyük Britaniya və bir çox başqa ölkələrdə xaricdən gəlməmişdən əvvəl hava yolu sərnişinlərindən COVID-19 üçün mənfi test tələb edilməyəcəyi bildirilib. Ancaq bəzi yerlərdə bu tələb hələ də qüvvədə qalmaqdadır.**



Dünən ABŞ səlahiyyətliləri ölkənin koronavirusla mübarizədə əldə etdiyi böyük irəliləyiş səbəbindən testləri ləğv etdiklərini açıqlayıblar. Bundan əlavə, turizm sənayesi bununla bağlı təkid edirdi, çünki ölkəyə gəlməmişdən əvvəl testlər etmək zərurəti xaricdə ilişib qalmaqdan ehtiyatlanan səyahətçilərdə narahatlıq doğururdu.

Beləliklə, testlər iyunun 12-dən etibarən ləğv edilir.

### Yeni ştamlar aşkar edilərsə, testlər dərhal bərpa olunacaq

Bununla belə, xəstəliklərə nəzarət və onların qarşısının alınması üzrə milli mərkəzlər bu siyasəti 90 gün ərzində yenidən nəzərdən keçirəcək. Hakimiyyət orqanları ölkədə koronavirusun yeni ştamları aşkar edilərsə, testlərin dərhal bərpa olunacağını vurğulayıblar.

ABŞ mediasının sitat gətirdiyi yüksəkvəzifəli bir məmur qərarı belə izah etdi: "Böyük irəliləyiş sayəsində bu addımı ata bilərik - biz həyati əhəmiyyətli peyvəndlər yaratdıq və müalicələri geniş şəkildə əlçatan etdik. Bu vasitələr ciddi xəstəliklərin və koronavirusdan ölümün qarşısını almaq üçün istifadə olunur".

2021-ci ilin yanvarında ABŞ hava yolu sərnişinlərindən uçuşdan əvvəl üç gün ərzində testdən keçmələri və ya virusdan yaxınlarda sağaldığına dair sübut təqdim etmələri ilə bağlı qaydalar müəyyənləşdirmişdi. ABŞ Prezidenti Co Bayden ötən ilin dekabrında qaydaları sərtləşdirdi - koronavirusun Omikron variantına görə infeksiyaların sayı artdığından uçuşa 24 saatdan gec olmayaraq mənfi test verilməli idi.

ABŞ-da infeksiyaların sayı 2022-ci ilin yanvarından bəri kəskin şəkildə azaldı, baxmayaraq ki, son həftələrdə rəqəmlər yenidən artmağa başlayıb. Lakin ölkədə ölüm nisbəti pandemiyanın yüksək olduğu vaxtdan xeyli aşağıdır.

### Test tələbinin ləğv edilməsi bu il ABŞ-a əlavə olaraq 5,4 milyon ziyarətçi gətirəcək

Ölkənin turizm sektorunun nümayəndələri ABŞ-ın test siyasətini yenidən qiymətləndirməkdə digər ölkələrdən geri qaldığını təkid edirlər.

Məsələn, Böyük Britaniya hələ mart ayında səyahət üçün bütün COVID-19 sınaq tələblərini ləğv edib. Kanada bunu təxminən eyni vaxtda həyata keçirib.

ABŞ Səyahət Assosiasiyasının prezidenti Rocer Dou siyasət dəyişikliklliyinin ölkənin turizm sənayesinin bərpasını sürətləndirəcəyini bildirib, Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyası isə bunun yaxşı xəbər olduğunu qeyd edib, çünki "qeyri-effektiv bir tədbir ləğv edilib". Virgin Atlantic aviaşirkəti də bu qərarı alqışlayıb və bu yay trans-Atlantik səyahətlərin bərpasını dəstəkləyəcəyini bəyan edib.

Ekspertlərin hesablamalarına görə, test tələbinin aradan qaldırılması bu il ABŞ-a əlavə olaraq 5,4 milyon ziyarətçi gətirəcək və səyahət xərclərini 12 faiz artıracaq.

Kanadanın sınaqları ləğv etmək qərarı da epidemioloji vəziyyətin yaxşılaşması, habelə hava səyahətləri və turizm gəlirlərinin bərpası ümidləri ilə əlaqədar idi.

### Yaponiya turistlər üçün yenidən açılır

Pandemiya zamanı ən sərt məhdudiyyətləri tətbiq edən Yaponiya hazırda Rusiya, ABŞ, Böyük Britaniya, Çin və Cənubi Koreya da daxil olmaqla, 98 ölkədən turistlərin səyahət ərizələrini qəbul etməyə başlayıb. İlk turistlərin ölkəyə iyulda gələcəyi gözlənilir.

Hələlik ölkəyə yalnız mütəşəkkil tur qruplarının səfərinə icazə verilir və ölkə rəsmiləri hesab edirlər ki, əcnəbi qonaqların Yaponiyaya fərdi qaydada gəlməsi üçün müəyyən vaxt lazımdır.

Qaydalara görə, turistlərdən çox vaxt maska taxmaq tələb olunur. Onlar həmçinin COVID-19-a yoluxma halında tibbi xərcləri ödəmək üçün sığorta almalıdırlar. Turist qruplarının sayında heç bir məhdudiyyət yoxdur, lakin tur boyu qrupu bələdçi müşayiət etməlidir.

### Türkiyə və Yunanıstana da testsiz getmək olar

Turistlər arasında çox populyar olan istiqamətlərdə - Türkiyə, Yunanıstan, İspaniya, Tailandda səyahətçilər üçün məcburi testlər artıq ləğv edilib.

Haradasa, məsələn, Yunanıstanda olduğu kimi, bunu yüksək mövsüm üçün - 2022-ci il mayın 1-dən avqustun 31-dək ediblər.

Tailand, İtaliya və İspaniyada isə, peyvənd olunanların mənfi test təqdim etməsinə ehtiyac yoxdur.

### Çin hələ yumşalmaya getmir

Ən sərt qaydaların bəziləri pandemiyanın yarandığı Çində tətbiq olunmağa davam edir. Vətəndaşlar, rezidentlər və etibarlı vizası olanlar istisna olmaqla, bu ölkəyə beynəlxalq səyahətlər etmək tamamilə qadağandır.

Bundan əlavə, Çinə daxil ola bilənlər dövlət tərəfindən təsdiq edilmiş mənzillərdə öz vəsaitləri hesabına 14 gün karantində qalmalı və yenidən test verməlidirlər.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5975**
**Sifariş 1580**
**Qiyməti 40 qəpik**